www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 fevral 2015-ci il Cümə axşamı № 26 (6054) Qiymәti 40 qəpik

**Xəbər**

## Bakıda ər keçmiş arvadını qəddarlıqla öldürdü

yazısı səh.2-də

## “Lamiyənin işi” ilə bağlı növbəti bomba partladı

# “ASLAN ASLANOV LAMİYƏNİN UŞAĞINI ÖLDÜRTDÜRƏ BİLƏR” - ŞOK İDDİA

Ombudsman Aparatı türmədə doğulan uşağın atası ilə bağlı təkzib yaydı; adı gizli saxlanan məhkum kişinin bu məsələni boynuna götürməyə məcbur edilməsi təsdiqləndi; A.Aslanovun oğlunun Ədliyyə Nazirliyinin İstintaq İdarəsində müstəntiq işləməsi qisasçılıq versiyasını gücləndirir



yazısı səh.4-də

**Gündəm**

### Baş həkim xəstə qadını döydü - işdən qovuldu



26 saylı poliklinikanın rəhbəri Pənah Əliyev döydüyü qadının yaxınları tərəfindən cəzalandırılıb; nazir Oqtay Şirəliyev bu biabırçılığı eşidər-eşitməz baş həkimi əmrlə vəzifədən azad edib

yazısı səh.2-də

### “Vaşinqton Tayms”da Azərbaycan müzakirələri

yazısı səh.8-də

### Rusiyanın Azərbaycanda seçkiyə təsir imkanları...

yazısı səh.9-də

### NİDA-çı Anar Məmmədli ilə yemək yediyinə görə “kars”a salınıb

yazısı səh.6-da

### Türkiyənin Bakıdakı səfiri “Khazar İslands”da oldu

yazısı səh.3-də

### “Azadlıq - 2015” Seçki Bloku təsis edildi

yazısı səh.2-də

### Başqan müavini ilə Qubad İbadoğlu “atışdı”

yazısı səh.6-da

### Türkiyədən rusiyalı turistlərə böyük güzəşt

yazısı səh.2-də

*Rəbiyyət Aslanova:*

### “Bu yaxınlarda Gülər Əhmədovanı gördüm, ancaq...”

yazısı səh.7-də

### Müdafiə Nazirliyi rəsmisinin dedikləri ajiotaj yaratdı

yazısı səh.12-də

### “Express kredit” mağazalar şəbəkəsi bağlana bilər

yazısı səh.13-də

## ABŞ Rusiyaya həlledici zərbəni Azərbaycanda vuracaq

Ağ Ev Kremlin Qarabağ başda olmaqla, regiondakı münaqişələrin həllini əngəlləməsini öz maraqlarına ən böyük təhdid sayır; Kremlin “Milyarderlər İttifaqı”nı canlandırmaq səyləri təsadüfdürmü?

yazısı səh.9-da



*Eldar İbrahimov:*

### “O serjanta saxlamaya da bilərdim, neyləyəcəkdi mənə?”

yazısı səh.5-də



*Vəfa Quluzadə:*

### “Ermənilər boğaza yığılıblar, Rusiyadan ayrılmaq istəyirlər”

yazısı səh.11-də



*Dəyanət Rzayev:*

### “Ölkədə psixopatların sayı gündən-günə artır”

yazısı səh.15-də

# Baş həkim xəstə qadını döydü - işdən qovuldu



## Azay Quliyev seçiciləri ilə görüşdü

**Milli Məclisin deputatı Azay Quliyev Şirvan şəhərində seçiciləri ilə növbəti görüşünü keçirib. Millət vəkili görüşdə iştirak edən Şirvan sakinlərinin müraciət və şikayətlərini dinləyib, üzləşdikləri problemlərin həlli istiqamətində müvafiq qərarlar qəbul edib.**

Gənclərin də fəal şəkildə iştirak etdiyi görüşdə Azay Quliyev onların irəli sürdükləri təkliflərin reallaşması üçün hər cür dəstək verməyə hazır olduğunu bildirib. Millət vəkili şəhər Gənclər və İdman İdarəsi ilə gənclər təşkilatları arasında əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

Sonra Azay Quliyevin dəstəyi ilə Şirvan şəhərinin Sahib Zeynalov küçəsində yerləşən yenicə təmir olunmuş mərasim zalında ətraf ərazidəki binalarda yaşayan seçicilərlə görüş keçirilib. Millət vəkili sakinləri maraqlandıran sualları cavablandırıb.

Görüşdə Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Şəfahət Əsgərov və şəhər Gənclər və İdman İdarəsinin rəisi Azər Quliyev də iştirak edib.

## Türkiyədən rusiyalı turistlərə böyük güzəşt

**Türkiyə hökuməti Rusiyadan gələn turistlərin daşınması üçün əlavə maliyyə ayırmaq niyyətindədir. Belə qərar Türkiyə kurortlarının rusiyalılar arasındakı populyarlığının qorunub saxlanılması üçün qəbul edilib.**

Musavat.com xəbər verir ki, Rusiya mediasında gedən xəbərlərə görə, Türkiyənin baş nazir Əhməd Davudoğlu bildirib ki, hökumət Rusiyadan Türkiyəyə və geriyə uçan sərnişinlər üçün hər təyyarə reysinə 6 min dollar vəsait ayırmağı planlaşdırır. Bu vəsait reysin xərclərinin, o cümlədən yanacaq məsrəflərinin 50 faizini qapayacaq. Bu sərəncam yaxın vaxtlarda qəbul ediləbilər.

Beləliklə, Ankarada istəyirlər ki, Rusiyanın ağır iqtisadi durumunda rusiyalı turistlərin Türkiyə kurortlarına axını azalmasın. Türkiyə mediasının yazdığına görə, 2014-cü ilin ikinci yarısında Türkiyəyə istirahətə gedən turistlərin sayında 6 faizlik azalma olub. İndiki əlverişsiz iqtisadi vəziyyədə bu göstəricilərin daha da azalacağı gözlənilir.

Məhz ona görə də Türkiyə hökuməti «Turizm sənayesinin dəstəklənməsi üçün tədbirlər planı" işləyib hazırlamağa məcbur olub. Bu tədbirlər planında Rusiyaya önəmli yer ayrılıb: "Turizm bizim iqtisadiyyatın mühüm sahələrindən biridir. Ötən il Türkiyəyə 40 milyon turist gəlib və biz bu rəqəmi 50 milyona qaldırmağı planlaşdırırıq".

❑ **N.Asifli, Musavat.com**

## Bakıda kişi keçmiş arvadını İŞİD qəddarlığı ilə öldürdü

**Bakının Nərimanov rayonunda dəhşətli qətl hadisəsi baş verib. Bu barədə vesti.az-a Nərimanov Rayon Polis İdarəsindən bildiriblər. Qətl Yusif Vəzir Çəmənzəminli küçəsində yerləşən 106№li evin mənzillərinin birində baş verib. Cinayətin qurbanı 28 yaşlı Muradova Nübar Cümə qızı olub.**

Fakt üzrə Muradovanın keçmiş əri 1982-ci il təvəllüdlü Qurban Əflatun oğlu Kazımov saxlanılıb. Hadisə yerinə gələn hüquq-mühafizə orqanı əməkdaşları kişinin keçmiş arvadına etdiklərini gördükdə dəhşətə gəliblər. O, arvadının yalnız başını deyil, cinsiyyət orqanını da kəsib sonra isə arvadının qaşlarına yapışdırıb. Bütün bunlar iki azyaşlı uşağın olduğu evdə baş verib. Kişi onları qonşu otaqda bağlayıb, sonra arvadını qətlə yetirib.

İlkin məlumata əsasən cinayətin motivi Muradovanın davranışı olub. Cütlük məhkəmə yolu ilə ayrılıb. Amma məhkəmənin qərarı ilə bir mənzildə yaşayıblar.

Dindirilmə zamanı Kazımov etiraf edib ki, qonşuların onun keçmiş arvadının davranışına dair ikimənalı atmacalarından bezib. Fevral ayının 2-də gecə evə gələrək Muradova ilə mübahisə edib, bir evdə yaşadıqları üçün Muradovadan özünü buna uyğun aparmasını tələb edib. Qadın isə cavab olaraq azad olduğunu, istədiyi kimi davranmaq ixtiyarında olduğunu bildirib. Bu, Kazımovu özündən çıxarıb...

Bəzi KİV-in məlumatına əsasən Kazımov törətdiyi əməldən sonra intihara cəhd edərək damarlarını kəsib. Amma Nərimanov RPİ-dən bu informasiyanın həqiqətə uyğun olmadığını bildiriblər.

**Başsağlığı**

**Arif Hacılı və Gülağa Aslanlı Rəfail Tağızadəyə anası Gülarə xanımın vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**



## Azərbaycanlılara qarşı ilk soyqırımın 110 illiyi qeyd olundu

**Fevralın 4-də Qarabağ Azadlıq Təşkilatı (QAT) XX əsrin ilk illərində Azərbaycan xalqına qarşı erməni terror təşkilatları və silahlı dəstələri tərəfindən həyata keçirilən soyqırımın 110 illiyi ilə əlaqədar "Azərbaycan xalqına qarşı ilk soyqırım" mövzusunda dəyirmi masa keçirib.**

QAT sədri Akif Nağı, QHT rəhbərləri Rauf Zeyni, Faiq İsmayılov, Mübariz Əhmədoğlu, Rey Kərimoğlu, Qafar Çaxmaqlı, Vəli Əlibəyov, Mehdi Mehdiyev, Üzeyir Cəfərov, Kamil Şirinov, Radə Abbaş, Mehriban Abdullayeva, Fəridə Əsgərova, Şamil Mehdi, Nəsimi Qarabağlı, İradə Polad, İradə Rzazadə, Anar Əliyev, tədqiqatçı alimlər Elman Nəsirov, Firdovsiyə Əhmədova, Nazim Mustafa, Tofiq Həsənov və digərləri çıxış edərək məsələnin əhəmiyyəti və görüləcək işlərlə bağlı çıxış ediblər. Onlar bildiriblər ki, ermənilərin saxta "erməni soyqırımı" ətrafında hay-küy salmalarının, saxta "soyqırımı"n "100 illiyi" ilə bağlı iddialarının heç bir əsası yoxdur. Erməni ideoloqlarının dediklərinin, beynəlxalq rəyə zorla yeritmək istədiklərinin hamısı yalandır. Ermənilərə qarşı heç vaxt, heç bir soyqırım törədilməyibdir. Regionda soyqırım yalnız azərbaycanlılara qarşı, özü də ötən yüz on il ərzində düz 3 dəfə törədilib. Bu faciəli hadisələr 1905-1906, 1918-1920 və 1988-1994-cü illərdə ermənilər tərəfindən törədilmişdir. Biz bu gün XX əsrin ilk soyqırım hadisəsinin 110 illiyini qeyd edir, ermənilərin törətdikləri vəhşiliklərı dünyanın nəzərinə çatdırırıq. Bunu dünyanın bizim halımıza, başımıza gətirilənlərə yanması üçün etmirik, ermənilərin həqiqi, vəhşi, terrorçu, qaniçən simasını tanıması üçün edirik. Dəyirmi masanın keçirilməsinə Milli QHT Forumu və Soyqırım və Terror Əleyhdarları Koalisiyası mənəvi və texniki dəstək verib. Tədbirdə tədqiqatçı alimlər, politoloqlar, QHT rəhbərləri və digərləri çıxış ediblər. Tədbirin sonunda ermənilərin 110 il öncə azərbaycanlılara qarşı törətdiyi soyqırım faktı ilə bağlı BMT baş katibinə, Təhlükəsizlik Şurasına, Avropa Şurasının, ATƏT-in, Avropa İttifaqının sədrlərinə, mütərəqqi dövlətlərin rəhbərlərinə və parlamentlərinə, Azərbaycanın dövlət rəhbərlərinə, ictimai, siyasi qurumlarına, diaspor təşkilatlarına, hüquq müdafiəçilərinə ünvanlanan sənəd qəbul edilib.

❑ **ELŞAD**



### 26 saylı poliklinikanın rəhbəri Pənah Əliyev döydüyü qadının yaxınları tərəfindən cəzalandırılıb; nazir Oqtay Şirəliyev bu biabırçılığı eşidər-eşitməz baş həkimi vəzifədən azad edib

**Nizami rayonu ərazisində yerləşən 26 saylı Şəhər Poliklinikasında insident yaşanıb. Bu haqda redaksiyamıza məlumat verən mənbə bildirir ki, klinikada yaranan insidentdə tərəflərdən biri baş həkim Pənah Əliyev olub.**

Mənbəmiz hadisəni belə nəql edir ki, vaxtilə sözügedən poliklinikada müalicə almış bir xanım pasient ora gələrək özünün xəstəlik tarixçəsini almaq istəyib. Ondan şəxsiyyət vəsiqəsi tələb olunduqda bildirib ki, sənədi üstündə deyil. Həkimlər qadına deyiblər ki, şəxsiyyət vəsiqəsi olmadan ona sənədi verə bilməyəcəklər. Bundan sonra tərəflər arasında mübahisə yaranıb. Bu zaman koridorda olan baş həkim Pənah Əliyev söhbətə müdaxilə edib. Mənbə bildirir ki, baş həkim qadını ağır ifadələrlə təhqir edib. Qadın P.Əliyevə cavab qaytarıb və... ortalıq qarışıb. **Mənbəmiz deyir:** "Onsuz da kifayət qədər kobud və söyüşcül olan Pənah Əliyev qadını hamının gözü qarşısında döyməyə başlayır. Baş həkimin zərbələrindən huşunu itirən qadın yerə yıxılır. Həkimlər onu Pənah Əliyevin əlindən zorla alırlar və ilkin tibbi yardım göstərdikdən sonra evinə yola salırlar".

**Mənbə iddia edir ki, səhəri gün həmin qadının əri və qardaşı poliklinikaya gələrək baş həkimlə görüşmək istəyiblər:** "Özlərini xəstə kimi təqdim edən hər iki şəxs Pənah Əliyevin kabinetinə daxil olan kimi qapını arxadan bağlayaraq onu möhkəm döyüblər. Personal qapını güc-bəla ilə açaraq baş həkimi onların əlindən zorla ala bilib".

Məlumatı verən mənbə daha sonra bildirir ki, bu xəbər Səhiyyə Nazirliyinə çatan kimi baş həkimlə bağlı sərt tədbir görülüb. Səhiyyə naziri Oqtay Şirəliyev vətəndaşla, xüsusilə də qadın xəstə ilə bu cür davranan baş həkimi dərhal işdən qovub. Xəbəri redaksiyaya çatdıran qaynaq bildirir ki, hazırda P.Əliyev işsizdir.

Xəbərlə bağlı P.Əliyevin mobil nömrəsinə zəng vurub özü ilə də danışdıq. "Yeni Müsavat"dan olduğumuzu bilən kimi "bıyyy, ə, mənim "Yeni Müsavat"la nə işim ola bilər" - dedi. Ondan bu insidentlə bağlı soruşduqda "sizin başqa işiniz yoxdur, qəzetin başına iş qəhət olub ki, kiminsə dalaşmasını yazsın? Boş söhbətlərdi, kim deyirsə, yalandı" - söyləyərək telefonu qapatdı.

Xatırladaq ki, P.Əliyev Qərbi Azərbaycandandır. Deyilənə görə, o, sabiq səhiyyə naziri Əli İnsanovun yaxın adamlarından olub. Əvvəllər Travmatologiya İnstitutunun direktoru vəzifəsində çalışıb. Ə.İnsanov onu 1 saylı Şəhər Kliniki Xəstəxanasına ("Semaşko") baş həkimi təyin edib. İnsanov vəzifədən çıxarıldıqdan sonra onu 26 saylı poliklinikaya baş həkim göndəriblər. Onu da xatırladaq ki, P.Əliyev məhkəmədə Ə.İnsanovun üzünə dayanıb.

İnsidentdə iştirakçılardan olan qadının da ad-soyadını dəqiqləşdirməyə çalışırıq. Həmin qadını təsbit etdikdən sonra onunla müsahibə almağa cəhd göstərəcəyik.

❑ **Xəbər XİDMƏTİ**



## "Azadlıq - 2015" Seçki Bloku təsis edildi

**4 fevral 2015- ci il tarixdə KXCP, Aydınlar, AzDP, BAP, VİP, ALDP, Azadlıq, AXP partiyalarının toplantısı olub. Siyasi partiyalar 2015- ci il Milli Məclisə seçkilərlə bağlı müzakirələri yekunlaşdıraraq "Azadlıq - 2015" seçki blokunun təsis edilməsi barədə sənəd imzalayıb. Musavat.com xəbər verir ki, partiya sədrlərindən ibarət tərkibdə blokun Siyasi Şurasının yaradılması və Seçki Qərargahının formalaşdırılması barədə qərar qəbul edilib.**

Daha sonra siyasi partiyalar bu il Azərbaycanda keçiriləcək Birinci Avropa İdman oyunları ilə əlaqədar adı beynəlxalq və milli hüquq müdafiə təşkilatlarının siyahılarında siyasi məhbus kimi keçən bütün şəxslərin əfv, amnistiya, qətimkan tədbirinin dəyişdirilməsi və s. mümkün hüquqi formalarda azadlığa buraxlması barədə təkliflərin dəstəklənməsi və bu barədə ölkə prezidenti İ. Əliyevə, Milli Məclisin cədri O. Əsədova və həmin oyunların təşkilat komitəsinin sədri, parlamentin deputatı M.Əliyevaya müraciət etmək barədə məsələ müzakirə edib, müvafiq qərara gəliblər. Toplantıda habelə Qarabağ probleminin həlli üzrə beynəlxalq vasitəçilər sırasına həmsədrlər qismində Türkiyə və Almaniyanın daxil olması təklifinin müdafiə edilməsi haqqında bəyanat qəbul edilib.

❑ **Musavat.com**

## Azərbaycanda məhkəmə zalında qətl...

**Balakəndə qətl hadisəsi baş verib. Balakən Rayon Mərkəzi Xəstəxanasından APA-nın Şəki-Zaqatala bürosuna verilən məlumata görə, hadisə dünən Balakən Rayon Məhkəməsində qeydə alınıb. Məhkəmədə keçirilən prosesdə təqsirləndirilən şəxs, 21 yaşlı Məhəmməd İlham oğlu Xanpəriyev şikayətçilərin yaxınları tərəfindən bıçaqlanıb. Hadisə yerinə təcili tibbi yardım çağırılsa da, onu xilas etmək mümkün olmayıb.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun "Avesta Konsern"in həyata keçirdiyi "Khazar İslands" layihəsi ilə tanış olmaq üçün bu nəhəng layihənin həyata keçirildiyi əraziyə səfər edib. Qardaş ölkənin səfirini və səfirliyin digər əməkdaşlarını səmimiyyətlə salamlayan "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli rəhbərlik etdiyi şirkətin həyata keçirdiyi "Khazar İslands" layihəsi haqqında geniş məlumat verib.**

# Türkiyənin Bakıdakı səfiri "Khazar İslands"da oldu

## İsmail Alper Coşkun: "Bu layihə Azərbaycanın nailiyyətidir"

Səfir İsmail Alper Coşkun isə öz növbəsində qardaş ölkə olan Azərbaycanda belə nəhəng layihənin həyata keçirilməsinə görə ilk öncə Hacı İbrahim Nehrəmlini təbrik edib və uğurlar arzu edib. Türkiyəli diplomat Azərbaycanın müstəqilik əldə etdikdən sonra çox böyük inkişaf yolu keçdiyini, qısa müddətdə nəhəng layihələrə imza atdığını qeyd edib və bütün bu uğurların Türkiyədə sevinclə qarşılandığını vurğulayıb. Səfir İsmail Alper Coşkun qeyd edib ki, "Khazar İslands" layihəsi də həmin uğurlardan biridir və layihədə imzası olan hər bir şəxs bununla fəxr edə bilər.

"Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli isə qeyd edib ki, Azərbaycanla Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olması və Azərbaycanın sürətli inkişafının əsası mərhum prezident Heydər Əliyev tərəfindən qoyulan müdrik siyasətin nəticəsidir və bu gün həmin siyasət prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan prezidenti İlham Əliyevin Türkiyəyə sonuncu səfərini xatırladan Hacı İbrahim Nehrəmli deyib ki, iki ölkə rəhbərləri arasındakı qardaşlıq



münasibətləri Azərbaycan və Türkiyənin iş adamları arasındakı əməkdaşlığa xüsusi təkan verir. "Khazar İslands" layihəsi çərçivəsində bir neçə Türkiyə şirkəti ilə əməkdaşlıq etdiklərini, layihəyə maraq göstərəcək Türkiyənin başqa şirkətlərini də Bakıda görməkdən məmnun olacaqlarını vurğulayan "Avesta Konsern"in prezidenti qardaş ölkənin iş adamları ilə işbirliyində maraqlı və həvəsli olduqlarını qeyd edib. Səfir İsmail Alper Coşkun isə Türkiyə şirkətlərinin Azərbaycanda həyata keçirilən layihələrdə, xüsusilə də "Khazar İslands" kimi nəhəng layihədə iştirakının onlar üçün qürurverici və arzuedilən olduğunu qeyd edib. "Khazar İslands" layihəsi çərçivəsində görülən işlərlə tanış olan səfir fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.





Görüşün sonunda İsmail Alper Coşkun "Khazar İslands" layihəsini yaxından izləyəcəyini, həyata keçirilən işlərlə tanış olmaq üçün layihənin həyata keçirildiyi əraziyə yeni səfərlər edəcəyini bildirib.

Səfir İsmail Alper Coşkunu "Khazar İslands"a səfərində Türkiyənin Azərbaycandakı səfirliyinin bir neçə məsul şəxsi müşayiət edib.

❑ Xəbər xidməti

# "Məmməd Zeynalovun istefasının səbəbi qaranlıqdır"

## "Onun partiyadan getməsi böyük itki sayılmır"

**Əbülfəz Elçibəy hakimiyyəti dönəmində ədliyyə nazirinin müavini olmuş və 2003-cü ildən Müsavat Partiyasının üzvü olan Məmməd Zeynalov özünün facebook səhifəsində Müsavatdan istefa verdiyi barədə açıqlama yayıb: "Qərarıma sonuncu qurultayın nəticələri də təsir edib. Arif Hacılı tək deyil. Orada başqa adamlar da var. Yəni mən məhz Müsavat rəhbərliyinin siyasətinə görə belə bir addım atmışam. Bu gündən etibarən siyasətlə məşğul olmayacağımı bəyan edirəm.**

Arqumentimi əsaslandırmaq üçün İsa Qəmbər və Mustafa Hacıbəylidən başqa istənilən partiya funksioneri ilə debata hazıram".

**Mustafa Hacıbəyli** isə Məmməd Zeynalovun istefa verməsinə təəssüf edir. Bu barədə M.Hacıbəyli "Yeni Müsavat"a açıqlamasında bildirib. Onun sözlərinə görə, M.Zeynalovun istefa verməsi arzuolunan deyildi: "Biz istəməzdik ki, o məhz indiki mərhələdə istefa versin. Təəssüf ki, istefa verib. Məmməd



Məmməd Zeynalov



Mustafa Hacıbəyli

Zeynalovun istefasının səbəbi mənim üçün qaranlıqdır. Eyni zamanda demək istəyirəm ki, Məmməd Zeynalovun istefa verməsi elə də böyük itki sayılmır. Çünki Məmməd Zeynalov Müsavatda o qədər də fəal şəxs deyildi. Partiya üçün fəaliyyəti demək olar ki, yox idi. Son bir-iki ildə Məmməd Zeynalovu partiyanın qərargahında görməmişəm, partiyanın tədbirlərində də görməmişəm. Yadımdadır ki, ötən seçkilərdə Məmməd Zeynalov demək olar ki, partiyanın heç bir tədbirlərində iştirak eləmədi. Ondan əvvəlki dövrdə keçirilən referendumda Məmməd Zeynalov Müsavatın referendum üzrə yaratdığı təşkilat qrupunun səlahiyyətli nümayəndəsi təyin olunmuşdu. Amma o, səlahiyyətli nümayəndə olaraq da fəaliyyət göstərməmişdi. Hətta onun səlahiyyətli nümayəndə vəsiqəsi referendum qurtarana qədər qərargahdan götürülmədi, qalmışdı qərargahda. Məmməd Zeynalov Müsavatın sonuncu qurultayında da heç görünmədi, hansısa seçkili orqanlara namizədliyini də verməmişdi. Dediyim odur ki, Məmməd bəy son illərdə partiya işində iştirak etmirdi".

**M.Hacıbəyli onu da dedi ki, Məmməd Zeynalovun onunla debata getmək istəməməsinin səbəbi də qaranlıqdır:** "Çünki Məmməd Zeynalovla aramızda heç bir ədavət olmayıb. Hətta futbol mövzusunda belə onunla mübahisəmiz olmayıb. Aramızda rəsmi müsavatçı münasibətləri olub. Mənə çox təəccüblü gəlir onun mənim adımı xüsusi çəkməsi. Düzdür, bir tərəfdən İsa Qəmbərlə mənim adımı yan-yana çəkməsi mənim üçün qürurdur. Amma eyni zamanda belə görsənir ki, Məmməd Zeynalov ümumiyyətlə debata hazır deyil. Yəqin debatlarda mənim hazırcavablığımdan çəkindiyi üçün o cür danışıb. Mən bunu ehtimal edirəm. Məmməd Zeynalova müsavatçı olduğu üçün həmişə hörmət qoymuşuq. Müsavata dost olan hər kəs bizim dostumuzdur. Haqsız yerə Müsavata qarşı gedən hər kəs isə qarşısında bizi görəcək".

❑ Etibar SEYİDAĞA

# Qarabağda savaş olacaqmı?



Azər RƏŞİDOĞLU

**Hakimiyyət savaş ritorikasını davam etdirir. Müdafiə naziri Zakir Həsənovun və Baş Qərargah rəisi Nəcməddin Sadıkovun rəhbərliyi altında fevralın 2-də bütün qoşun növlərinin iştirakı ilə Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb edilib.

Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə Vətən və xalq qarşısında məsuliyyətlərinə diqqət çəkərək təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib: "Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bu gün də davam edir. Silahlı Qüvvələrimiz bütün imkanlardan istifadə etməklə düşməni işğal olunmuş torpaqlarımızdan çıxarmağa qadirdir. Son zamanlar düşmən daha da azğınlaşıb. Amma Ermənistandakı hərbi xuntanın rəhbərləri bilməlidirlər ki, Azərbaycan Ordusu və Azərbaycan əsgəri onların layiqli cavabını verir və bundan sonra da verəcəkdir. Qısa bir müddət ərzində 20-dən çox işğalçı məhv edilib. Düşmənin onlarla yaralısı var.

Silahlı Qüvvələrimiz də vətən uğrunda şəhid verib. Biz onların yaxınlarına və əzizlərinə baş sağlığı veririk. Xalqımız bilməlidir ki, şəhidlərin qisası birə on qat alınıb və bundan sonra da belə olacaqdır".

Təlimlərin harada keçirildiyi və nə qədər davam edəcəyi bildirilmir.

Azərbaycan-Ermənistan sərhədində atəşkəsin mütəmadi pozulması, sərhədyanı bölgələrdə hərbi manevrlərin keçirilməsi proseslərin gələcək inkişafını müəmmalara bürüyür. Görünən budur ki, Qərb dairələri Azərbaycan-Ermənistan arasında atəşkəsin pozulmasından narahatlıq duyur. Rusiya isə bunda maraqlıdır. ABŞ sərhəd bölgəsində atəşkəsin pozulmasını Rusiyanın bölgəni ələ keçirtmək planı kimi dəyərləndirir.

Odur ki, Qərb münaqişə tərəflərini sülhə vadar etməyin yollarını arayır. Yaranmış vəziyyətdə Qərb ən optimal yol kimi zorən sülhə nail olmağı nəzərdən keçirə bilər. Şimali Qafqazda terrorizmin baş alması, Krım və Şərqi Ukraynanın Rusiya tərəfindən işğalının davam etməsi, həmçinin Azərbaycan-Ermənistan arasında hərbi əməliyyatların yenidən başlaya biləcəyi zorən sülh variantını aktual edir.

ABŞ Rusiyanın Dağlıq Qarabağda faktiki olaraq öz hərbiçilərini yerləşdirməsini həzm edə bilmir. Bu yolla Azərbaycana da rusların hərbi müdaxiləsi imkanları genişlənir. ABŞ üçün yeganə çıxış yolu Azərbaycanda hərbi qoşunlarının yeridilməsinə nail olmaqdır.

Unutmaq olmaz ki, Azərbaycan hakimiyyətində rusların kifayət qədər "təsir agentləri" mövcuddur.

Görünən də budur ki, ölkənin siyasi hakimiyyəti Kreml ilə dost olmağa artıq hazırdır. Lakin ümumi maraqlardan heç də az önəm daşımayan şəxsi maraqlar Qərblə əməkdaşlığı zəruri edir. Kreml Bakının Qərblə əməkdaşlığına zərbə endirmək üçün hakimiyyəti Qarabağ savaşına başlamağa və yeni əraziləri nəzarətə götürməyə, bunun nəticəsi olaraq, Moskvaya sığınmağa vadar edir.

Qarabağ amili Azərbaycan siyasətində həmişə önəmli rol oynayıb. Mövcud hakimiyyətin Qarabağ probleminin həlli istiqamətində əməli addımlar ata bilməməsi ictimai rəydə iqtidarın mənfi imicini formalaşdırır. Ən acınacaqlısı odur ki, iqtidarın Qarabağla bağlı fəaliyyət proqramı belə yoxdur. Artıq heç bir ölkə bu məsələdə Azərbaycanı əvvəlki kimi müdafiə etmir. Mövcud reallıqlar Qarabağı qaytarmağa imkan vermir.

Qarabağ hazırda Azərbaycan xalqını birləşdirə biləcək başlıca amil olaraq qalmaqdadır. Xalq Qarabağ əleyhinə atıla biləcək hər hansı bir addımı kimsəyə bağışlamaq fikrində deyil. Azərbaycanda heç bir siyasi qüvvə Qarabağın ermənilərə verilməsini bəyan edə bilməz. Bu baxımdan, Azərbaycanda ictimai rəy Qarabağ məsələsində olduqca həssasdır. Odur ki, hərbi ritorika Qarabağı bizə qaytarmağa şərait yaratmayacaqsa, heç bir effekti də olmayacaq...

YENİ MÜSAVAT
N 26 (6054) 5 fevral 2015



# Bəxtiyar Sadıqov Lamiyə Quliyeva mövzusunda həmkarlarını qınadı

## "Bütün qəzetlər iş-güclərini qoyublar kənara, düşüblər o qızın dalınca"

**Son günlər ölkə mətbuatının az qala əsas mövzularından birinə çevrilən "Lamiyə Quliyevanın uşağı..." qəzet səhifələrini, saytların xəbərlərini bəzəyib. Elə gün olmur ki, bununla bağlı silsilə yazılar dərc edilməsin, mövzunun "küncdə qalan qəhrəman"larından açıqlama alınmasın. Bəzən saytlar İP yığmaq üçün dezinformasiyaya yol verirlər, qəzetlər diqqət cəlb etmək üçün sensasion başlıqların ümidinə qalırlar.**

Amma bu mənzərədə diqqəti çəkən detal L.Quliyeva mövzusunda hökumət qəzetlərinin tutduğu mövqedir: İqtidar mediası bu hadisəni xüsusi olaraq işıqlandırmır, bununla bağlı hər hansı gəlişməni yazmır. Sanki ölkənin xəbər məkanında məlum olay "qaynamır" və hələ də istintaq təcridxanasında atası bəlli olmayan bir uşaq dünyaya gəlməyib. Maraqlıdır, iqtidar mediasının xəbər siyasəti niyə sözügedən hadisəni iqnora atıb?

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** "Yeni Müsavat"a açıqlamasında dedi ki, bu hadisə ölkə jurnalistikasında peşəkarlıq səviyyəsinin aşağı düşdüyünü göstərir. "Bu, məni çox ağrıdır" deyən müsahibimiz yaranmış vəziyyətin səbəbləri barədə də ötən ilin 3 sentyabr tarixində məqalə ilə çıxış etdiyini yada saldı: "Azərbaycan mətbuatı özəl televiziya kanallarının arxasınca düşüblər. Onların son dövrdə yaratdıqları səviyyəsiz şou proqramların üslubunda mövzulara meyl edirlər. Söhbət nədən gedir? Hansısa bir dustaq, məhkum olunmuş qadın dünyaya uşaq gətirib. Buna hüquqi müstəvidə baxıb, şərh vermək lazımdır ki, qanunidir, ya deyil. Kiməsə qarşı zorakılıq olubmu, olmayıbmı? Əgər zorakılıq və hüquq pozuntuları varsa, bununla bağlı cəzalar müəyyənləşməlidir ki, belə şeylər olmasın. Bunu şou səviyyəsində edirlər. Biri keçmiş nişanlısının romanını yayır, o biri açıqlamasını. Bu cür yüngül, mənasız, bayağı mövzunu şişirdiblər. Baxanda görürsən ki, bunun arxasında məkrli niyyət dayanır. Bu hadisədə ziyan çəkmiş olan sabiq icra başçısı Aslan Aslanovu mətbuatın gündəminə gətirmək, adını əsassız iddialarda, versiyalarda hallandırmaq istəyirlər".

**B.Sadıqov hesab edir ki, Lamiyə olayında jurnalistika adına ürəkaçan heç nə yoxdur. Onun fikrincə, çap mediası, saytlar özəl kanalların arxasınca düşüblər:** "Ciddi mövzular tapa bilmirlər. Halbuki Azərbaycanın da, dünyanın da o qədər problemləri var ki. Saxta erməni soyqırımı, qarşıdan gələn Avropa Oyunları mövzusu mənəviyyat, vətənpərvərlik mövzuları qalıb kənarda. Bir bədbəxt qız türməyə düşüb. Orda ikinci bir xoşagəlməz olay baş verib. Bütün qəzetlər iş-güclərini qoyublar kənara, düşüblər o qızın dalınca".

**Baş redaktor hesab edir ki, L.Quliyeva ilə bağlı baş vermiş hadisənin böyüklüyünə heç kim şübhə etmir. Onun fikrincə, bu məsələni səlahiyyətli orqanlar araşdırmalı və mətbuata informasiya verməlidir:** "Burda qanunsuzluq varsa, qanunsuzluğa qarşı çıxılmalıdı. Qanunsuzluq edənlər cəzalanmalıdır. Heç bir qəzetin türməyə girib bunu araşdırmaq, analizlər götürmək, gerçəyi üzə çıxarmaq imkanı yoxdur. Sadəcə, kənardan dayanıb, yüngül yazılar yazırlar ki, bu da yolverilməzdir. Bu məsələdə belə fakt varsa, araşdırma gedirsə, biz onun nəticəsini cəmiyyətə çatdırmalıyıq. Kimisə hədəfləyib, o insanı gündəmə gətirmək fikrimiz yoxdur".

**B.Sadıqov dedi ki, bu, bədbəxt hadisədir və onun baş verməsi 3 cavanın bədbəxt olması, neçə-neçə insanın faciəsi ilə nəticələnib. Müsahibimizin fikrincə, olayı araşdırmaq əvəzinə ondan şou kimi istifadə edilməsi mənəviyyatsızlıqdır.**

❑ **Sevinc TELMANQIZI**

# "Lamiyənin işi" ilə bağlı növbəti bomba partladı

**Ombudsman Elmira Süleymanovanın tapşırığına əsasən, Ombudsman Aparatının İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun üzvləri Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisəsində saxlanılan və Lamiyə Sahib qızı Quliyevanın dünyaya gətirdiyi uşağın atası olduğunu iddia etdiyi məhkumla görüşüblər.**




# "Aslan Aslanov Lamiyənin uşağını öldürtdürə bilər" - şok iddia

## Ombudsman Aparatı türmədə doğulan uşağın atası ilə bağlı təkzib yaydı; adı gizli saxlanan məhkum kişinin bu məsələni boynuna götürməyə məcbur edilməsi təsdiqləndi; A.Aslanovun oğlunun Ədliyyə Nazirliyinin İstintaq İdarəsində müstəntiq işləməsi qisasçılıq versiyasını gücləndirir

ANS press-in məlumatına görə, qeyd edilən məhkum ailəsində yarana biləcək problemlərlə əlaqədar adının məxfi saxlanılmasını xahiş edib. Həmin şəxs məhkum L.Quliyeva ilə bir müddət eyni penitensiar müəssisədə saxlanıldığını, onunla qiyabi tanışlıq münasibətinin olduğunu, canlı təmasının olmadığını, uşağın atasının müəyyənləşdirilməsi ilə bağlı dəqiqləşdirilmə aparılması üçün DNT qan analizi verdiyini bildirib. Onunla aparılmış konfidensial görüş zamanı təzyiqə və zorakılığa məruz qalmadığını söyləyib, bu barədə ombudsmana yazılı izahat verib.

Hazırda Ədliyyə Nazirliyi tərəfindən bu məsələ ciddi araşdırılır, hər iki şəxsdən izahat alınıb, müvafiq analizlər götürülüb və yaxın günlərdə nəticəsi açıqlanacaq.

Bəs Lamiyə Quliyevanı qiyabi tanıyan məhkumu DNT qan analizi verməyə kim məcbur edib?

Bu sualın cavabı hələlik yoxdur. Olacağı haqda fikir yürütmək də çətindir. Amma görünən odur ki, vəziyyətdən çıxış yolu axtaranlar məhkumlarla "uşağın atası mənəm" demələri üçün iş aparıblar. Nəticədə də belə bir ifadə ortaya çıxıb və DNT analizi verilib. Sonradan məhkumun verdiyi açıqlamadan imtina etməsini şərtləndirən səbəb və amili araşdırmaq istintaqın vəzifəsidir.

Ombudsmanlıqdan verilən açıqlamadan bəlli olan məsələlərdən biri də L.Quliyevanın ana olması məsələsinin Ədliyyə Nazirliyində araşdırılmasıdır.

Belədirsə, deməli, məsələ nazirliyin istintaq idarəsində araşdırılır. Və həmin idarənin aparıcı müstəntiqlərindən biri də Şəmkirin sabiq icra başçısı, kənd təsərrüfatı nazirinin eks müavini Aslan Aslanovun oğlu Turqay Aslanovdur. Bu məqam aparılan araşdırmaların nəticəsini indidən şübhə altına alır.

Turqay Aslan oğlu Aslanovu aparılan istintaqdan uzaqlaşdırmaq üçün öldürülən qardaşının qisasını alacağı haqda xüsusi bəyanatla çıxış etməsinə ehtiyac varmı?

T.Aslanovun L.Quliyevanın ana olmasına yaradılan şəraitin araşdırılmasında iştirakı nə dərəcədə doğrudur?

Həmin araşdırmalara onun təsir etmək imkanları varmı?

### Ədliyyə Nazirliyi Ombudsman Aparatını təkzib edir

Bu və digər suallarla Ədliyyə Nazirliyinə müraciət etdik. Nazirlik rəsmisi "Yeni Müsavat"a açıqlamasında təmsil etdiyi qurumda belə bir araşdırmanın aparılmadığını dedi. Bildirdi ki, məsələ prokurorluq orqanlarında araşdırılır.

### 7-8 nəfərdən DNT analizi alınıb

"Yeni Müsavat"a daxil olan məlumata görə, L.Quliyevanın dünyaya gətirdiyi övladın atasının müəyyən edilməsi üçün 7-8 nəfərdən qan analizləri götürülüb. Bu şəxslər sırasında L.Quliyevanın saxlandığı müəssisənin keçmiş rəisi və müavinləri ilə yanaşı, hazırda müəssisəyə rəhbərlik edən rəis və müavinləri də var. Analizlər Məhkəmə Tibb Ekspertizası və Patoloji Anatomiya Birliyində tibbi müayinə olunur. Belə məlumat var ki, artıq müvafiq rəylərin hazırlanması prosesi gedir.

### Vəkil: "Bu, qisasçılıqdır"

**L.Quliyevanın həbsinə qədər nişanlısı olmuş Vuqar Əliyevdən DNT analizinin götürülüb-götürülmədiyini öyrənmək üçün vəkili Adəm Məmmədovla əlaqə saxladıq. Vəkil müvəkkili ilə görüşmədiyini söylədi:**

- Vüqar Əliyevlə görüş üçün Penitensiar Xidmətə müraciət etmişəm. Lakin müraciətimə cavab verilməyib. Bildiyim odur ki, Vüqardan belə bir analiz götürülməyib. Çünki Vüqar Əliyev Lamiyə Quliyeva ilə heç cür görüşə bilməzdi. Onun saxlanıldığı Qobustan Qapalı Həbsxanası Qaradağ rayonunda, Lamiyə Quliyevanın saxlandığı müəssisə isə Xətai rayonunda yerləşir. Hər iki şəxs məhkumdur və onların arasında nikah olmayıb və müvafiq olaraq nikah şəhadətnaməsi də yoxdur. Yəni Vüqar Əliyev istəsəydi belə, Lamiyə Quliyeva ilə görüşə bilməzdi. Buna qanun icazə vermir. Bu gün bəlli olan odur ki, Lamiyə Quliyeva heç kimlə rəsmi nikaha girməyib. Bu halda onun ana olması da araşdırılmalı məsələdir.

***- Ombudsmanlıq xəbər yayıb uşağın ehtimal olunan məhkum atası barəsində yayılan xəbərləri təkzib edir. Sizcə, məhkum uşağın atası olmasını niyə boynuna götürüb?***

- Bu məsələni Lamiyə Quliyevanın saxlandığı müəssisənin rəhbərliyi ortaya atıb. İstəyirlər ki, işi öz üzərlərindən uzaqlaşdırsınlar. Lakin həmin məhkum özü bunu təkzib edir və deyir ki, belə bir şey ola bilməz. Həmin dustağın vəziyyəti, şəraiti, maddi imkanları onun saxlandığı müəssisədən çıxıb digər dustaqla görüşünə imkan vermir.

***- Bu məsələdə maddi imkan nəyə lazım ola bilər?***

- Məhkumun imkanı o baxımdan lazımdır ki, burada maddi vəsait rol oynayıb. Bu, qisasçılıqdır.

***- Belə çıxır ki, uşağın dünyaya gətirilməsi əvvəlcədən hazırlanan məkrli planın tərkib hissəsi olub?***

- Bəli. Sifarişi mən ona görə irəli çəkirəm ki, Lamiyə Quliyeva onun həbsinə yol açan cinayət baş verən anda yetkinlik yaşına çatmayıb. Onun 15 yaşı olub. Amma məhkəmə Lamiyəyə maksimum cəza verib. 2013-cü ildə azad edilməli olduğu halda 2012-ci ildə Lamiyə Quliyevaya qondarma cinayət işi başlayıblar. Təəssüf ki, həmin cinayət işi üzrə Lamiyə Quliyevanın həbs müddəti 5 il 6 ay artırılıb. Lakin bununla da ürəkləri soyumayıb. Lamiyə Quliyeva 2013-cü ildə yenidən şərlənib. Heç şübhə yoxdur ki, bu işin arxasında da Lamiyə Quliyevaya 10 il cəza verdirən şəxs dayanıb. Lamiyə Quliyevaya qarşı edilən qanunsuz hərəkətlərin, zorakılıqların araşdırılmasına ciddi ehtiyac var. İndiyə kimi onun üzləşdiyi proseslər deməyə əsas verir ki, bu iş sifarişlə aparılıb və sifarişin icrası bu gün də davam edir. Təsəvvür edin ki, Vüqar Əliyevin özü ilə bərabər 2 xalasını da 2003-cü ildə həbs edib 2 ay həbsdə saxlayıblar. Guya cinayəti bilib gizlədiblər. Yəni iş əvvəlcədən ssenari üzrə aparılıb.

***- Ortada Aslan Aslanovun oğlunun qətlindən ötən 12 il ərzində L.Quliyeva və V.Əliyevdən intiqam almaqda davam etməsinə dəlalət edən məlumatlar var. Uşağın anadan olmasına yaradılan şərait onun sonradan qətlə yetirilməsinə hesablanmayıb ki? Yəni bu qisasçılığın sona çatdırılması üçün atılan addım ola bilər?***

- Bir qadın məhkumun həbsdə ikən uşaq dünyaya gətirməsinə şərait yaradılması, uşağın o şəraitdə saxlanılması özü qisasdır. Lamiyə Quliyevaya, Vüqar Əliyevə qarşı baş verənlər, Quliyevanın qondarma ittihamla həbsdə saxlanması sübut edir ki, onlara qarşı olan şəxs intiqam hissi ilə yaşayır. Ondan hər şey gözləmək olar. Təsəvvür edin ki, Vüqar Əliyevin atası Turan İbrahimovun verilişinə gedərək onlara qarşı baş verənlərdən danışıb. Lakin həmin verilişin efirə getməməsi üçün ən müxtəlif yollara əl atılıb. Hətta Lamiyə Quliyeva cəzaçəkmə yerindən rəisin telefonu ilə Vüqarın atasına zəng edərək verilişin efirə getməsinin qarşısını almasını təkidlə ondan tələb edib. Aydındır ki, Lamiyə bunu öz xoşu ilə etməyib. Onu buna məcbur ediblər. Nəticədə veriliş efirə getməyib.

***- Məsələnin ictimailəşməsindən 20 gün ötür. Bu vaxta qədər prokurorluğun bu məsələ ilə bağlı araşdırmalara başlaması haqda məlumat yoxdur. Sizin prokurorluğa müraciət etmək fikriniz var?***

- Bəli. Aslan Aslanovun, onun V.Əliyevə qarşı qanunsuzluqlarda iştirak etmiş yaxınlarının və digər şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müraciət hazırlamışam. Həmin müraciəti Baş Prokurorluğa göndərəcəm. Bu adamlar Vüqar Əliyevə, Lamiyə Quliyevaya, onların valideynlərinə, yaxınlarına qarşı qanunsuzluqlarda iştirak ediblər. Aslan Aslanov özündən asılı olan şəxsləri çirkin niyyətlərində istifadə edib. Quliyevanın və Əliyevin həbsdə qaldığı hər gün yeni bir ədalətsizlikdir.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

**Milli Məclisin son iclasında müzakirələr zamanı deputat Eldar İbrahimov DYP əməkdaşlarının qanuna müvafiq olaraq vətəndaşlar, həmçinin dövlət məmurları və millət vəkilləri ilə davranışlarında diqqətli olmalarını, qanunun tələblərinə əməl etməli olduqlarını bildirib: "Onlar bəzi hallarda vətəndaşla kobud danışırlar. Polis serjantlarını işə götürəndə təbliğat işi aparılmalı, davranış qaydaları öyrədilməlidir. Hətta məni də saxlayıblar. Milli Məclisin deputatlıq kitabçasını da göstərmişəm. Deyirəm oxuyun ki, orada nə yazılıb. Mənə deyir ki, "bu kitabçadan hamıda var da". Deyirəm, a kişi, bu kitabçadan 125 deputatda var. Oxudun, başa düşmədin? Bu "dana" hardan gəlib? Bunları işə götürəndə təbliğat işi də aparılmalıdır".**

# Polisə "dana" deyən deputatdan yeni açıqlamalar

## Eldar İbrahimov: "Camaatın arvad-uşağını söyürlər, mən bir serjant haqda "dana" sözünü dedim..."



*Deputatın polis serjantı ilə bağlı dediyi "dana" sözü mediada, sosial şəbəkələrdə geniş müzakirə olundu. Xüsusən də dünəndən etibarən Bakı yollarında Dövlət Yol Polisi əməkdaşlarının reydlərə başlaması bu çıxışın yaratdığı ajiotaj kimi qiymətləndirildi.*

*E.İbrahimov "Yeni Müsavat"a bu mövzu ilə bağlı verdiyi müsahibəsində də bu çıxışını yaradan situasiya, eləcə də onun yanlış anlaşılmasından danışdı.*

***- Eldar bəy, son çıxışınızda Azərbaycan serjantına ünvanlanan "dana" bənzətməniz cəmiyyətdə birmənalı qarşılanmadı və polis...***

- (Sözümüzü kəsir) Xeyr, mən polis haqda heç nə deməmişəm. Mən məni saxlayan bir polis serjantı haqda söz demişəm. Sizə lazımdırsa, istəyirsizsə stenoqramı çıxarım, oxuyun. Onda görün ki, mən əvvəl girişdə də, sonda da demişəm ki, QAİ-yə böyük hörmət lazımdır, biz onlara tabe olmalıyıq. Böyük hörmətlə yanaşmışam. Sadəcə olaraq, o hekayəni danışdım ki, serjant vəsiqəni aldı, oxudu, başa düşmədi... Onda da gülə-gülə dedim ki, danadır. İndi mən bilmirdim ki, siz mətbuat orqanları bunu bu qədər şişirdib, nəsə eləyəcəksiz. Şişirdirsiz şişirdin... Stenoqram var. Mən polis haqda heç nə deməmişəm. Sadəcə olaraq, bir serjant haqda demişəm ki, yəni bu serjant savadsızdır, oxuduğunu başa düşmür. Yəni bu danaya başa salmaq lazımdır. Mən polisi qoruyanda, polis haqda danışanda başqaları polisi söyürdülər. İndi nə olub? Polisi çox istəyən olublar?

***- Yəni bütün polislər haqda belə düşünmürsüz? İstisnalar var deyirsiz?***

- Əksəriyyəti elə deyil. Mən yenə deyirəm, bir serjant haqda demişəm. O serjantlardan da olar 3 nəfər, 5 nəfər, ya da 1 nəfər. O 1 nəfər də mənim rastıma çıxıb. Vəziyyət elə olub. Mən də bunu gülə-gülə dedim. Və Milli Məclisin deputatı konstitusiyanın 91-ci maddəsinə görə fəaliyyəti ilə əlaqədar olaraq danışdığı sözlərə məsuliyyət daşımır. Bir dənə dana deməklə... Yenə də təkrarlayıram, mənim ağzıma gəldi o söz, dedim. Demişəm demişəm də... Buna görə dünyanı dağıdıblar. Camaatın arvad-uşağını söyürlər, indi mən gülə-gülə bir serjant haqda "dana" sözünü dedim deyə bunu polisə niyə aid edirsiz? Yenə deyirəm, stenoqrama baxın. Yoxdursa, mən sizə yollayım, baxın. Görün polis haqda nə qədər yüksək söz söyləmişəm? O yaxşı fikri demirlər, bir dənə dana sözündən yapışıblar. Ki, dana belə gəldi, belə getdi.

***- Eldar müəllim, deputatın xüsusi toxunulmazlığı varmı yolda? Bəlkə sürücünüz nəsə pozuntuya yol vermişdi və buna görə saxlanmışdı? Ola bilməz?***

- Düz eləyib saxlayır. Mən də onu deyirəm ki, polislər saxlayanda biz dövlət adamı olaraq onları eşitməliyik. "Saxla" deyirsə saxlamalıyıq. Çox adam heç saxlamır. İndi mən saxlamışam, xataya düşmüşəm? Saxlamışam, gəlib "çest" verib. Deyib ki, belə-belə. Mən də deputat vəsiqəmi vermişəm ki, mən deputatam. Baxıb, görürəm ki, başa düşmür. Soruşmuşam ki, başa düşmədin? Gördüm, üzümə baxır. Ona görə mən də o vəziyyəti dedim ki, yəni bu serjantları, təzə uşaqları işə götürəndə bir bunlara dərs keçsinlər, başa salsınlar. Öyrətsinlər ki, bu ölkədə deputat kimdir, prezident, baş nazir kimdir. Ya da Milli Məclisin maşınları hardan başlanır, harda qurtarır. Yəni bu maşınları saxlayanda hörmətlə yanaşsınlar. Arzu etmişəm ki, bu qanunla əlaqədar dəyişiklik edilsin. Yəqin ki, bundan sonra belə olacaq. Nəsə təhqirli, böyük bir ifadə işlətməmişəm ki? Özü də orda mən söz tapa bilmədim. Ağzıma "dana" sözü gəldi, mən də dedim ki, dana. Nə üzrü? Kimdən üzr istəməliyəm? Mənə yaraşmazdı ki, o söz ağzımdan çıxsın. Amma təsadüfən oldu ki, onu xarakterizə etmək üçün bu sözdən başqasını tapmadım. Yəni savadsızdır, oxuya bilmir ki, vəsiqədə nə yazılıb, demək ki, danadır da...

***- Bu danışdığınız hekayədə insanların etirazına səbəb olan məqam deputatın pozuntudan yayınma istəyidir. Hər kəs düşünür ki, deputatın maşını, sürücüsü nəyə görə pozuntudan sığortalanmalıdır?***

- Bütün deputatlar, o deputatların da içində şəxsən Eldar İbrahimov olmaqla, yol hərəkət qaydalarına əməl edən, gözləyən elə mənəm. Bunu da hamı bilir. Sadəcə, mənim bəxtimə düşdü. Bir serjant dedi ki, saxla. Mən də saxladım. Yoxsa ki, mən serjanta saxlamaya da bilərdim, neyləyəcəkdi mənə? Sonra da zəng edib deyəcəkdim ki, deputat Eldar İbrahimovdur, filan serjant məni niyə saxlayıb, günahım yoxdur axı. Amma sürücüm saxladı. O da dedi, sənədlərini ver, davamını bayaqdan danışıram.

***- "Zəng edib deyəcəkdim"lə başlayan bir cümlə qurduz az öncə. Heç elə situasiya olubmu ki, hansısa çıxılmaz situasiyaya düşəsiz və zəng, müraciət sayəsində sırf deputat olduğunuz üçün vəziyyətdən çıxasız?***

- Mən elə adamam ki, elə hallarla heç vaxt qarşılaşmıram. Getdiyim evdir, gəldiyim də iş. Nə də küçədə-bacada gəzirəm. Avtoş deyiləm ki, kiminləsə yolda rastlaşam, o, mənə yol verməsin, mən keçim və yaxud da nəsə belə bir şey baş versin. Bunlar boş söhbətlərdir. Sadəcə olaraq, bəzi jurnalistlərə sensasion bir şey lazımdır ki, kimsə "dana" desin, "inək" sözünü işlətsin, siz jurnalistlər də bundan böyük hadisə düzəldəsiz.

***- Sosial şəbəkələrdə isə deyirlər ki, Eldar İbrahimovun yeznəsi polisdə işləyir. Bu səbəbdən də sizin polislə bağlı belə açıqlama verməniz diqqət yaratdı.***

- Elə mənim qohumum QAİ-də işlədiyinə görə QAİ-ni də, polisi də məndən çox müdafiə edən yoxdur. Yenə deyirəm, mənim başqa adamım yoxdur ki. Ona görə də mən həmişə müdafiə etmişəm, həmişə də tabe olmuşam. Özümdən, kimliyimdən asılı olmayaraq. Bir dəfə təsadüf oldu, mən də bu sözü dedim də. Kim nə cür hallandırır, hallandırsın.

***- Bu gündən yolda polis reydləri artıb, gücləndirilmiş iş rejiminə keçiblər. Sizin çıxışınızla bu hadisə arasında hər hansı əlaqə ola bilər?***

- Bilmirəm, maraqlanmamışam, düzü. Məni də xüsusi olaraq maraqlandırmır.

**P.S.** *Xatırladaq ki, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov bildirib ki, cəmiyyətdə elə insanlar var ki, polis əməkdaşları onları tanımalıdır. Şöbə rəisinin sözlərinə görə, bu barədə gün ərzində yol polisi əməkdaşlarına 3 dəfə təlimat keçirilir.*

**Sevinc TELMANQIZI**

**"Mən polisi qoruyanda, polis haqda danışanda başqaları polisi söyürdülər"**

**"O serjanta saxlamaya da bilərdim, neyləyəcəkdi mənə?"**

# 21-ci əsrin ibtidai vəhşiliyi



**Xalid KAZIMLI**

**İnternet resurslarında bir videokadr dolaşır: ov köpəyi balıqçıların tutub sudan çıxardığı və daşların üstündə parpılayan balıqların üstünə diliylə su çiləyir ki, ölməsinlər.**

Bu, Allahın dilsiz-ağızsız iti, şüursuz məxluq anlayır ki, susuz qalan balıqlar öləcək. Bu vəfalı heyvan öz məhdud ağlıyla, rəhmli ürəyi ilə istəmir ki, balıqların həyatı bitsin.

Bəs şüurlu insan nə edir? Bu dünyanın üzərində tərpənən nə varsa, insan onu parçalayır, dağıdır, kəsir, soyur, yeyir. Hər şeyə yem gözü ilə baxır. Və hamı bunu normal sayır. Belə olmalıymış.

Yaxşı, olsun. "Yer üzünün əşrəfi" olan, ancaq əksəriyyət etibarilə xislətindəki ibtidai vəhşiliyini qoruyub saxlayan insanların artıb-çoxalması, yaxın illərdə 10 milyarda çatması üçün gözünə görünən hər şeyi parçalayıb yeməsi təbiidir, siqlətindədir. Belə qəbul edək.

Bəs insanın bir-birini qırmasının adı nədir? Yaşayış uğrunda mübarizəmi? İnsanlardan və yaşıl çəyirtkələrdən (şala) başqa yer üzündə yaşayan yüz min növ məxluqdan heç biri yaşayış uğrunda mübarizəni hannibalizm (bir-birini yemək) vərdişi ilə aparmır.

Söz yox, morjlar da boğuşur, canavarlar da qapışır, təkələr də buynuzlaşır, amma onların heç biri öz həmnövünü məqsədli və kütləvi şəkildə qırıb-çatmır. Onların davası sürüdə nüfuz və ya dişiyə sahib olmağa görədir və qalib məğlubu öldürmür.

İnsan isə öz həmnövünü amansızlıqla, kütləvi şəkildə öldürür. İndiyədək dünyada yaşayıb getmiş 100 milyarda yaxın insanın yarıdan çox məhz müharibələrdə öldürülüb, öz əcəlləri ilə ölməyib.

Bir də var işgəncə ilə öldürmək. Bunu da insan edir. İşgəncənin daha ağır, ölümün daha iztirablı olması üçün min illərin o yanından bəri cürbəcür üsullar fikirləşən insan oğlu bu sahədə yaradıcılığını davam etdirir.

Bəşər tarixi çox əzablı edamlar görüb - dəri soymaqdan, dustağı qiymə-qiymə doğramaqdan nizəyə keçirməyə, tonqalda yandırmağa, çarmıxa çəkməyə, belinə qaynar samovar bağlamağa, başını gilyotinlə kəsməyə, asmağa, daşqalaq etməyə, qayadan atmağa qədər.

Çingiz xanın züryətləri Ukrayna knyazlarını yerə uzadıb üstlərinə taxtalar döşəyiblər, döşəmənin üstündə gecə-gündüz yeyib-içiblər - ağırlıq altında can verən knyazların bağırtısına qulaq asa-asa.

Əmir Teymur insan kəllələrindən qüllələr düzəldib. Şah Qacar Kirmanda uşaq-böyük demədən minlərlə adamın gözünü kor edib ulada-ulada çöllərə buraxıb. Hitler milyonlarla insanı qazda boğub. Stalin milyonları Sibirdə dondurub. Səddam düşmənlərini sulfat turşusunda əridib, şirlərə yedirdib və sair və ilaxır.

İndi də İŞİD videokameralar önündə baş kəsir, adam yandırır. Baxırsan ki, burada məqsəd təkcə insanları (həm də günahsız adamları) öldürmək deyil, həm də bunu dünyaya göstərmək və baxanları qorxutmaqdır, qorxudub tabe etdirmək, köləyə çevirməkdir.

İŞİD terrorçu təşkilatdır, beynəlxalq konvensiyaları, birlikləri tanımır, hər cür qəddarlıqlar törətməkdə sərbəstdir. Ancaq özünü İŞİD kimi aparan dövlətlər də var. Onlar da insanları qəddarcasına öldürürlər.

Məsələn, İordaniya İŞİD-in acığına təşkilatın istədiyi Sacidəni edam edib - başı kəsilən yaponlardan qisas almaq naminə.

Sacidənin törətdiyi terror aktının qurbanlarından biri isə rejissor Mustafa Akad idi. M.Akad dünyaya "Çağırış" adlı filmi ilə səs salmışdı. Həmin filmdə o, İslamı müdafiə edir, onun sülh dini olduğunu qabardırdı. Taleyin ironiyasına baxın ki, ən böyük islam təəssübkeşi məhz islam dövləti qurmaq istəyənlərin teraktının qurbanı oldu.

Daha bir paradoksal hadisə yapon jurnalist Kenji Qotonun başına gəldi. Onu hələ dörd il öncə "ərəb qardaşlarım" adlandırdığı insanlar qətlə yetirdi - tam məsum olduğu halda. Kenji dövlətlərarası danışıqların alınmamasının, fantastik xərac tələbinin, siyasi təkəbbürün güdazına getdi.

Bir sözlə, 21-ci əsrin bu vədəsində insan topluluqları arasında didişmə, vuruşma, savaş, boğuşma 2-5 min il əvvəlki kimi, eyni vəhşilik və amansızlıqla davam edir. İndiyədək çox sivilizasiyalar, etnoslar bu vəhşiliyə qurban gedərək yox olublar.

Bir millətin öz başının salamatlığını qoruması güclü, ağıllı, uzaqgörən, tədbirli olmasından keçir.



# Bu ölkədə yada düşmək üçün...

Hüseynbala SƏLİMOV

**Doğrudanmı, müxalifət partiyasının yada düşməsi üçün onun sıralarında mütləq hansısa ixtilaf yaşanmalıdı? Sizi bilmirəm, mən çoxdan bu qənaətdəyəm. Fikir vermişəm, telekanallar o vaxt müxalifətdən danışmağa başlayır ki, bu düşərgədə hansısa ciddi problem yaşanır...**

İndi mən doğrusu, deyə bilmərəm ki, bu problem nə qədər ciddidir? Amma mənə elə gəlir ki, telekanalların hissiyatına şübhə etməyə dəyməz, onlar neçə illərdir ki, sonuncu müxalifət təşkilatlarının da tarixə qovuşmasını həsrətlə gözləyirlər...

Amma mənim belə istəyim yoxdur, ola da bilməz. Di gəl, bir problem var ki, o, məni həqiqətən də qayğılandırır. Söhbət Müsavat partiyasından gedir. Bəli, bu partiya çətinliklə olsa da, nizamnaməsinə sadiq qaldı, quruma yeni başqan seçildi...

İndi mən bu seçimin nə qədər uğurlu olub-olmaması haqdakı mülahizələrlə sizi yormaq istəmirəm. Seçki oldu, insanlar səs verdi və seçdilər. Bu seçkidə diqqət çəkən əsas cəhətlərdən biri o idi ki, əsas iki namizəd seçkini çox az səs fərqi ilə başa vurmuşdu...

Ona görə də yeni başqan əvvəlcədən bilməli idi ki, o, cüzi səs fərqi ilə qalib gəlib. Və ona hazır olmalı idi ki, əsas rəqib daim onun "dabanını tapdamağa" çalışacaq...

Amma bunun əvəzində funksionerlər nə etdilər? Başladılar ki, seçki olub qurtarıb, partiyada fraksiya ola bilməz və s. və i.

Seçki elə bir şeydir ki, onun artıq səhəri günü növbəti seçkiyə hazırlaşmağa başlamaq lazımdır. Bunu elə-belə, söz oyunu kimi qəbul etməyin. Əvvəllər bu bir o qədər də hiss olunmurdu, çünki digərlərindən şəksiz üstün olan partiya lideri vardı...

Amma indikilər haqqında bunu demək olmur. Həm yeni başqan, həm də onun əsas rəqibi belə bir xarizmaya malik deyillər. Ona görə də yeni başqan nəzərə almalı idi ki, partiyada ona qarşı güclü müxalifət olacaq və bu müxalifət daim öz liderini önə verməyə cəhd edəcək...

Gələk fraksiya məsələsinə. Qurultay bitəndən partiyada yeni bir dalğa gedir; adamları bir-bir partiya Divanına çağırır, gah töhmət verir, gah da partiyadan çıxarmaqla hədələyirlər...

Bunu düzgün addım kimi qəbul etmək olarmı? Əlbəttə ki, yox. Əgər belədirsə, partiyada hamı eyni fikirdə olmalıdırsa, onda Müsavatın hakimiyyət partiyalarından fərqi nə oldu ki?..

Partiyada fraksiya mümkündürmü? Birmənalı şəkildə düşünürük ki, mümkündür. İnsanlar nə vaxt partiyanı tərk etməyə başlayırlar? O vaxt ki, bu adamlar anlayırlar ki, daha onların öz əvvəlki partiyalarında fəaliyyət göstərmələri mümkün deyil...

Amma partiyadaxili fraksiya, müxalifət olanda vəziyyət dəyişir. İnsanlar partiyada qalır və öz məqsədlərinə çatmaq üçün demokratik prosedurlardan yararlanmağa çalışırlar.

Əgər partiyada kimsə başqasının namizədliyini müdafiə edir və onun başqan seçilməsinə çalışırsa, buna normal yanaşmaq lazımdır. Burada qeyri-adi heç nə yoxdur, ən azı ona görə ki, heç bir başqan əbədi deyil və iki dəfədən artıq seçilə bilməz...

Bu prosesi sürətləndirmək, artıq növbəti seçkilərdə yeni başqan seçmək arzusu hiss olunursa, bu da normal haldır...

Vaxtilə, Ə.Elçibəy sədr olduğu vaxt, AXCP-də ən azı iki güclü siyasi fraksiya vardı. O vaxt onlar rəsmiləşməmişdi, rəsmi fraksiya statusunu almamışdı, çünki heç kim siyasi azlıq statusunu özünə rəva bilmir və özünü kifayət qədər güclü hesab edirdi.

Heç olmasa, onu nəzərə almaq lazımdır ki, indi psixoloji cəhətdən çətin durumdur. İnsanlarda siyasi fəaliyyətlə məşğul olmaq üçün azacıq da həvəs qalıbsa, bunu təqdir etmək lazımdır, mane olmağa dəyməz...

Hakimiyyət müxalifəti kifayət qədər zəiflədə bilib. Amma baxıb görürsən ki, indi müxalifətin özü ilə deyil, onun xofu ilə vuruşurlar, çünki özləri də inana bilmirlər ki, daha əvvəlki kimi güclü müxalifət yoxdur...

Müxalifətçilər, ölkədəki avtoritar ab-havanı öz partiyalarındakı demokratiya mühiti ilə kompensasiya etməyə çalışırlar. Daha əvvəlki "nağıl"lar da təsirini itirib. Ona görə də insanlara mane olmaq lazım deyil-qoy, özləri bildiyi kimi, seçsinlər, fraksiya yaratsınlar...

Lao Szı deyirdi ki, idarə etmədən idarə etməyə çalış... İnsanları onsuz da kifayət qədər sıxırlar. Onları müxalifət partiyalarında da sıxmağa başlasalar, o halda nə olar?..

# Başqan müavini ilə Qubad İbadoğlu "atışdı"

**Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı ilə başqanlığa sabiq namizəd Qubad İbadoğlu arasında qarşıdurma yaranıb. Belə ki, S.Soltanlı özünün facebook səhifəsində müsavatçılara və ictimaiyyətə xitabən artıq Qubad İbadoğlu məsələsinin partiyadaxili məsələ olmadığını, bu məsələnin partiyadaxili məsələ olmaqdan xeyli vaxtdır çıxdığını bildirib.**



**Qubad İbadoğlu:** "15 il əvvəl niyə haqqımda bu kimi fikirlər səsləndirilmirdi?"



**Səxavət Soltanlı:** "O zaman indiki kimi Müsavat Partiyasına qarşı fəaliyyətlə məşğul olmurdunuz"

Başqan müavini qeyd edib ki, bu olanlar hakimiyyətlə Müsavat arasında mübarizənin növbəti mərhələsidir: "Faktiki olaraq Qubad müəllimin fəaliyyəti Müsavatda guya parçalanma var görüntüsü yaratmağa hesablanıb. Sifarişçi hakimiyyət, icraçı isə Qubad İbadoğlu və başqa bir neçə şəxsdir. Bu olanlar hakimiyyətin Müsavat Partiyasına qarşı növbəti hücumudur, bu prosesi bilərəkdən və ya bilməyərəkdən dəstəkləmək də hakimiyyətə yardım etmək deməkdir.

Təbii ki, bu fürsəti gözləyən başqaları da bundan faydalanmaq istəyəcəklər, narahat deyilik, siz də narahat olmayın. Biz-müsavatçılar sona qədər Müsavat Partiyasını qoruyacaq və daha da gücləndirəcəyik, bundan əmin olun".

**S.Soltanlının bu fikirlərinə Qubad İbadoğlu suallarla sərt münasibət bildirib. O deyib ki, 15 il əvvəl Səxavət Soltanlı harada idi, partiyada hansı vəzifə daşıyırdı:** "O hardaydı? 15 il əvvəl niyə haqqımda bu kimi fikirlər səsləndirilmirdi? Niyə partiyanın güclənməsi ilə məşğul olmurlar?"

**Q.İbadoğlunun bu sualları ünvanlaması ona qarşı daha sərt cavab verilməsi ilə nəticələnib. Səxavət Soltanlı bildirib ki, Qubad İbadoğlundan fərqli olaraq partiyada 15 il əvvəl heç bir vəzifə daşımayanda da Müsavatın, İsa Qəmbərin siyasətini təbliğ edirdi:** "15 il əvvəl 18 yaşım var idi. Bakı Dövlət Universitetində 2-ci kursda təhsil alırdım. Müsavat Partiyası sıralarında yeni idim, Müsavat Gənclər Təşkilatında "BDU" özəyini formalaşdırıb dostlarla birlikdə Müsavatı təbliğ edirdik. Sıralarımıza yeni insanlar qoşurduq. Heç bir vəzifəm yox idi, Qubad bəy, sizdən fərqli olaraq heç bir vəzifə daşımayanda da Müsavat Partiyasını, İsa Qəmbəri və silahdaşlarının siyasətini dəstəkləyirdim. Mən sizə sual verməm ki, sizin 18-19 yaşınız olarkən Azərbaycanda müstəqillik uğrunda gedən mübarizədə nə işlə məşğul olmusuz? Heç o sualı da vermirəm ki, doğulduğunuz torpaq təhlükədə olanda sizin indi qarşı olduğunuz Müsavatın lideri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı orada müdafiəni təşkil edəndə siz 22 yaşınızda nə işlə məşğul olmusuz? Harada olmusuz? Ona görə 15 il əvvəl haqqınızda belə fikirlər səsləndirilmirdi ki, o zaman indiki kimi Müsavat Partiyasına qarşı fəaliyyətlə məşğul olmurdunuz. Ona görə ki, o zaman həqiqətin yanındaydız, o zaman müsavatçıları təhqir edən, Müsavatı gözdən salan insanları ətrafınıza toplayıb Müsavata qarşı döyüşmürdüz. Durduğu yerdə heç kimə heç nə deyilmir. Biz partiyanın güclənməsi ilə məşğuluq. Sadəcə, siz partiya işlərini sürətlə həyata keçirməmizə mane olursuz. İndi enerjimizin bir hissəsini partiyanın güclənməsi istiqamətində iş görməklə yanaşı, hakimiyyətin sizin vasitənizlə Müsavata qarşı hücumunun qarşısını almağa yönəltmək zorunda qalmışıq. Biz Müsavat Partiyasını gücləndirməklə bərabər qorumaqla məşğul oluruq".

**Sonda S.Soltanlı Q.İbadoğluna müraciət edib:** "Əl çəkin bu fəaliyyətinizdən, nifaqçılıqla məşğul olmayın, imkan verin bu xalq üçün, bu ölkə üçün, demokratiya və azadlıqlar üçün mübarizəmizi aparaq".

❑ E.SEYİDAĞA

# Müsavat MNTK-sı xəbərdarlıq etdi

## "Özünü Müsavata qarşı qoyan bir qrup şəxsin yaratdığı qurum alternativlik iddiası ilə çıxış edir"

**Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyasının toplantısı keçirilib. Partiyadan verilən məlumata görə, toplantıda Mərkəzi Nəzarət-Təftiş Komissiyasına daxil olan bir sıra ərizə və şikayətlərə baxılıb. O cümlədən bir neçə partiya üzvünün adından "Müsavat Üzvlərinin Hüquqlarını Müdafiə Komitəsi"nin yaradılması məsələsi müzakirə edilib.**

MNTK bəyan edib ki, Müsavat Partiyasının legitim strukturlarını-seçkili qurumlarını, onun Divanını, Mərkəzi Nəzarət-Təftiş Komissiyasını qeyri-qanuni adlandıran, özünü Müsavata qarşı qoyan bir qrup şəxsin yaratdığı bu qurum Müsavat Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyasına alternativlik iddiası ilə çıxış edərək, özünü Müsavat üzvlərinin müdafiəçisi kimi təqdim edir: "Müsavat Partiyasının Nizamnaməsinə əsasən Müsavat Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyası partiya üzvlərinin Nizamnamə hüquqlarının qorunması və intizamına baxılması məsələsində partiyanın üstqurumudur. Partiyadan xaric edilən hər bir müsavatçı narazı qaldığı qərardan partiyanın Mərkəzi Nəzarət-Təftiş Komissiyasına müraciət etmək hüququna malikdir. Partiyadaxili şikayətlə bağlı prosedur hüququndan nümayişkaranə şəkildə imtina edərək, əvəzində partiya strukturlarına qarşı qondarma qurum yaratmaq Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyasının səlahiyyətlərini mənimsəmək və açıq-aydın bölücülük cəhdidir".

**Mərkəzi Nəzarət-Təftiş Komissiyası özünü qarşı olduğu Müsavat Partiyasına qarşı qoyan, belə hərəkətləri ilə partiyanın nüfuzuna zərbə vurmaq məqsədi güdən şəxslərə xəbərdarlıq edib:** "Bu cür hərəkətlər Müsavat Partiyasının Nizamnaməsinin 1.9. bəndinin (partiyadaxili intizama riayət etmək və partiyadan kənar fəaliyyətində partiyanın nüfuzunu qorumaq) kobud şəkildə pozulması cəhdidir. Müsavat Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyası belə hərəkətlərə yol verən şəxslərdən partiya nizamnaməsinə zidd fəaliyyətlərinə son qoymağı tələb edir".

❑ E.SEYİDAĞA



Əbdül Əbilov

# NİDA "kars"a salınan üzvü ilə bağlı bəyanat yaydı

## Əbdül Əbilov siyasi məhbus Anar Məmmədli ilə yemək yediyinə görə karserə salınıb

**Həbsdə olan NİDA-çı gənc Əbdül Əbilov cərimə kamerasına ("karser") salınıb. Buna səbəb gənc fəalın digər siyasi məhbus Anar Məmmədli ilə birlikdə yemək yeməsi olub. Bu barədə mətbuata Əbdül Əbilovun anası Nurcahan Əbilova məlumat verib.**

Gənc fəalın üzvü olduğu NİDA Vətəndaş Hərəkatı bununla bağlı bəyanat yayıb. Bəyanatda Əbdül Əbilova qarşı olunan zorakılıqlar pislənib: "Üzvümüz Əbdül Əbilovun səhhətində problemlər var. NİDA Vətəndaş Hərəkatı olaraq məsələni araşdırdıq və 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan siyasi məhbuslarla bağlı türmə rəhbərliyinin özbaşınalıqları və təzyiqləri haqda məlumatlar əldə etdik. İlkin olaraq Əbdül Əbilovla bağlı ictimaiyyəti məlumatlandırmaq istəyirik ki, o, digər siyasi məhbus Anar Məmmədli ilə birlikdə yemək yediyinə görə bir günlük karserə salınıb. Orada onunla kobud davranılıb, fiziki zorakılıq və təzyiq olunub. Ümumiyyətlə, 13 saylı cəzaçəkmə müəssisəsində digər siyasi məhbuslarla da türmə rəhbərliyi kobud davranır və müxtəlif qanunsuz qadağalar qoyur. Siyasi məhbuslara bir-biri ilə görüşməyə, söhbət etməyə, birgə yemək yeməyə imkan verilmir. Onlara bir-biri ilə görüşəcəkləri təqdirdə cəzalandırılacaqları bildirilib. NİDA Vətəndaş Hərəkatı olaraq Ədliyyə Nazirliyindən, Penitensiar Xidmətdən və digər aidiyyəti qurumlardan baş verənləri araşdırmağı, 13 saylı həbsxana rəhbərliyindən isə məhbuslarla qeyri-insani davranışı dayandırmağı tələb edirik".

Əbdül Əbilov 2013-cü il noyabrın 22-də tutulub, 2014-cü il mayın 27-də narkotik ittihamı ilə 5 il yarım azadlıqdan məhrum edilib. Ailəsi onun sosial şəbəkələrdəki fəallığına görə həbs olunduğunu deyir.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 26 (6054) 5 fevral 2015

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, YAP-çı deputat Rəbiyyət Aslanova uzun fasilədən sonra "Yeni Müsavat"a geniş müsahibə verib. Onunla müsahibənin 2-ci hissəsini təqdim edirik.**



# "Bu bir il ərzində mən yenə də özümü sınadım"

## Rəbiyyət Aslanova: "Bu yaxınlarda Gülər Əhmədovanı gördüm, ancaq..."

(əvvəli ötən sayımızda)

***- Bəlaləri çox oldu?***

- Xeyli oldu. Dostlarım yanımdadır. Amma tanışlar içərisində bu yazılardan qorxub-çəkinən, hardasa hətta bunun təsirinə düşən, birdən onlara da nəsə deyərlər düşünən adamlar oldu. Nə etmək olar, insandır... Özümü bilirsiniz necə hiss elədim? (Ürəkdən gülür) Azərbaycanın görkəmli şəxsləri olub e, onları da yarıyolda qoyublar, onlar kimi... Amma çox rahat yaşadım. Bəlkə də mənim peşəmin rolu oldu. Fəlsəfə müəllimiyəm, zaman-zaman bunları oxumuşam, tarixi proseslərin necə getdiyini bilmişəm, Makiavellini gözəl bilirəm. "Biz sizi natamam yaratdıq və təkamülə doğru getmək imkanı verdik" deyib müdriklər və ulu Allahımız. Yəni natamam yaranmış birisiyik.

***- Rəbiyyət xanım, siz Milli Məclisin İnsan haqları komitəsinin sədri olduğunuz halda öz hüquqlarınız uğrunda mübarizə aparmalı oldunuz. Bunu taleyin ironiyası da saymaq olarmı?***

- Yox. Deyərdiniz ki, bəlkə də mən öz hüquqlarımı qoruya bilmədim. Hüququmu pozan kim idi? Konkret o qüvvə var idimi ki, mənim hüququmu pozsun, mən də ona qarşı öz etirazımı yüksəldim? Yox. Mən yel dəyirmanları ilə vuruşan birisi deyiləm. Bilsəydim ki, konkret hansısa qüvvə mənim hüquqlarımı pozur...Mən Milli Məclisdəyəm, fəaliyyətdəyəm, seçicilərimlə görüşdəyəm, cəmiyyətdə öz yerimdəyəm. Məni ən çox narahat edən bir məsələ var idi: jurnalistlərin yazdığı o yazılar mənim işgüzar nüfuzuma çox pis təsir edirdi. Amma nə gözəl ki, Azərbaycan insanı yaxşını pisdən ayırır. O qədər gözəl insanlar mənə telefon açdılar ki, "Rəbiyyət, bunlar olan şeylərdir, sən onlara fikir vermə". Hər kəs bilir ki, sən öz mövqeyindəsən.

***- Fikir verməyib də builki parlament seçkilərinə gedəcəksinizmi?***

- Seçkini bu məsələ ilə əlaqələndirmək... Bu, məndən asılı bir şey deyil. Baxarıq. Bunu zaman göstərər, hələ arada bir neçə ay var və hər dəqiqənin bir hökmü var. Ehtiyac bilinərsə, mən YAP-ın üzvüyəm, bu, partiya rəhbərliyi səviyyəsində həll olunan bir məsələdir. Məsləhət bilinərsə, mən həmişəki kimi öz fəaliyyətimi davam etdirərəm. Məsləhət olmazsa... Bütün bu illər ərzində mənə olan bu etimada görə çox böyük minnətdarlıq hissi yaşayıram və həmişə də yaşayacağam. Bunlar mənim taleyimə yazılan ən gözəl illərdir və mən bu illərdə də bir millət vəkili kimi minnətdarlıq hissi yaşayaraq fəaliyyətimi gerçəkləşdirmişəm. Bu olmayacaq, mən yenə də gedib həmişə olduğu kimi elmi fəaliyyətimi davam etdirəcəyəm. Harada, hansı işdə olmağımdan asılı olmayaraq mən yenə də öz mövqeyimdəyəm, YAP-ın üzvü olmağımla fəxr edirəm, qürur yaşayıram. Çünki mən bu partiyaya ulu öndərin partiyaya rəhbərlik etdiyi zamanda daxil olmuşam və yenə də öz fəaliyyətimi davam etdirəcəyəm. Bir də ki, mənim yaşımın da artıq o vaxtı deyil. (ürəkdən gülür)

***- Siz də yaşdan şikayətlənməyə başlamısınız?***

- (Gülərək) Yox, şikayətlənmirəm, ancaq yenə də. Bəlkə də dediklərim sizə bir az qəribə gələr. Bu hadisələrin baş verdiyi ötən 1 il mənim üçün çox maraqlı oldu. Ona görə ki, bu bir il ərzində mən yenə də özümü sınadım: mən hansısa çətinliklərə tap gətirmək iqtidarındayam, yoxsa yox?

***- Bəs keçmiş həmkarınız və partiyadaşınız Gülər Əhmədova ilə münasibətləriniz necədir?***

- Mən bu yaxınlarda onu gördüm.

***- Görüşdünüzmü?***

- Yox, görüşmədik. Təsadüf elə gətirdi ki, görüşmədik. Bəlkə də bir-birimizi yaxşı görmədik. Amma görüşmədik... Allah yolunu açıq eləsin, rəvan eləsin! Mən heç bir Azərbaycan qadınına, ümumiyyətlə, insanlara pislik istəmirəm. Mən ruhumda, qəlbimdə pisliyi daşıyan insan deyiləm və istəmirəm. Allah insana bu qəlbi saf verib. Ümumiyyətlə, insan dünyaya saf bir ruhla gəlir. Amma zaman-zaman insan öz hərəkətləri ilə o ruhun rəngini dəyişdirməyə başlayır. Səhv düşüncə, səhv addım, səhv fikirlər, böhtanlar və s. Nə gözəl olar ki...Yaşadığım bu ömürdə bunları təmiz saxlamışamsa, bundan sonra da təmiz saxlayacağam. Kiməsə qarşı inciklıyi, nifrəti, acı məqamları könlümdə daşımaq iqtidarında deyiləm və istəmirəm.

***- Ölkədə baş verənlər, hətta beynəlxalq müstəvidə müzakirə mövzusu olan siyasi məhbuslarla bağlı ciddi bir addım atılması, dünyanın təlatümlü vaxtında Azərbaycan cəmiyyətində tam bir barışın əldə olunması üçün amnistiya verilməsi təşəbbüslərinə yanaşmanız necədir? Elə son iclasda həmkarınız İqbal Ağazadənin eyni məzmunlu çağırışı oldu.***

- Əvvəla, söyləyim ki, barış varlığın əsasıdır. Cəmiyyətdə, dünyada barış bəşəriyyətin yeganə yoludur. Görürsünüz, biz adi fərdi söhbətlərdən ictimai-siyasi proseslərə keçdik. Barış insanın ilk növbədə özünün özü ilə barışıdır, cəmiyyətdə, insanlar arasındakı barışdır. Bu baxımdan Azərbaycan cəmiyyətində mövcud olan bu barış situasiyasından mən razıyam. Nədən siz düşünürsünüz ki, bu gün cəmiyyətdə bu barış yoxdur? Barış var. Bu yaxınlarda siyasi partiyaların nümayəndələri iqtidar partiyası ilə birlikdə görüşmək və bir araya gəlmək təşəbbüsündə bulundular. YAP rəhbərliyi də münasibət bildirdi ki, biz həmişə buna hazırıq.

***- Ancaq bir sıra müxalifət partiyalarının iştirakı olmadan...***

- Yəni o görüş keçirildi, orda çox vacib söhbətlər aparıldı. Eyni zamanda hamını qane etmək çox çətin məsələdir. Bu gün Azərbaycan cəmiyyətində öz sözünü demiş, elektorata sahib olan, öz proqramı, fəaliyyəti, dövlətçiliyə xidməti ilə gündəmdə olan partiyaların böyük əksəriyyəti ordaydı. Elə İqbal Ağazadə iştirak etmişdi və görüşdən sonra gözəl bir mövqe də bildirmişdi.

***- Müsavat və AXCP yox idi...***

- Hər hansı bir partiya ayrıca xüsusi dəvət gözləməməlidir, özü də təşəbbüsdə olmalıdır. Bizi maraqlandıran, iqtidar və müxalifət partiyalarını bir araya gətirən, ümumi məxrəcə gəlməyə imkan verən problemlər varsa, nəyə görə müxalifət partiyası kənarda oturub bir dəvət gözləyir? Özü təşəbbüskar olmalıdır. Problem ondadır ki, bu gün müxalifət partiyaları özlərini haqlı hesab edir və gözləyirlər ki, iqtidardan onlara hansısa bir dəvət gəlsin. Bu, mümkün olan şey deyil. Azərbaycanda bizim üçün həlli vacib problemlərlə əlaqədar olaraq təşəbbüs hər iki tərəfdən gələ bilər və bir araya gəlmək də mümkündür. Yəni onları bölən, qarşıdurma yarada bilən problem yoxdur.

***- Bunun üçün ilk öncə həbsxana qapılarının taybatay açılmasının vaxtı deyilmi? Bəlkə münasibətləri sıfırdan başlamaq daha faydalı olar...***

- Yox, məsələni çox ciddi qoyursunuz. Həbsxana qapılarının açılması məsələsi...

***- Əfvi-ümumiyə ehtiyac görmürsünüz yəni?***

- Yox, mən buna razı ola bilmərəm. Zaman-zaman əfv, amnistiya olur və Milli Məclisə də həbsdə olan insanlardan, onların valideynlərindən nə qədər məktublar gəlir. Hətta gələn məktubları belə araşdırarkən görürsən ki, elə cinayətlər var ki, o cinayətlərə görə onların əfvi mümkün deyil.

***- Söhbət siyasi baxışlarına görə məhkum olunanlardan gedir...***

- Həbslər siyasi deyil. Dediyiniz adamlarla əlaqədar olaraq... Dövlət başçısı da bir neçə nəfərin azadlığa çıxması ilə əlaqədar iradəsini ortaya qoydu, bu məsələ həll olundu. Nədənsə fəaliyyətində cinayət tərkibi olan insanların hamısının siyasi məhbus adı ilə azad etdirmək iddiası var. Bu, nə qədər düzdür?

***- İsmayıllı hadisələri baş verəndən bir gün sonra Tofiq Yaqublu bir jurnalist, bir siyasətçi olaraq bu rayona gedib ki, nə baş verdiyini araşdırsın. Ancaq Tofiq Yaqublu, yaxud İlqar Məmmədov deyil, başqa adi vətəndaşlar getsəydi, yəqin ki, həbs olunmazdılar.***

- Nədən belə düşünürsünüz? Bəlkə doğrudan da onun ora getməsi iğtişaşın yaranmasına səbəb olub.

***- Onlar İsmayıllıya iğtişaşın səhərisi gün gediblər.***

- Siz məhkəmənin qərarı ilə yaxşı tanışsınızmı? Onda nəyə görə bu insan həbs olundu? Siz subyektiv düşüncələrinizi deyirsiniz. Amma məhkəmənin qətnaməsi var, orda sübutlar var.

***- Amma Azərbaycan məhkəmələrinin bir çoxu haqqında da Avropa İnsan Haqları Məhkəməsi qərar çıxarıb və Azərbaycan dövlətini cərimələyib. Hətta Siyavuş Novruzov bir dəfə də çıxışında demişdi ki, bəzən hakimlərin yanlış qərarına görə dövlət zərərə düşür...***

- Əlbəttə, biz istərdik ki, hakimlər qərarlarını elə versinlər ki, Avropa Məhkəməsinin qərarı Azərbaycana qarşı yönəlməsin. Bununla əlaqədar olaraq biz Avropa Konvensiyasının müvafiq protokollarını da imzaladıq ki, protokola əsasən, yerdə problem həll olunsun, məsələ Avropa Məhkəməsinə getməsin. Çünki ora gedən məsələlərin də sayı artdıqca bu, dövlətə qarşı çevrilir. Ancaq hakimlər də insanlardır. Əlbəttə, onların da qərarında səhv olmamalıdır...



❑ Elşad PAŞASOY
FOTO: "YM"

YENİ MÜSAVAT
N 26 (6054) 5 fevral 2015



# Əsəbi əsgərin atası

Zamin HACI
zaminhaci@gmail.com

**Hazırda ölkəmizin gündəmində bir neçə aktual mövzu fırlanır. Bunlardan birincisi odur ki, telekanalizasiyada işləyən əkiz bacılar Balakənin Naxçıvanda yerləşdiyini söyləyiblər. İkincisi ondan ibarətdir ki, deputatxana üzvü yol polisinə dana deyibdir. Üçüncüsü tarixi abidəmizə - Qız qalasına aiddir.**

14 fevralda bir hotel qalanın başında sevgililərə kürü və şampan qonaqlığı qayırır, cəmi 100 min manata. Öncədən deyim bütün yerlər tutulub. Pensiyaçı qoca və qarılarımız xüsusilə bu tarif paketinə maraq göstəriblər - "Sevgililər günü"ndə özlərinin qızıl-brilyant toylarını qeyd eləmək istəyən çoxdur.

Müsavat Partiyasında da qurultaydan sonrakı təmizləmə işləri yüksək sürətlə aparılır. Başını qaldıranı vururlar. Zarafat edirəm, heç kimi vurmayıblar - patron almağa vəsait yoxdur. Sadəcə, təzə başqan köhnə başqandan qalma problemləri aradan qaldırmaqla məşğuldur. Bizim ölkədə isə əsas problem həmişə insanlar olmuşdur. "Təzə başqanı bəyənmirsən! Part! ADR qurursan? Adə, sən bəyəm Rəsulzadə yolundasan? Part! Bunu da aşırtdıq. Əlhəmdüllah, rəbbülaləmin! Qələbə bizimdir, olmuşuq əmin!"

İntəhası adam fikirləşir ki, əks danışanları qova-qova o boyda partiya *(müsəlmanlar milyard yarımla, yapistlər 1 milyard yeni iş yeri ilə ölçüldüyü kimi Müsavat da "yüz ilin partiyası" ilə ölçülür)* məşhur lətifədə deyilən kimi, kirə çıxsın. Bu isə bizə yaraşmaz. Məncə, qovulanların hamısını geri qaytarsınlar, dəxi 20-30 il partiyadaxili söz azadlığından həzz alaq, qırğın getsin. Yoxsa indi elə bil təkqapı oyun gedir. Ümid edirəm bu yazıdan sonra məni partiyanın Divanına çağırmazlar. Qorxaq adamam, yolda ürəyim partlayar, ölərəm. Sonra deyərlər Rəsulzadə-Elçibəy yolunda bir şəhidimiz də var. Məncə, xalqımız bunu istəməz. Xalqımız məni sevir. Mən də xalqımızı sevirəm.

Ölkə daxilində bu cür əmin-amanlıq şəraitinin yaranması, əlbəttə, cəsur generalımız, paşamız, sərkərdəmiz, Koroğlumuz, Cavanşirimiz, Babəkimiz... Yox, yaxşısı budur Babəki yazmayaq hələ, nəsə ortada mübahisə var. Uzun sözün qısası, Zakir müəllimin xidmətləridir. O gələndən bəri cəbhə xəttində böyük irəliləyişlər var. Məsələn, deputat Zahid Oruc demişkən, bəzi yerlərdə hətta 20 qarış qabağa getmişik. Dünən isə xəbər yayılıb ki, bir əsgər ağır yaralı hospitala qoyulub, əsgərin atası deyir oğlumu polkovnik komandiri vurub. MN cavab atəşiylə əsgər atasını dərhal susdurub *(bunlarda da başqan dəyişikliyi keçən ildən əməllicə hiss olunur - ordudan pis danışanı dərhal susdururlar, daha Fevvaralər bağına yığışmağa imkan vermirlər)*. Ancaq nazirliyin açıqlamasında bir hissə mənə çox maraqlı gəldi. Sitat: "Aydın Tarverdiyev oğlunun məsuliyyətdən yaxa qurtarmasına çalışmaq məqsədilə böhtan xarakterli xəbərlər yayır və ictimaiyyətə qeyri-dəqiq, qərəzli məlumatlar verir. Halbuki söhbət zamanı əsgərin atası oğlu Çingiz Tarverdiyevin uşaq vaxtlarından əsəbi olduğunu bildirib. Bundan əlavə, o qeyd edib ki, oğlu Çingiz Tarverdiyev hərbi xidmətə gəlməmişdən əvvəl də davranışlarında aqressiv olub. Əsəbiləşəndə özünü idarəetməni tez-tez itirir, bu səbəbdən də atasının sağ əlinin barmağına balta ilə xəsarət yetirib, iki qardaşına bıçaqla hücum edərək onları da bıçaqlamaq istəyib". Sitatın sonu.

MN demək istəyir, bu əsgər elə qabaq da dəli olub. Bəs bunu orduya niyə aparmısınız? Üstəlik, cəbhə xətti kimi vacib yerə. Ancaq belə sadəlövh sualı avamlar verər, biz avam deyilik. Əsəbi oğlanları cəbhə xəttinə göndəriblər ki, düşmənə qan uddursunlar. Zakir müəllim bunun avtobioqrafiyasına *(guya tərcümeyi-hal yazanda bizim dildə olurmuş)* baxanda görüb atasının sağ əlinin barmağını baltalayıb - dəqiqliyə baxın, əsgər haqda hər şeyi bilirlər, bəlkə də kəşfiyyat rotası evə gedib! - ondan sonra qərara alınıb bu cür qiymətli kadrın yeri məhz öncəbhədir.

Bəs indi bu niyə yaralanıb və atası günahı polkovnikin üstünə atır? Çox sadə səbəbdən: elə bunu atası özü yaralayıb! O vaxtkı baltanın qisasını almaq üçün gizlicə, qaranlıqda, səhər saat 5 radələrində cəbhə xəttinə yaxınlaşıb, uşağı vurub qaçıb.

Lənətə gələsən səni... Elə bilir bununla nəyəsə nail olacaqdır.

# "Bu, qalib gələn tərəfin davranışı deyildi"

## İŞİD-in hərbi pilotu yandırıb öldürməsi dünyada böyük etiraza səbəb oldu, Pentaqon isə terror təşkilatının bu hərəkətini qruplaşmanın zəifləməsi ilə əlaqələndirir



**Ötən ilin dekabrında F-16 qırıcısının qəzaya uğraması nəticəsində Suriyanın Rəqqa şəhəri yaxınlığında İŞİD-ə əsir düşən iordaniyalı pilot Muaz Kəsəbsi edam edilib. İŞİD daha əvvəl İordaniyada həbsdə saxlanılan Sacidə Rişavi ilə dəyişmək istədiyi pilotu qəddar şəkildə diri-diri yandıraraq edam edib. Pilotun üzərinə benzin tökülərək yandırılıb öldürülməsini əks etdirən videonu İŞİD yayıb. Bu hadisə dünyada böyük bir etiraz doğurub.**

Hərbi əsirin ələ keçirilərək qəddar şəkildə edam edilməsi, diri-diri qəfəsdə üzərinə benzin tökülərək yandırılması terror təşkilatının amansız edam növləri sırasına yenisini əlavə edib. Hələlik terror təşkilatı pilotu bu şəkildə edam etməsinin səbəbini açıqlamayıb.

Məlum olduğu kimi, İŞİD hərb qanunlarını və digər beynəlxalq konvensiyaları qəbul etmir. Qruplaşma əsasən İslam qanunlarına istinad etdiyini iddia edir. Bu səbəbdən də İŞİD-çilər daha əvvəl həyata keçirdikləri başkəsmə, dar ağacından asma və hündür binadan atmaq kimi edam növlərini ilkin İslam dövründə həyata keçirilmiş və ya şəriət göstərişlərinə əsasən icra etdiyini bəyan edib. Lakin İslam qanunlarında əsir əsgərin, ümumiyyətlə, hansısa cinayəti törətmiş insanın belə diri-diri yandırılması kimi hökm yoxdur. Bir sıra ekspertlər bu cür metodlarla İŞİD-in amansız olduğunu və düşmənlərinə ən ağır şəkildə cəza verəcəyini göstərir, eyni zamanda kütləvi qorxu yaratmağa çalışır.

Bu səbəbdən də edamdan dərhal sonra İordaniya dövlətindən sərt cavab gəlib. Rəsmi Amman Kəsəbsinin yandırıldığını göstərən videonun yayılmasından dərhal sonra pilotla əvəz olaraq dəyişmək istədiyi terrorçu Sacidə Rişavini həbsxanada edam etdirib. İordaniya hökuməti sözçüsü bildirib ki, iraqlı kamikadze qadın Sacidə Rişavi və "əl-Qaidə" üzvü "Əbu Huzeyfə" ləqəbli Ziyad Kərbulini yerli vaxtla saat 4-də edam edib.

Ancaq edamlar bundan sonra da davam edə bilər. "Əl-Cəzirə"nin məlumatına görə, ötən gün Vaşinqtonda olan İordaniya kralı Abdulla təcili ölkəsinə qayıdıb. Gözlənilir ki, İordaniya həbsxanalarındakı bütün İŞİD üzvləri asılacaq. Artıq ölkə həbsxanalarında saxlanılan İŞİD üzvləri edamların həyata keçirildiyi Suvayka həbsxanasına köçürülüb. Hökumət telekanalına açıqlama verən kral Abdulla İŞİD-i ağır şəkildə cəzalandıracaqlarını deyib və ölkəsini birliyə çağırıb. Eyni zamanda kral pilotun vəhşicəsinə öldürülməsinin İslam dini ilə əlaqəsinin olmadığını deyib.

Yandırılan pilotun atası Yusif Kəsəbsi isə oğlunun öldürülməsinə qarşılıq iki nəfərin edamının az olduğunu deyib. Sitat: **"Edamlar yetərli deyil. Bunlar kiçik əvəzdir, bunu yetərli görmürəm. Muazın qanı daha dəyərli idi. İordaniyanın onlara daha böyük əvəz çıxmasını istəyirəm. Necə gündür ki, Muazın canlı olmasını və geriyə canlı qayıtmasını istəyirdim, ancaq indi şəhadət xəbərini aldım. Buradan İordaniya xalqına başsağlığı verirəm".**

Ancaq bu arada məlum olub ki, İŞİD də öz növbəsində İordaniyaya qarşı qisas planı hazırlayır. Belə ki, pilotun ölüm videosuna eyni zamanda İordaniya ordusunda xidmət edən və İŞİD-in bombalanmasında iştirak edən 60 zabitin adları, ev ünvanları və bəzilərinin sosial şəbəkə ünvanları qeyd olunub. Eyni zamanda İŞİD bu şəxslərin hər birinin başına İŞİD-in "pul vahidi" olan 100 qızıl lirə mükafat təyin edib.

Bu arada ABŞ Müdafiə Nazirliyinin sözçüsü admiral Con Kirbi İŞİD-in xeyli zəiflədiyini bildirib. İŞİD-in artıq müdafiə mövqeyinə keçdiyini, əvvəlki kimi maşın karvanları ilə hərəkət etmədiyini və ötən müddətdə yüzlərlə avtomobilini itirdiyini qeyd edib. İŞİD hələ də döyüşçü cəlb etməkdə davam etsə də, artıq davamlı iri hərbi birləşmələri yoxdur.

Eyni zamanda C.Kirbi İŞİD-in əsas gəlir mənbəyi olan neftin qiymətlərinin ucuzlaşmasından sonra qruplaşmanın əsas gəlir mənbəyinin neft olmadığını və bu səbəbdən də hazırkı İŞİD-in 6 ay əvvəlkindən xeyli fərqləndiyini qeyd edib. İordaniyalı pilotun yandırılaraq edam edilməsinə toxunan Kirbi bildirib ki, "bu, qalib gələn tərəfin davranışı deyildi".

❑ KƏNAN

# "Vaşinqton Tayms"da Azərbaycan müzakirələri

## Səfir və deputatlar ölkəmizin önəmindən danışıblar





**ABŞ-ın nüfuzlu qəzetlərindən biri olan "Vaşinqton Tayms"ın təşkilatçılığı ilə Vaşinqtonda ABŞ Konqresinə məxsus Kapitol Hil Klubunda "Xəzər dənizi hövzəsində geosiyasət: ABŞ-Azərbaycan müttəfiqliyi nə üçün əhəmiyyətlidir?" mövzusunda tədbir keçirilib.**

"Vaşinqton Tayms" qəzetinin redaktoru Con Solomonun moderatorluq etdiyi bu tədbirdə müvafiq ardıcıllıqla Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və onun deputat həmkarı, Demokratik İslahatlar Partiyasının (DİP) sədri Asim Mollazadə məruzə ilə çıxış edib. DİP-dən verilən məlumata görə, A.Mollazadə ABŞ-Azərbaycan münasibətlərinin möhkəm əsaslar üzərində dayandığını qeyd edərək, ölkələr arasında təhlükəsizlik sahəsində aparılan əməkdaşlıqdan söz açıb. O, Azərbaycan hərbiçilərinin müxtəlif vaxtlarda beynəlxalq koalisiyaların tərkibində Balkanlar, İraq və Əfqanıstanda xidmət etdiklərini və bu gün belə Azərbaycan əsgərlərinin Əfqanıstanda Kabul aeroportunu qoruduqlarını bildirib. Azərbaycanın həmçinin Əfqanıstanın dirçəlməsinə yönəlmiş fəaliyyətlərə verdiyi töhfəni qeyd edən millət vəkili Əfqanıstandakı beynəlmiləl qüvvələr üçün hava daşımalarında Azərbaycanın rolunu da vurğulayıb. A.Mollazadə qeyd edib ki, terrorizmi yalnız güc hesabına məğlub etmək mümkün deyil və bu sahədə maarifləndirmə işlərinin aparılması böyük önəm daşıyır.

Deputat Azərbaycanda müxtəlif dinlərin təmsilçiləri arasında münasibətlərin qarşılıqlı hörmətə əsaslandığını da diqqətə çatdırıb. Bu mənada Azərbaycanın nümunəvi bir model təşkil etdiyini deyib. A.Mollazadə Avrasiya regionunda cərəyan edən hadisələrlə bağlı da öz fikirlərini bölüşüb. Azərbaycan-İsrail münasibətlərinin inkişafından söz açıb, Bakı-Tbilisi-Qars dəmir yolu daxil olmaqla, regional nəqliyyat şəbəkəsinin təsis edilməsi üçün aparılan fəaliyyətləri təqdim edib.

**Milli Məclisin Beynəlxalq əlaqələr komitəsinin rəhbəri Səməd Seyidov isə çıxışında Amerikanın hazırda regionda çox az dosta sahib olduğunu bildirib:** "Biz məhz buna görə istəyirik ki, regiona daha çox diqqət ayrılsın. ABŞ Avrasiyaya münasibətdə dəqiq və uzunmüddətli geosiyasi strategiya müəyyənləşdirməlidir. Əks halda, Vaşinqton regionu itirə bilər. Cənub Qaz Dəhlizi təkcə neft və qaz koridoru deyil, bu həm də azadlıq koridorudur". (axar.az) Tədbirin sonunda azərbaycanlı natiqlər moderator və iştirakçıların suallarını cavablandırıb.

ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Azərbaycan Milli Məclisinin ABŞ-da səfərdə olan deputatları Səməd Seyidov və Asim Mollazadə ilə görüşüb. "Azərbaycanın millət vəkilləri Səməd Seyidov və Asim Mollazadə ilə görüşməkdən məmnunam. Onlarla Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının perspektivləri ilə bağlı danışıqlarımız çox faydalı oldu", Ceyms Uorlik twitter hesabında yazıb. Xatırladaq ki, Ceyms Uorlik yaxın zamanda Minsk Qrupunun həmsədrlərinin regiona səfər edəcəyini bildirib.

Onu da qeyd edək ki, ABŞ-Azərbaycan münasibətlərində son günlər istiləşmə müşahidə olunur. Amerika mətbuatının Azərbaycanla bağlı müsbət xarakterli yazıları da intensiv çap olunur. Yaxın günlərdə isə ABŞ-ın yeni səfiri Bakıda fəaliyyətə başlayacaq.

❑ Cavid TURAN

# Güney Qafqazda “rəngli inqilab” ideyası gündəmə qayıdır?



# ABŞ Rusiyaya həlledici zərbəni Azərbaycanda vuracaq - iddia

## Ağ Ev Kremlin Qarabağ başda olmaqla, regiondakı münaqişələrin həllini əngəlləməsini öz maraqlarına ən böyük təhdid sayır; amerikalı ekspert: “Biz fırtına dövrünə daxil olmuşuq...”; Kremlin “Milyarderlər ittifaqı”nı canlandırmaq səyləri təsadüfdürmü?

**Vaşinqtonda uzun müddət ərzində ilk dəfə olaraq Kennan Universitetinin təşəbbüskarlığı ilə Güney Qafqaza həsr olunmuş “Ukraynadan sonra Cənubi Qafqazda təhlükəsizlik və enerji məsələləri” mövzusunda konfrans keçirilib. “Vestnik Kavkaza” nəşri xəbər verir ki, tədbirdə məruzəçilər əsas diqqəti Rusiyanın Cənubi Qafqaz ölkələrinə neqativ təsirinə və roluna yönəldiblər və Birləşmiş Ştatların bu yöndə səylərini artırmalı olduğunu bildiriblər.**

**Belə ki, Amerika Xarici Siyasət Şurasının eksperti Stiven Blank** bildirib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı deyil, çünki bu, ona imkan verir ki, həm Azərbaycana, həm də Ermənistana silah satsın və Qarabağ müharibəsi başlayanda vəziyyətə müdaxilə eləsin. “Bu isə müharibənin özündən də artıq faciələrə gətirəcək”.

**Strateji və Beynəlxalq Təhqiqatlar Mərkəzinin (CSİS) Rusiya və Avrasiya Proqramlarının direktor müavini Cefri Mankoff** da həmkarı ilə razıdır. Onun sözlərinə görə, konflikt zonasında status-kvo Kremlə imkan verir ki, Ermənistanın yeganə təhlükəsizlik qarantı kimi özünü təqdim eləsin. Amerikalı ekspertlər ona da əmindirlər ki, Rusiya Güney Qafqaz ölkələrinə anlatmaq istəyir ki, “əgər istəsə, bu üç ölkədən istənilən birinin suverenliyini dərhal məhv edər və Qərb onlara kömək edə bilməz”.

**ABŞ Sahibkarlar İnstitutunun eksperti Maykl Rubin** isə bununla bağlı ABŞ-ın Güney Qafqaza daha çox diqqət ayırmalı olduğunu qeyd edib. “Biz fırtına dövrünə daxil oluruq və belə bir vəziyyətdə Birləşmiş Ştatların Cənubi Qafqaza münasibətdə laqeydliyi region ölkələri tərəfindən Amerikanın zəifliyinin sübutu kimi qəbul ediləcək ki, bu da bölgədə Rusiya və İranın təsirinin güclənməsinə gətirəcək. Güney Qafqazda sabitlik isə Birləşmiş Ştatların təhlükəsizliyi üçün çox böyük rol oynayır”, - deyə o qeyd edib.

***

**Kremlə yaxın rusiyalı politoloqlar isə konfransı “ABŞ-ın Güney Qafqazla bağlı uzaqgedən anti-Rusiya planları kimi təqdim edirlər. Məsələn, tanınmış ekspert Sergey Mixeyev hesab edir ki, Amerika Rusiya ilə mübarizəni heç bir istiqamətdə dayandırmayıb:** "Onlar bizimlə həmişə mübarizə aparıblar. Misal üçün, Amerika Ermənistanın Avrasiya İttifaqına qoşulmasını hər vəchlə əngəlləməyə çalışıb. Yaxud bir vaxt Gürcüstanda Saakaşvili rejimini aktiv müdafiə edib və faktiki, onu 2008-ci il müharibəsinə təşviq edib. Məqsəd aydındır - Rusiyanı gözdən salmaq, onu bölgədən sıxışdırmaq və region ölkələri ilə əlaqələri pozmaq. Konfrans bu zəncirin həlqəsidir".

Azərbaycan-Rusiya münasibətlərinin pozulmasının Vaşinqtona sərfəli olduğunu deyən politoloq əlavə edib ki, Kreml əvvəl seçdiyi siyasi kursa sadiq qalmalıdır.

**Öz növbəsində Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin üzvü İqor Fyodorov Ağ Evin Moskvaya “hücum istiqamətlərini genişləndirdiyi” qənaətindədir:** “Tamamilə aydındır ki, ABŞ Rusiyaya bütün istiqamətlərdə zərbə vurmağı planlaşdırır - Avropada bu AŞPA-dır, dövlət çevrilişindən qaynaqlanan Ukrayna epopeyasıdır. Ardınca əminik ki, Cənubi Asiya istiqamətində Rusiyaya qarşı hərəkətlər planı hazırlanır. Qafqaz da Rusiyaya endiriləcək zərbə yerlərindən biridir”.

**Rusiyalı analitik İqor Morozov isə Birləşmiş Ştatların Güney Qafqaz ölkələri üçün “Maydan” planlarını hazırladığını söyləyib:** “Amerikalılar ”rəngli inqilablar" elementlərini işə salmaq üçün Rusiya-Azərbaycan və Rusiya-Ermənistan münasibətlərini pozacaqlar. Bu, həmin ölkələrdən birində mövcud hakimiyyətə qarşı istifadə olunacaq və Kiyev ssenarisi üzrə genişləndiriləcək. Odur ki, Moskva Azərbaycan və Ermənistanla münasibətləri möhkəmləndirməlidir".

***

Qeyd edək ki, Qərbin Güney Qafqaz ölkələrində, əlalxüsus da bölgənin açar ölkəsi olan Azərbaycanda mümkün “rəngli inqilab” ssenarisi haqda mətbuatda yazılıb. Heç şübhəsiz, ABŞ Rusiyaya ən sarsıdıcı zərbəni məhz Azərbaycanda vurmaq istəyir. Çünki Azərbaycanın geridönməz şəkildə Kremldən uzaqlaşması bütövlükdə regionun uzaqlaşması demək olacaq.

Ermənistan onsuz da Moskvanın ovcunun içindədir. Gürcüstan isə kifayət qədər əlçatmazdır və Qərbin patronajlığı altındadır. Qalır “tərəddüd içində” olan Azərbaycan. Bu xüsusda Kremlin yenidən “Milyarderlər ittifaqı”nı canlandırmaq səylərini artırması heç də təsadüf hesab oluna bilməz.

Başqa sözlə, Moskvanın əlindəki real rıçaqlarla seçki ilinə girmiş Azərbaycanda situasiyanı maksimum nəzarətdə saxlamağa çalışacağı indi hər hansı şübhə doğurmur. Rusiya Qərblə Azərbaycandakı həlledici “toqquşmadan” məğlub ayrılmamaq üçün hər şeyə gedəcək. Fəqət, hədəfə çatacaqmı? Sual budur.

❑ **Siyasət şöbəsi**

# Rusiyanın Azərbaycanda seçkiyə təsir imkanı necədir?

## **Tanınmış ekspertdən açıqlamalar:** “2013-cü il prezident seçkiləri öncəsi baş verən prosesləri yenidən təkrarlamağa çalışırlar”

**Şərti olaraq “Milyarderlər ittifaqı” adlanan Rusiya Azərbaycanlıları İttifaqının (RATİ) yenidən aktivləşməyə başladığı haqda məlumatlar yayılıb. Xəbərlərdə deyilir ki, bugünlərdə Moskvanın elitar restoranlarının birində qurumun tanınmış simalarının iştirakı ilə görüş olub.**

Azərbaycan siyasi səhnəsində hələ ki ciddi fəallıq gözə dəymir. Amma Moskvadakı restoran görüşü barədə xəbərin fonunda iki fakt diqqət çəkir. Birincisi, uzun müddətdir yalnız “kino çəkən”, “mən siyasətdə deyildim ki” deyən Rüstəm İbrahimbəyovun yenidən mediada fəallaşması və yanvarın 28-də Milli Şura üzvlərinə göndərdiyi müraciətdir. Həmin müraciətdə qeyri-adi fikirlər yoxdur. Amma müxalifətlə “barışığa” çağırılan müraciətdə hədəf yenə Azərbaycan hakimiyyətidir.

İkinci diqqət çəkən məqam isə R.İbrahimbəyovun fəxri sədrlik etdiyi qurumun məhz bu müraciətdən sonra mart ayında aksiyalara başlayacağını elan etməsidr.

Siyasi şərhçilər hesab edir ki, Rusiyanın 2015-ci il parlament seçkiləri ili olmasından yararlanıb Azərbaycana yenidən təsir etmək istəyinə düşməsi mümkündür. Yuxarıda qeyd olunan informasiyada deyilənlərin də kökündə bu amil dayana bilər.

Bəs Rusiyanın seçkilərə təsir imkanları necə ola bilər və hansı vasitələr işə salına bilər?



**Siyasi şərhçi Natiq Miri** bildirdi ki, 2015-ci il həm Rusiya, həm də Azərbaycan üçün çox həssas bir dönəmdir. Rusiyanın seçki ilindən Azərbaycana təsir üçün yararlanmağa cəhd etməsi gözlənilməndir. Ona görə də Moskva bir sıra proyektləri yenidən dirçəldə bilər. Rusiyanın Azərbaycana ehtiyacı var. Azərbaycan isə Rusiya və Qərb arasında bir balans siyasətini seçib. Nə Rusiyaya, nə Qərbə birmənalı olaraq yaxınlaşmır, onların strukturlarında birmənalı olaraq iştirak eləmir. Ancaq belə bir vəziyyət Rusiyanı narazı salır: “Rusiyanın son davranışları da göstərir ki, Azərbaycana qarşı siyasi təzyiqlər davam edəcək. Seçkilər yaxınlaşdıqca təzyiqin artacağı istisna deyil.

“Milyarderlər ittifaqı”-Milli Şura layihəsi yenidən canlandırıla bilər. Kreml bilir ki, daxildə Azərbaycan hakimiyyətinə təzyiq mexanizmi kimi Milli Şura faktoru var. Milli Şura 2013-cü ildə məhz Moskvanın xeyir-duası əsasında yaradılmışdı. Biz bunu zamanında mətbuatda bildirmişdik. Rüstəm İbrahimbəyovun Azərbaycana gəlməyəcəyi, Milli Şuranın, sadəcə olaraq, Rusiyanın Azərbaycandan nələrisə qoparmaq üçün təzyiq mexanizmi olduğunu da demişdik. Bütün xalqımız gördü ki, bizim dediyimiz reallaşdı. Rüstəm İbrahimbəyov Azərbaycana qayıtmadı, hakimiyyəti xeyli qorxuya saldıqdan sonra Putin seçkiyə az qalmış gəldi Bakıya və istədiyini alıb getdi. Bununla da “Milyarderlər ittifaqı”-Milli Şura proyektinin o dövr üçün istifadə müddəti bitdi. Bu gün Kreml Azərbaycandan umacaqlarını qoparmaq istəyir və seçki ili olduğundan düşünülür ki, əlverişli zamandır. Ona görə də ola bilsin ki, yenidən “Milyarderlər ittifaqı”-Milli Şura layihəsi işə salınır. Kremlin seçkilərə təsir imkanları bu layihə vasitəsilə var. Digər vasitələri də işə sala bilərlər. 2013-cü il prezident seçkiləri öncəsi baş verən prosesləri yenidən təkrarlamağa çalışırlar. Ancaq artıq cəmiyyət sözügedən proyektin əslində nəyə xidmət etdiyini 2013-cü ildə gördüyü üçün bu dəfə həmin proyekti cəmiyyətə qəbul etdirmək asan deyil. Milli Şuranın güclənməsi Rusiyanın maraqları dairəsindədir. Bunun üçün öncə “Milyarderlər ittifaqı” aktivləşdirilir. Moskvada keçirilən görüş çox güman ki, məhz bunun üçündür. Bundan sonra “Milyarderlər ittifaqı” və Milli Şuranın daha aktiv fəaliyyətə keçəcəyini böyük ehtimalla görəcəyik".

**Ekspert vurğuladı ki, Rusiyanın seçki ilində Azərbaycana təsir imkanlarından biri də hakimiyyətin içində olan şəbəkə də daxil ciddi beşinci kolondur:** “Bu beşinci kolon Azərbaycanda çox ciddi gücə malikdir və Moskvanın təsir imkanlarını artırır”.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 26 (6054) 5 fevral 2015

**Heç sovetlər dönəmində də Murquzlardan oxuyan çıxmamışdı. İndiyədək bu nəslin ən "elmli" və "ziyalı" adamı Xıdır Murquzov olmuşdur. Vaxtilə o, hardasa 6 aylıq kurs keçmişdi və bunun nəticəsində üzümçülük sovxozunda briqadir vəzifəsinə yüksəlmişdi. Kəndin qız-gəlinini sahəyə işləməyə aparan Xıdır kişi elə şəstlə gəzirdi ki, sanardın sovxozun direktoru bunun yanında çox balaca adamdır. Elə buna görə də Xıdır kişi kəndin olmasa da, Murquzovların həm savadlısı, həm də başbiləni sayılırdı.**

**Tofiq YAQUBLU**



# LG elçiliyi

## (hekayə)

Ancaq təəssüf ki, Murquzovlardan Xıdır kişinin təhsildə və karyerada bu "nailiyyətini" nəinki irəli aparan, heç təkrarlayan da olmamışdı. Xıdır kişinin oğlu Novruz da nəslin gələnəklərinə uyğun olaraq traktorçu olmuşdu. Tarix sübut etdi ki, Novruz traktorçu sənətini seçməkdə çox doğru addım atıb. Sovet dağılanda sovxozun "Belarus"u ona qaldı. Tez-tez xarab olmasına baxmayaraq, Novruz başına-gözünə döyərək onu çox səmərəli işlətməyi bacardı. Elə o idi ki, 90-cı illərin aclıq dövründə Novruzun ailəsi digərlərindən az korluq çəkdi. Arvadı Güldəstə xeyli dualar yazdırıb traktorun kabinəsinin ora-burasından asmışdı. Düzdür, Güldəstə xanım traktorun kabinəsinə "kabinet" deyirdi, amma səmimi olaraq düşünürdü ki, " Belarus"un xidmətlərində onun payı əri Novruzla yarıbayarıdır. Əgər bu dualar olmasaydı, traktor bədnəzərlərin ucbatından evə qazanc gətirə bilməzmiş. Yəni Novruzdan alınaraq xərclənmiş pullar özünü tamamilə doğrultmuşdu.

Onların cəmi bir uşaqları var idi. Səmimi olaraq belə düşünürdülər ki, Allah onlara təkcə Bəhlulu kifayət bilib. O, dünyaya gələn gündən ər-arvad sözü bir yerə qoymuşdular ki, lap iki dünya bir olsa da, gədənin əlinə diplom verəcəklər. Bəhlulu kənddə hamı Bəhi deyərək çağırırdı. Onun məktəbə getdiyi elə ilk aylardan bəlli oldu ki, Novruzla Güldəstənin "iki dünya bir olsa da, gədənin əlinə diplom vermək" planlarının reallaşması çox çətin olacaq. Belə ki, Bəhinin Murquzovlar nəslinin layiqli nümayəndəsi kimi oxumaqla heç arası yox idi. Yuxarı siniflərdə oxuyarkən atasının orda-burda tez-tez dediyi "lap evimi satmaqdırsa Bəhiyi ali sovetdi adam eliyəjəm" sözləri də onu bir yandan arxayın edirdi. Bəhi də, elə kəndin camaatı da "ali savadlı adam" ifadəsini "ali sovetdi adam" kimi deyən Novruzun dediyini mütləq edəcəyinə inanırdı. Anası Güldəstə də oğlu Bəhinin "ali sovetdi" adam olacağına o qədər əmin idi ki, bir qədər irəli gedərək ona ixtisas da seçmişdi. Güldəstə hər yerdə deyirdi: "Anası ölmüş gədiyi adam yaranlığa qoyajıx". Kənd camaatı Bəhinin hansısa ali məktəbin diplomunu ələ keçirə biləcəyini mümkün saysa da, ondan cərrah olacağını təsəvvür edə bilmirdi.

***

Bəhi axırıncı sinifdə oxuyanda onu repetitor yanına qoydular. O, bu bir ildə çox şey öyrənməsə də, hər halda, müəllimlərin gərgin əməyi nəticəsində azdan-çoxdan bəzi şeyləri öyrəndi. Dolu çuvaldan bir xışma taxıl götürən kimi. Amma bu nəyə çatardı ki? Novruzla Güldəstədən başqa hamının gözlədiyi kimi, Bəhi ali məktəbə test üsulu ilə qəbul imtahanından çox aşağı bal yığdı və təbii ki, daxil ola bilmədi. O, əli ətəyindən uzun kəndə qayıdanda camaatı maraq götürdü ki, görəsən, Novruzla Güldəstə gədənin uğursuzluğunu necə izah edəcəklər. Amma Bəhi sağ olsun, geri qayıdanda özüylə yaxşı bəhanə də gətirmişdi. Uğursuz abituriyentlərin əbədi bəhanəsi olan "sürüşdürmə" yalanı onun da karına gəldi. Evdəkilərə izah etdi ki, testin cavablarını düzgün tapıbmış, sadəcə olaraq, onları ağlamaya köçürəndə diqqətsizlik edərək yerlərini sürüşdürüb. Novruzla Güldəstənin təzə çıxmış test üsulundan o qədər də dərin bilgiləri yox idi. Keçmiş SSRİ-dən yadlarında qalmışdı ki, müəllimlər qəbula gəlmiş abituriyentləri qəsdən kəsirlər. Elə Bəhinin "sürüşdürmə" rəvayətindən sonra onların gəldiyi qənaət bu idi ki, insafsız müəllimlər imtahan zamanı anası ölmüş Bəhini sürüşdürüblər, yəni qəsdən kəsiblər.

Yazda Bəhini əsgər apardılar. Bu il yarım ərzində Novruz üç dəfə təkcə, iki dəfə isə Güldəstə ilə ona baş çəkməyə getdi. Gedəndə özləri ilə çoxlu yemək-içmək, həm də Bəhinin komandirləri üçün pay-püş apardılar. O, əsgərlikdən qayıdanda iri bir qoç kəsib yaxşı bir qonaqlıq verdilər. Bəhinin birinci cəhdindəki uğursuzluğu, sonra da əsgərliyə getməsi Novruzu onu "ali sovetdi adam" eləmək planından çəkindirməmişdi. O, yenə də deyirdi ki, baxarsınız, mənim oğlumun əlində diplom olacaq.

Bəhi əsgərlikdən gələn ili ali məktəbə sənəd vermədi, çünki həm gec idi, həm də aradan keçən müddətdə hazırlıqda öyrəndiklərini də unutmuşdu. Ailəliklə qərara aldılar ki, o, bir il hazırlığa getsin və yenidən imtahan versin. Üstəlik də əlavə tədbirlərin köməyi ilə onu bir yerə yerləşdirmək olar. Bununla da kənddəki bəzi ağzıgöyçəklərin səsini xırp kəsilər.

Növbəti il Bəhi test imtahanında cəmi 72 bal yığdı. Bu bal camaatın hələ də texnikum adlandırdığı kolleclərə düşməyə də kifayət etmirdi. Amma bu dəfə nə Bəhi, nə Novruz, nə də ki, Güldəstə asan təslim olmaq fikrində deyildilər. Novruz öyrəndi ki, 4-5 min manat verməklə uşağı Sabunçuda yerləşən hansısa texnikuma düzəltmək olar. Üstəlik, o da məlum oldu ki, qonşu kənddən Əmirastan kişinin oğlu Kamal da orada dərs deyir. Araya adam salıb Kamalı tapdılar və görüşüb məsələni həll etdilər.

Bəhinin texnikuma qəbulu təsdiqlənən gündən Novruz kənddə qalib ədası ilə gəzirdi. O, Bəhinin oxuduğu kollecin, öyrənəcəyi ixtisasın adını belə bilmirdi. Əsas məsələ o idi ki, oğlu artıq tələbə idi və bir neçə ildən sonra "ali sovetdi" adam kimi kəndə qayıdacaqdı. Güldəstənin də kefi lap kök idi. Əllərində olanı gədənin qəbuluna verdikləri heç vecinə də deyildi. O da vecinə deyidi ki, Bəhi "adam yarannığı" yox, başqa sənəti öyrənəcəkdi. Soruşanlara deyirdi ki, anası ölmüş oxuyub qurtarandan sonra "tamojnı"da işləyəcək.

Bəhinin bu analoqu olmayan uğuru Novruzla Güldəstəni sanki qanadlandırmışdı. Onu təcili evləndirmək haqqında fikirləşməyə başladılar. Sanki harasa tələsirdilər, elə bilirdilər ki, Bəhi ilə bağlı bütün arzularının gerçəkləşdirilməsi vaxtı məhz indidir. Amma bir problemləri yaranmışdı. Bəhini "texnikum"a düzəltmək üçün lazım olan məbləği güc-bəla ilə topladıqlarından söz verdikləri kimi ona yaxşı paltar və bahalı telefon almağa imkan qalmamışdı. Bəhini inandırdılar ki, dərslər başlayandan uzağı bir aya ər-arvad onun yanına gələcəklər, istədiyi paltarı və telefonu alacaqlar. Hələ üstəlik daha vacib bir məsələni də məsləhətləşərək həll edəcəklər.

Dedikləri kimi də elədilər, təxminən bir aydan sonra Novruzla Güldəstə Bakıya Bəhinin yanına gəldilər. Onlar ötən bir ay ərzində bir az "Belarus"un, bir az da dost-tanışın hesabına pul tədarük edə bilmişdilər. Bəhi öz kəndlərindən BDU-nun dördüncü kursunda oxuyan Məzahirlə bir mənzildə qalırdı və kirə pulunu da yarıbayarı ödəməyə hələ kənddə ikən razılaşdırmışdılar. O, ata-anasını qarşılayandan sonra onlara birinci sualı özləri ilə nə qədər pul gətirmələri haqda oldu. Çünki bu bir ay ərzində dayanmadan dükanları gəzərək özünə paltar və telefon seçməklə məşğul olmuşdu. Artıq o, alacağı paltarı, telefonu və gərək olan pulun miqdarını müəyyənləşdirmişdi. Məlum oldu ki, Novruzgilin gətirdiyi pullar Bəhinin istəklərinə yetməyəcək. Ələlxüsus da ona görə ki, o, çox bahalı telefon gözaltı eləmişdi. Bütün pullar telefona güclə çatardı. Bundan sonra paltara və cib xərcliyinə pul qalmırdı. Ər-arvad onu dilə tutdular ki, hələlik paltarı alsınlar, kəndə qayıdan kimi pulun üstünü düzəldib göndərəcəklər. Çünki onlar telefonun bu qədər baha olacağını düşünmürlərmiş. İnsaf naminə Bəhi tərslik etmədi, valideynlərinin təklifi ilə razılaşdı. Köhnə telefonla bir az da keçinmək olardı, təki sonunda istədiyi telefona qovuşa bilsin.

Məzahirin ailəvi telefon müzakirəsinə qarışması bu məsələnin lap göydəndüşmə sərfəli həll variantını ortaya qoydu. O dedi ki, yaxın dostu rayonda telefon dükanı işlədir. Malı özü şəxsən gedib xaricdən gətirdiyindən qiymətləri Bakıdakından ucuzdur. Üstəlik, elə indicə ona zəng edib tapşıra bilər ki, onlara mümkün qədər ucuz qiymətə, həm də nisyə telefon versin. Məzahirin bu son dərəcə sərfəli təklifinə üçü də dərhal razı oldular. Onların ürəkdən sevindiklərini görən Məzahir xüsusi bir ədayla telefonunu çıxarıb dostunun nömrəsini yığdı. Lakin ona zəng çatmadı. O, qısa fasilələrlə dostunu bir neçə dəfə yığdı. Lakin zəng çatmırdı. Məzahir dedi ki, ola bilsin ki, dostu yenə xaricə mal dalınca gedib, heç narahat olmayın, rayona qayıdanda dükana gedərsiniz və oradan mənə zəng edərsiniz. Məsələni elə yerindəcə həll edəcəyəm.

Bütün xırda problemləri yoluna qoymuş Novruzla Güldəstə əsas məsələnin üstünə gəlməyin əsl məqamı olduğunu düşündülər. Qılıq, xahiş və yalvarış dolu bir səslə Bəhini dilə tutmağa başladılar. Məzahir onların arasında xısınlaşma başladığını görüb qonşu otağa keçdi. Bu təklifdən Bəhi təəccüblənib eləmədi. Çünki əvvəllər də anası ona bir-iki dəfə eyham vurmuşdu. Bəhinin özünün dəlicəsinə sevdiyi bir qız yox idi. Sadəcə olaraq, qruplarındakı bir qızdan xoşu gəlməyə başlamışdı. Əslində qızın onu bəyənəcəyinə heç bir inamı yox idi. Ona görə də hələ evlənmək fikrində olmadığını çox qətiyyətlə dedi. Güldəstə isə ona yalvara-yalvara deyirdi: "A qavağında ölüm, gəl sənə Hasanın qızı Gülcöhrüyü istəyək, əgər alınmasa, nəm-nüm eləsələr, onda Nüyvərin qızı Sonuyu alax. Elçi göndərsək verərlər, bizdən artığına verməyəjəklər ki?!" Bəhi yenə də yox deyib durmuşdu. O, kənddən evlənməyə məcbur olsaydı bəlkə də Gülçöhrəyə birtəhər razı olardı, amma Sonanı heç cür qəbul edə bilməzdi. Onu qətiyyən bəyənmirdi, hətta zəhləsi gedirdi. Novruzla Güldəstə də Gülcöhrəni daha üstün tuturdular, amma onu verəcəklərinə o qədər də inanmırdılar. Onların Bəhiyə evlənməyin vacib olduğunu başa salmaq üçün istifadə etdikləri bütün arqumentlər boşa çıxdı. Gədə "hələ evlənmirəm, gedin telefonu göndərin, sonrasına baxaram"dan başqa cavab vermirdi. Ər-arvad əsəbiləşirdilər. Axı bu gədə niyə narazılıq eləməliydi ki? Bu gün-sabah "ali sovetdi" adam olacaqdı, üstəlik də onun istədiyi hər şeyi almışdılar və alacaqdılar. Onlar getdikcə səslərini qaldırır, Bəhiyə daha çox təzyiq edirdilər. Onların Bəhini məhz bugünlərdə evləndirməkdə israrlı olmalarının bir səbəbi də Gülcöhrənin və Sonanın əldən çıxmaq təhlükəsi idi. Onların hər iksinin kənddə bir neçə yerdən gözaltı edildiklərini bilirdilər. Hər dəqiqənin bir hökmü var, hətta elə ola bilərdi ki, Bəhi razılıq vermiş olsaydı belə geri kəndə dönənə qədər qızları başqaları nişanlaya bilərdilər. Bəhi də ki, tərsin biri idi. Güldəstə lap hirslənmişdi, onun əsəbi halda "a toyun qara gəlsin, niyə evlənmirsən?" deməsi də Bəhini fikrindən döndərə bilmədi.

Novruzgil pərt halda yola düşməyə hazırlaşanda Bəhi nəzərdə tutduğu "Nokia"nın modelini yazıb dədəsinə verdi və tapşırdı ki, gedən kimi Məzahirin dostunun dükanına getsin və oradan ona zəng etsin. Ər-arvad evdən çıxanda bir daha elçilik barədə Bəhiyə eyham vurdular ki, bəlkə son anda fikrini dəyişmiş olar. Onun cavabı belə oldu: "Gözdüyürəm ha, mənim "Nokia"mı göndərin!"

Bəhi ertəsi günü dərsə gedəndə tezliklə ona göndəriləcək "Nokia" haqqında tələbə dostlarına məlumat verməyi unutmadı. Oğlanlar onun başına yığılıb alacağı telefonu müzakirə etməyə başladılar. Müzakirənin sonunda Bəhini inandırdılar ki, o, çox nahaq "Nokia"nı seçib. İndi LG-nin yaxşı modeli çıxıb, çox əla telefondur və həm də dəbdədir. O da olmasa, "Sony" almaq daha yaxşı olardı.

Bəhi tələbə dostları ilə apardığı müzakirədən dərhal sonra atasına zəng etdi. Novruz oğlunun səsini eşidib çox sevindi. Fikirləşdi ki, yəqin oğlu fikrini dəyişib, evlənməyə razıdı. Bəhinin səsi qırıq-qırıq gəlirdi. Çünki dalğa yaxşı tutmurdu. Novruz bir-iki dəfə "qadan alım, qanammıram, bir də de" deyə təkrarladı. Bəhi isə xəttin o başından fasiləsiz olaraq qışqırırdı: "ELCİ göndər, ELCİ! Əgər alınmasa SONİ olsun". Axır ki, Novruz Bəhinin nə dediyini anladı və sevincək bir neçə dəfə "qandım, ağrın alım, qandım" deyib telefonu qapatdı. Novruzun sevincinin həddi-hüdudu yox idi. O, hardan biləydi ki, dünyada məşhur "LG" markası var. O da "elci" kimi tələffüz edilir, bir də ki, hələ "Sony" adlı yapon markası da mövcuddur. O, Bəhinin dediklərini belə başa düşmüşdü: "Təcili elçi göndərin, verməsələr, Sonaya da raziyam".

Novruz evə uça-uça gəldi. Güldəstəni muştuluqladı. Güldəstə də onunla razılaşdı ki, elə bu axşam elçi getməlidirlər, birdən gədə fikrini dəyişə bilərdi. Elçiliyə kimləri aparmaq barəsində nə baş sındırmağa, nə də mübahisə etməyə ehtiyac qalmadı. Çünki əvvəllər də bu məsələni müzakirə edib elçi komandasının tərkibi haqda konsensusa gəlmişdilər. Bircə onu razılaşdılar ki, Gülçöhrəni verməsələr, elə ertəsi günü həmin tərkibdə elçilərlə Sonagilin qapısını döysünlər. Bu razılığın meydana gəlməsi ona görə zəruri olmuşdu ki, Novruzgil Gülcöhrəni Bəhiyə verəcəklərinə o qədər də inanmırdılar. Birinci elçilik əsasən "birdən də alınar" fəlsəfəsinə əsaslanırdı.

***

Hər şey Novruzgilin güman etdiyi kimi oldu. Gülcöhrəni Bəhiyə vermədilər. Lakin ertəsi gün elçilər elə ilk cəhddəcə Sonanın "hə"sini aldılar. Ər-arvad çox sevinirdilər, onlar çox xoşbəxt idilər. O qədər xoşbəxt ki, hətta Məzahirin dükanına gedib Bəhinin istədiyi telefonu almalı olduqlarını da yaddan çıxartmışdılar. Amma elçilikdən çıxan kimi Bəhiyə zəng edib onu təbrik etmək yaddan çıxmamışdı. Elçilər Nüyvərin evindən çıxanda saat gecə 11-ə işləyirdi. Bəhiyə də təbrik zəngi bu vaxt gəldi. Güldəstənin "a qavağında ölüm, bax elə indijə sənə Sonuyu aldıx, oradan gəlirik" şəklində muştuluq zəngi Bəhiyə onun qruplarında oxuyan gözaltı etdiyi qıza sevgi mesajı yazdığı vaxt gəldi. Ata-anasının evlənmək təkidi onu birdən-birə həvəsləndirmişdi, həm də cürətləndirmişdi. Qızın telefon nömrəsini də elə bu gün öyrənə bilmişdi. Ona görə də söhbəti çox uzatmayaraq təşəkkür edib danışığı kəsdi. Mesajın arxasını yaza-yaza düşünürdü: görəsən, Məzahirin dostunun telefon dükanı saat neçəyə kimi işləyirmiş və valideynləri rayon mərkəzinə niyə gec gediblərmiş...

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# "Ermənilər Rusiyanın nə vaxt çökəcəyini bilmir"

## Sabiq dövlət müşavirindən "Stratfor"un Ermənistan-Rusiya münasibətləri ilə bağlı proqnozuna ilginc şərh; Vəfa Quluzadə: "Onlar bu dəqiqə də boğaza yığılıblar, Rusiyadan ayrılmaq istəyirlər"

**Ermənistanın Avrasiya İqtisadi Birliyinə üzvlüyünü rəsmiləşdirməsindən sonra İrəvanla Moskvanın münasibətlərində illərdir müşahidə olunan isti münasibətlər, hətta Sərkisyan rejiminin Rusiya qarşısında müti münasibətlərinin yerini "soyuq müharibə"nin əlamətləri tutmaqdadır. Xüsusilə də Gümrüdəki 102 saylı Rusiya hərbi bazasının əsgərinin bir erməni ailəsini məhv etməsindən sonra erməni cəmiyyətində anti-Rusiya dalğası daha sərt formada müşahidə olunur.**




### "Qarabağ və Ermənistan erməniləri arasındakı ziddiyyətin də kökü Moskvadadır, bu ziddiyyət dərinləşəcək..."

Əgər əvvəllər Ermənistanın Rusiya əsarətindən xilasını ermənilərin nicat yolu kimi görən tək-tək ermənilər təqib olunurdusa, artıq indi bu kimi düşünənlərin, küçə və meydanlara çıxanların, hətta Rusiya bayrağını ayaqlar altına atanların sayı-hesabı bilinmir. Ermənilər ölkələrinin sürətlə fəlakətə sürüklənməsinin, qonşuları ilə sərt konfrontasiya şəraitində yaşamalarının da baiskarı kimi artıq Rusiyanı ünvan kimi göstərməkdən çəkinmirlər. İşğalçı ölkəni Sərkisyan rejimi dövründə 330 mindən artıq erməni tərk edib. Üstəlik, ölkədə işsizlik də rekord həddə çatıb. 2014-cü ildə Ermənistanda işsizlərin sayı 2013-cü illə müqayisədə 18 faiz artıb. Bu barədə ölkənin Əmək və Sosial İşlər Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin rəisi Ardak Manqasaryan məlumat verib. O bildirib ki, Ermənistanda işsizlərin yaş qrupları arasında 16-29 yaşlı şəxslər 23,7 faiz, 30-44 yaşlı şəxslərdə 21,4 faiz təşkil edir.

Ermənilər də anlayır ki, Rusiyanın Ermənistanı zaman-zaman müflisləşdirməsinin və ermənilərə sadəcə ağanın rəiyyəti kimi yanaşmasının məntiqi nəticəsidir ki, ölkə sürətlə iflasa gedir. Bu da Ermənistanda anti-Rusiya etirazlarını artırır.

Bugünlərdə ABŞ-ın özəl kəşfiyyat-analitik mərkəzi olan "Stratfor"un hazırladığı hesabatda da Ermənistanın Rusiya ilə münasibətlərinə xüsusi yer ayrılıb. Hesabatda deyilir ki, Moskvanın postsovet məkanında iki sadiq müttəfiqi - Belarus və Ermənistan Moskva ilə münasibətlərinə onun Qərblə qarşıdurması kontekstində yenidən baxa bilərlər. Mərkəzin analitikləri bu xüsusda Belarus prezidenti Aleksandr Lukaşenkonun yanvarın 29-da "əldə olunan razılaşmalara əməl edilməyəcəyi təqdirdə ölkəsinin Moskvanın başçılıq elədiyi Avrasiya İqtisadi Birliyindən çıxa biləcəyini istisna eləməməsi" barədə açıqlamasını xatırladır. "Ermənistan isə Rusiyanın həlledici rol oynadığı, Azərbaycanla Dağlıq Qarabağa görə ixtilaf səbəbindən getdikcə daha böyük çətinliklərlə üzləşməkdədir" - hesabatda bildirilir.

**Ekspertlərin fikrincə, İrəvan və Minsk böyük ehtimalla, Rusiya ilə strateji oriyentasiyanı davam etdirəcək, ancaq Moskva ilə Qərb arasında mübarizənin gedişatından asılı olaraq daim öz mövqelərinə təzədən baxacaqlar. Analitiklər Ukrayna böhranının Qarabağ münaqişəsinə də təsir göstərdiyini qeyd ediblər:** "Bütün təmas xətti boyu gərginlik artıb. 2014-cü ilin noyabrında isə erməni hərbi vertolyotu Azərbaycan Silahlı Qüvvələri tərəfindən vurulub... Lakin Rusiya indi daha çox Ukrayna ilə məşğuldur. Üstəlik, erməni vertolyotunun vurulmasına Moskva zəif reaksiya verib. Bu və digər amillər İrəvana imkan verir ki, özünə sual eləsin: Rusiya nə dərəcədə onun təhlükəsizlik qarantı olmağa sadiqdir?"

Hesabatda Ermənistanla bağlı gəlinən qənaət belədir ki, "Ermənistan Rusiya ilə münasibətlərinə yenidən baxa bilər ki, bundan da Qərbin və Türkiyənin istifadə edəcəyi istisna deyil". Bununla belə, sənəd müəlliflərinə görə, İrəvan hələ ki Moskva ilə münasibətlərdə ehtiyatlı olacaq ki, Rusiyadan çox uzaq da düşməsin.

**Mərkəzin hesabatını şərh edən sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə "Yeni Müsavat"a açıqlamasında bunları söylədi:** "Məndə artıq belə şübhə yaranıb ki, Amerikanın müxtəlif beyin mərkəzləri məndən plagiat edir. Mən çoxdan Ermənistanın Rusiyadan üz döndərəcəyi haqqında dəfələrlə demişəm. Rusiyanın Ermənistana qarşı siyasəti ümumiyyətlə, erməni xalqını və erməni ictimaiyyətini narazı salır. Səbəb də budur ki, Rusiyanın siyasətinə görə, Ermənistan qonşuları ilə əlaqələrindən məhrumdur. Ermənistanın Türkiyə, Azərbaycanla əlaqələrə böyük ehtiyacı var. Üstəgəl, Ermənistan müharibə vəziyyətindən çıxmaq istəyir. Azərbaycanı bir kənara qoyaq, Ermənistan nə qədər müharibə vəziyyətində qala bilər? Artıq 20 ildən çoxdur ki, Ermənistan müharibə vəziyyətindədir, ermənilər 20 ildən çoxdur ki, Rusiyanın rəhbərliyi altında atəşkəs rejiminin pozulması təhdidi altındadırlar. Yaxşı, bu atəşkəs xəttindəki pozuntular ermənilərə nə fayda verir? Düzdür, kasıb Ermənistanın silah-sursatı Rusiyadan havayı gəlir. Ona görə Azərbaycana atılan bütün mərmilər, güllələr Rusiyadan pulsuz gəlir. Sözsüz ki, ermənilər narazıdırlar. Ermənilər istərdilər ki, Rusiya Azərbaycanla Ermənistan arasında sülhə nail olsun, ancaq bu sülh Ermənistanın xeyrinə imzalansın. Ermənilərin gözləntisi budur ki,



siz bizə qələbə çalmağa kömək etmisiniz, gəlib Azərbaycan torpağının 20 faizini işğal etmişik, ancaq gərək bu işğal, bu müharibə sülhlə bitsin. Gərək Rusiya Dağlıq Qarabağı, üstəlik, Kəlbəcər və Laçını Ermənistana vermək üçün Azərbaycanı razı salsın. Həmçinin, ətraf 7 rayonda da Rusiyanın qoşunları yerləşdirilsin ki, Ermənistan hansısa şübhəyə düşməsin. Yəni heç olmasa bu variant olsun, Azərbaycan və dünya da bunu qəbul etsin. Lakin artıq ermənilərin qafalarına işləyib ki, bu, mümkün olmayan məsələdir. Eyni zamanda bu vəziyyət Rusiyanın tamamilə çökməsinə qədər davam edən prosesdir. Lakin ermənilər Rusiyanın nə vaxt çökəcəyini bilmir. Onlar bu dəqiqə də boğaza yığılıblar, Rusiyadan ayrılmaq istəyirlər. Elə ona görə də rus əsgəri Permyakovun Gümrüdə törətdiyi cinayət Rusiya əleyhinə böyük əhval-ruhiyyəyə səbəb olub və bu, indi də davam edir".

**Politoloq dedi ki, ermənilərin vəziyyəti acınacaqlıdır:** "Ona görə də Ermənistan Rusiyadan ayrılmalıdır ki, xoş günə çıxsın". Bununla belə, hazırkı ağır durumda belə ermənilərin Qarabağ məsələsi ilə bağlı normal mövqe sərgiləməməsinə gəldikdə, analitik məsələni aşağıdakı kimi şərh etdi: "Ermənistanın siyasi elitası tamamilə Moskva tərəfindən formalaşdırılıb. Ermənistanın bütün siyasi mövqeləri Lavrovun oturduğu binadan formalaşdırılıb. Mən xarici siyasət üzrə dövlət müşaviri olduğum zaman bunların şahidi oldum. Ermənistanın bütün mövqelərini onda Kazimirov formalaşdırırdı. İndi də həmin vəziyyətdir, Ermənistanın Qarabağ məsələsində mövqeyi Moskvadan gəlir".

**Sabiq müşavir Qarabağ və Ermənistan erməniləri arasında yaşanan gərginliyi, Ermənistandan Qarabağa yürüş edilməsini, toqquşmaların baş verməsini də Rusiya ilə əlaqələndirir:** "Burda da Rusiyanın siyasəti öz sözünü deyir. Qarabağın "ordusunu" Rusiya hazırlayıb. Bunu Heydər Əliyevin hüzurunda Primakov şəxsən mənim yanımda deyib. Hətta iddia edib ki, "bu dəqiqə Dağlıq Qarabağın 40 minlik ordusu var, bu, Avropada ən güclü ordudur". Onlar bu "ordu"nu İrəvanın əleyhinə yaradıblar. Nə vaxt ki, İrəvan Moskvanın sözündən çıxmaq istəyəcək, onda Qarabağdakı bu silahlıları onlara qarşı yönəltmək istəyəcəklər. Necə oldu ki, Levon Ter-Petrosyan kimi intellektual, cəmiyyətdə ciddi dəstəyə malik olan bir adamı kənara atdılar, Qarabağ ermənisini, Azərbaycan vətəndaşı olan Robert Köçəryanı, sonra da Sərkisyanı hakimiyyətə gətirdilər? Bu da həmin ssenaridir. Ona görə bu gün Qarabağ və Ermənistan erməniləri arasındakı ziddiyyətin kökü də Moskvadadır. Bu ziddiyyət getdikcə dərinləşəcək. Rusiya zəiflədikcə Rusiyanın yumruğu altında olanlar baş qaldıracaq, bu, Ermənistana da aiddir, Azərbaycana da. Faktiki olaraq biz də - Ermənistandan bir az az - Rusiyanın yumruğu altındayıq".

**Həmsədrlərin yenidən fəallaşmaq cəhdlərinə gəldikdə, politoloq deyir ki, həmsədrlərin fəaliyyətinə qarşı çıxmağa lüzum yoxdur:** "Onlar öz işini davam etdirməlidir. Ancaq Qarabağ məsələsində irəliləyişə nail olmaq üçün gərək öncə Ukraynada Rusiyanın məsələsi həll olunsun. Ukrayna böhranı Rusiya üçün böyük bir məhək daşıdır. Görək Rusiya bu sınaqdan çıxa biləcəkmi?" V.Quluzadə Ermənistanın AŞ PA-da Rusiyanın mövqeyinə zidd mövqe tutmasının arxasında da Moskvanın ağır günlər yaşaması amilinin dayandığına şübhə etmir.

# Müdafiə nazirindən Ermənistana və xunta rejiminə xəbərdarlıq

## Zakir Həsənov: "Son zamanlar düşmən daha da azğınlaşıb, onlar bilməlidirlər ki..."

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən keçirilən təlimlərin növbəti mərhələsində müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərə cəlb edilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb. Bu barədə Müdafiə Nazirliyinin saytında məlumat verilib.**



Bildirilir ki, nazir ehtiyatdan çağırılan şəxsi heyətə Vətən və xalq qarşısında məsuliyyətlərinə diqqət çəkərək təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib.

**Nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər:** "Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bu gün də davam edir. Silahlı Qüvvələrimiz bütün imkanlardan istifadə etməklə düşməni işğal olunmuş torpaqlarımızdan çıxarmağa qadirdir. Son zamanlar düşmən daha da azğınlaşıb. Amma Ermənistandakı hərbi xuntanın rəhbərləri bilməlidirlər ki, Azərbaycan Ordusu və Azərbaycan əsgəri onların layiqli cavabını verir və bundan sonra da verəcək. Qısa bir müddət ərzində 20-dən çox işğalçı məhv edilib. Düşmənin onlarla yaralısı var.

Silahlı Qüvvələrimiz də vətən uğrunda şəhid verib. Biz onların yaxınlarına və əzizlərinə başsağlığı veririk. Xalqımız bilməlidir ki, şəhidlərin qisası birə on qat alınıb və bundan sonra da belə olacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Müdafiə Nazirliyi rəsmisinin dedikləri ajiotaj yaratdı

## Zeynal Məmmədli: "Cəmiyyətdə vətənpərvərlik axını varsa, media bunu işıqlandırmalıdır, yoxdursa..."

**"Bəzi özəl televiziya və radio kanalları gəncləri işğal altında olan torpaqların təəssübünü çəkməyə yox, barlara çağırır". Bunu Müdafiə Nazirliyinin Mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi, polkovnik Rüfət Əmirov deyib.**
**Onun sözlərinə görə, əsgərlərin hərbi xidmətlə bağlı məruz qaldıqları ən amansız psixoloji təsir mülki həyatdan və KİV-lərin ordu həyatı, hərbi xidmət barədə yaydıqları yalanlardan irəli gəlir.**

Bir sıra hallarda bəzi qüvvələrin ordu ilə cəmiyyət arasında uçurum yaratmaq, ordunun imicini ləkələmək üçün çalışdıqlarını qeyd edən nazirlik rəsmisi özəl TV və radio kanallarını tənqid edib: "Bəzi özəl televiziya və radio kanalları gəncləri işğal altında olan torpaqların təəssübünü çəkməyə yox, restoranlara, barlara çağırır. Mənasız, bayağı şoular təşkil edərək kosmopolit düşüncə və əxlaq tərzini təbliğ edirlər".

Bu açıqlama zaman-zaman medianın insanları yanlış yönləndirməsi ilə bağlı aparılan söhbətləri möhkəmləndirdi. "Öncə toyuq yaranıb, yoxsa cücə" polemikasında olduğu kimi, burada da müzakirə haçalanıb. Belə ki, ölkədə vətənpərvərlik ruhunun olmadığını deyən telekanallar reytinq və reklam qazanmaq üçün çarəni daha çox əyləncə verilişlərində görürlər. Ona görə də günün istənilən saatında kanallarda evləndirmə, yemək, əyləncə, ailə-məişət xarakterli verilişlər, tok-şoular seyr etmək mümkündür.

Bu verilişlərə baxa-baxa etiraz edənlər də az deyil. İnsanlarımızda imtina mədəniyyətinin olmaması çox zaman kanallara bu cür "əl-qol atmağa" imkan verir.

Bəs nazirlik nümayəndəsinin dediklərində bir həqiqət varmı? Həqiqətən də gənclərin əhvalının, dünyagörüşünün pozulmasında, daha dəqiq desək, onların barlara yönləndirilməsində kanallar müstəsna rol oynayır?



"Yeni Müsavat" ənənəvi olaraq bu mövzu ilə bağlı sorğu keçirmək üçün telekanallara müraciət etsə də, suallarımıza cavab verən tapılmadı. Və bu, artıq dəfələrlə təkrarlanır. Telekanallarda həmkarlarının - çap mediasının suallarını cavablayacaq adekvat şəxs ya olmur, ya da olsa belə cavab vermək istəyən tapılmır.

**Media eksperti Zeynal Məmmədli isə bizə açıqlamasında bildirdi ki, əgər cəmiyyətdə vətənpərvərlik axını varsa, media bunu təqdim etməlidir. Onun sözlərinə görə, mass-medianın missiyası cəmiyyətdə baş verənləri işıqlandırmaqdır:** "Əks halda, təbliğat vasitəsinə çevrilərlər ki, bu da onların missiyasına uyğun deyil.

O qurumlar vətənpərvərliyin təbliğatı ilə ciddi, yaradıcı şəkildə məşğul olmalıdılar. Bunu niyə bizdən umurlar ki? Özləri işıqlandırsınlar, media da bunu məlumat kimi yaysın. Məsələnin kökündə medianın azadlığı, sərbəstliyi dayanır. Bunlar olmayanda hansısa aparıcı verilişində vətən sevgisini ön plana çəkə də bilər. Amma bu şəkildə vətənpərvərlik də sünidir".

**Bununla yanaşı, Z.Məmmədli hesab edir ki, Müdafiə Nazirliyi rəsmisinin "bəzi özəl televiziya və radio kanalları gəncləri işğal altında olan torpaqların təəssübünü çəkməyə yox, barlara çağırır" sözlərində həqiqət var. Müsahibimiz bunu bir jurnalist kimi yox, onunla empati quran bir şəxs kimi dediyini vurğuladı:** "Özümü onun yerinə qoyuram. Görürəm ki, hər gün efirdə toy-bayram, "beş günlük dünyadı, yaşa, maşın al, ev al, yaşa" əhvalı var. Bu günah gözgünün günahı deyil ki. Orda həyat əks olunur. Sadəcə olaraq, gözgünü yox, özünü dəyişməlisən".

❑ **Sevinc TELMANQIZI**



# 14 saylı "zon"da gərginlik davam edir

## Məhkumlardan zorla ifadələr alınır; "tubzon"da saxlanılan hicab məhbusu işgəncələrə məruz qalıb

**14 saylı cəzaçəkmə müəssisəsində məhbusların qiyamından ay yarım vaxt ötür. Bu müddət ərzində müəssisə əməkdaşları tərəfindən fiziki işgəncələrə məruz qalaraq öldürülən məhbus Elşad Babayevin məsələsi isə demək olar ki, qapadılıb.**

Məhkumların yaxınları iddia edir ki, üsyanda iştirak edən və etməyən bütün məhbuslara qarşı kütləvi şəkildə işgəncələr hələ də davam edir. Cinayət işini ört-basdır etmək üçün məhkumlardan zorla ifadələr alınır. İfadə verməyənlər ya incidilir, ya da vərəmli xəstələr üçün nəzərdə tutulan və "tubzon" adlandırılan 3 saylı müəssisəyə köçürülüblər.

**"Tubzon"da saxlanılan hicab məhbusu Araz Quliyevin qardaşı Anar Quliyev musavat.com-a açıqlamasında son durumla bağlı bunları dedi:** ""Tubzon"a aparılandan sonra heç bir yenilik yoxdur. Hazırda orada əvvəlki qaydada saxlanılır. Görüşə icazə verilmir. Vəkil bir dəfə görüşüb. Hadisədən sonra qohum-əqrəbanın təkidi ilə bir dəfə görüşmüşük. Mətbuata bu barədə açıqlama vermişik. Əlaqə saxlamaq mümkün deyil. Telefonla danışacağını deyirlər. Amma hələ də danışmayıb. Görüşdə biz hər şeyin şahidi olduq. 6 nəfər nəzarətçi başının üzərində dayanmışdı. Hiss olunurdu ki, heç nə deməməsi barədə tapşırıq verilib. Sorğu-sualımıza cavab vermirdi. Qısa danışırdı. Vəziyyəti o qədər pis idi ki, özünü oturduğu stulda zorla saxlayırdı. Çox arıqlayıb. Görüşümüz cəmi yarım saat çəkdi. Hadisənin üstündən xeyli vaxt keçib. Bu müddətdə yalnız bir dəfə görüşmək çox şeydən xəbər verir. Hiss edirik ki, nəsə gizlədilir".

**14 saylı cəzaçəkmə müəssisəsində saxlanılan digər məhbus, Müsavat başqanının müavini Yadigar Sadıqov tibb müəssisəsinə köçürülüb. Başqan müavininin Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah qiyamdan sonra müəssisə daxilindəki vəziyyətdən danışdı:** "Yadigar Sadıqov Penitensiar Xidmətin müalicə müəssisəsinə köçürülüb. Məlum hadisədən sonra onunla görüşmüşəm. Yadigar bəy o proseslərdə hər hansı bir formada iştirak etməyib. Müşahidələri bundan ibarət olub ki, Elşad Babayevin öldürülməsindən sonra məhbuslar etiraz ediblər. Nəticədə müəyyən yerlər dağıdılıb. Ondan sonra müəssisə daxilində ümumi rejim sərtləşdirilib. Telefon danışıqları dayandırılıb. Məhbusların kameraları nəzarətə götürülüb. Başqa heç bir məlumat almaq mümkün olmayıb".

❑ **Cavanşir ABBASLI**

# SOCAR-dan gözlənilməz addım - səhmlər satışa çıxarıldı

## Ekspertlər bir neçə səbəb göstərir; "Bu, normal biznes addımıdır"...




**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) "Petkim"dəki sahib olduğu səhmlərin 3,4 faizini satışa çıxarıb. "Qafqazinfo" Türkiyə KİV-nə istinadən xəbər verir ki, SOCAR-ın toplam olaraq 34 milyon ədəd səhmini hər biri 4 TL-dən olmaqla "BCM Global Fund Ltd"ə satacağı deyilir. Satış işlərinə fevralın 5-dən başlanılması planlaşdırılır. APA isə bildirir ki, SOCAR Topdan Satışlar Bazarında "Petkim"də sahib olduğu hissələrdən 34 milyon ədəd səhmi bir ədədi 4 lirədən olmaqla "BCM Global Fund" şirkətinə satacaq. Əqdin dəyəri 136 mln. lirə (57 mln. dollara yaxın) təşkil edəcək. Səhmlərin satışı fevralın 5-də "Ünlü Menkul Değerler" şirkəti tərəfindən həyata keçiriləcək. Qeyd edək ki, bu xəbərdən sonra "Petkim"in səhmləri 2 bənd yüksəlmə ilə başlayaraq 3,67 faiz artımla 3,95 lirəyə yüksəlib.**

Xatırladaq ki, SOCAR Türkiyənin "Petkim Petrokimya Holding"in nəzarət səhm paketinin (61,32 faiz) sahibidir.

Ekspertlər isə SOCAR-ın səhmlərini satışa çıxarmasını müxtəlif cür qiymətləndirirlər. **İqtisadçı Natiq Cəfərlinin** musavat.com-a bildirdiyinə görə, bu addım SOCAR-ın öhdəliklərini yerinə yetirməyəcəyi təhlükəsindən atılıb: "Son proseslər onu göstərir ki, SOCAR-da olan problemlər, neftin qiymətinin enməsi və bu trendin uzunmüddətli davam etməsi ehtimalı yüksək olduğuna görə getdikdə problemlərin artması ehtimalı güclənir. Çünki SOCAR həm də ən böyük kredit alan təşkilatlardan biridir. SOCAR-ın təqribən 7 milyarda yaxın üst-üstə kredit borcu var. Bundan əlavə, daxildə də ən çox borc almış şirkətdir. Yəni ölkə daxilində Mərkəzi Bankın birbaşa kreditləşmə xəttindən istifadə edib, Beynəlxalq Bankın kredit xətlərindən istifadə edir. Yəni SOCAR-ın kredit yükü həddindən artıq yüksəkdir. Öhdəlikləri də çoxdur və SOCAR o öhdəlikləri götürərkən dünyada neftin qiymətləri çox yüksək, bir bareli 110-115 dollar civarında idi. Həmçinin qiymətin uzun müddət bu səviyyədə qalan zamanı idi. SOCAR çox güman ki, planlar qurarkən məhz bu qiymətlərin uzunmüddətli olacağı ehtimalından çıxış edərək üzərinə çox böyük öhdəliklər götürüb. SOCAR-ın bu öhdəlikləri yerinə yetirməsində indi problemlərin yaşanacağı ehtimalı yüksəkdir. Bu, neft qiymətləri ilə əlaqədardır. Ona görə də çox güman ki, bu prosesləri müəyyən dərəcədə az ağrılı keçirmək üçün SOCAR "Petkim"də olan öz payının bir hissəsini satışa çıxarmağa üstünlük verir. Əslində bu, normal biznes addımıdır. Dünyada baş verən trendlərin dəyişməsi ilə əlaqədar atılmış addımlardır. Sadəcə, arzu edərdik ki, bu tipli addımlar və bu tipli hərəkətlilik daha çox şəffaflıq şəraitində davam etsin və ictimaiyyət normal bilgiləndirilsin. Çünki SOCAR dövlət şirkətidir, buna görə ictimaiyyətə doğru-dürüst bilgi vermək öhdəliyi var. Çox istərdik ki, bu proseslər daha şəffaf şəkildə getsin və vətəndaşlar doğru məlumatlar ala bilsinlər".

**Ekspert Fikrət Yusifov isə bunu normal hal hesab edir:** "SOCAR-in "Petkim"dəki payı 61,32 faizə bərabərdir. SOCAR-a "Petkim" şirkətindəki nəzarət paketini təmin etmək üçün bu payın 51 faizini özündə saxlamaq kifayətdir. Hesab edirəm ki, bu payın 3,4 faizinin satılması elə bir narahatçılıq doğurmamalıdır. Heç şübhə yoxdur ki, payın 3,4 faizə bərabər bir hissəsinin satışı təşəbbüsü dünya bazarlarında neftin qiymətlərinin aşağı düşməsi nəticəsində Neft Şirkətinin gözlənilən gəlirlərinin azalması ilə bağlıdır. Daha real görünən odur ki, bu satışdan əldə ediləcək vəsaitlər maliyyələşməsi gündəmdə dayanan başqa layihələrin təmin edilməsinə istifadə ediləcək. Çünki SOCAR-ın pay iştirakı ilə reallaşdırılan digər beynəlxalq layihələr və həm də yerli layihələr mövcuddur. Şübhə yoxdur ki, SOCAR-ın rəhbərliyi bu addımı atmaq qərarını ona görə verib ki, icra edilən digər layihələrin maliyyələşməsində hər hansı bir fasilə yaranmasın. Bu prosesi bütövlükdə yaranmış vəziyyətdə normal hal hesab edirəm".

**İqtisadçı İlham Şaban isə bildirir ki, səhmlərin satışa çıxarılmasının maraqlı səbəbi var:** "Bunu araşdırmaq lazımdır. Çox düşünülmüş bir addım atıblar, səbəbi faizin kiçik olmasındadır".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 26 (6054) 5 fevral 2015

# Eyni xəstəxanada 3 ayda iki ana ölümü - çox deyilmi?..

**Fevralın 2-dən 3-nə keçən gecə Lənkəran Mərkəzi Rayon Xəstəxanasının doğum şöbəsində daha bir ana ölümü qeydə alınıb. İllərdir bu problem ətrafında danışılır, müzakirələr aparılır, mətbuatda məlumatlar dərc edilir. Ancaq yenə bu sahədə statistika həyəcanverici olaraq qalır.**

Məlumat üçün bildirək ki, Lənkərandakı faciəvi olay zamanı həyatını itirən 29 yaşlı qadının 3-cü hamiləliyi olub. Körpənin vəziyyəti qənaətbəxş olsa da, həmin körpə ana nəvazişindən, qayğısından ömürlük məhrum oldu. Qeyd edək ki, adıçəkilən xəstəxanada 24 oktyabr 2014 tarixində də ana ölümü baş verib. Maraqlıdır, doğuş zamanı ana və uşaq ölümlərinə son qoyulması üçün hansısa tədbirlər görülür və bunun səbəbləri araşdırılırmı?

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli Lənkəran rayonunda baş verən sonuncu ana ölümü ilə bağlı artıq araşdırma aparıldığını bildirdi:** "Artıq ölümlə bağlı sənədlər Səhiyyə Nazirliyinin Doğuşa Yardım Komissiyasına daxil olub. Ölənin cəsədi də tibbi ekspertizaya verilib. Mərhum Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çox ağır vəziyyətdə daxil olub. Həmin xanım Cəlilabad rayonundan olub. Onun evdə qanaxması başladığı üçün Lənkərana gətiriblər və dərhal əməliyyata başlayıblar. Əməliyyat nəticəsində uşağı xilas etmək mümkün olub, ancaq ana qan itirmədən dünyasını dəyişib. Həmin xəstəxanada 2014-cü ildə də ana ölümü baş vermişdi. Araşdırma aparılan zaman məlum olmuşdu ki, həmin qadının başında şiş olub. Həmin şişin fəsadlarına görə o hadisə baş vermişdi. Bu məsələ haqda da geniş araşdırma işi aparılıb. Bu hadisədə də həkimin səhvi olmayıb".

**A.Qədirli ümumilikdə ana və uşaq ölümlərinin sayının azaldığını bildirdi:** "Yəni hələlik artma müşahidə olunmur. Amma onu deyə bilərəm ki, baş verən ana və uşaq ölümlərinin çoxu patologiya ilə bağlıdır. Patologiyaların vaxtlı-vaxtında qarşısını almaq lazımdır. Hamilə qadınlar hamiləlikdən əvvəl səhhətləri ilə əlaqədar hansısa problemləri varsa, həkim nəzarətində olmalıdırlar".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla hamiləliyin 90 faizdən çoxunun patologiya ilə baş verdiyini dedi:** "Hər bir situasiya və ölüm faktı araşdırılmalı və səbəbləri tapılmalıdır. Bu araşdırmalar nəyinsə xatirinə, kiməsə görə formal olaraq yox, obyektiv şəkildə olmalıdır. Çünki burada məqsəd peşəkarlıqla və yaxud da proseslə bağlı olan səbəbləri ortaya çıxartmaqdır ki, həkimin səhvi ucbatından olan səbəblər öndədir, yoxsa digər səbəblər var? Çünki təcrübə göstərir ki, bu gün Azərbaycanda normal fizioloji standartlarla, parametrlərlə gedən hamiləliyə rast gəlinmir. Hamiləliyin 90 faizdən çoxu patologiya ilə baş verir. Buna döl suyunun bulanması, hansısa infeksiyanın olması və sairə patoloji səbəbləri misal gətirmək olar. Biz bu kimi halları müayinələrdə tez-tez görürük".



**Anar Qədirli:** "Qadın qan itirmədən dünyasını dəyişib, həkimin günahı yoxdur"



**Adil Qeybulla:** "Hamiləliyə qədər qadınlar mütləq yoxlanmalıdır"

**Qadınların hamiləliyə qədər müayinədən keçməsinin vacib olduğunu vurğulayan professor xroniki xəstəlik daşıyan qadınların hamiləliyinin böyük risk olduğunu bildirdi:** "Hamiləliyə qədər qadınlar mütləq yoxlanmalıdır. Qadınlar bəzən xroniki xəstəlikləri, böyrək çatışmazlıqları ola-ola hamilə qalırlar. Axı belə xəstə olan qadının hamilə qalması üçün tibbi göstəriş yoxdur. Təbii ki, bu artıq ilkin olaraq böyük risk yaradır. Hamiləliyin müəyyən mərhələsində isə böyrəklər tamamilə sıradan çıxa bilər. Bu da doğuşun özünü sual altında qoyur. Yəni dediyim odur ki, bizim bu vəziyyətdən çıxış yolumuz ayrı-ayrı həkimləri cəzalandırmaq və yaxud da süni şəkildə hansısa tədbirlər görməkdən ibarət olmalı deyil. Hər bir hadisə obyektiv araşdırılmalı, bunların məcmusu olaraq hansı səbəblərdən ana və uşaq ölümlərinin baş verdiyi araşdırılmalı və bundan sonra tədbir görülməlidir. Əgər peşəkarlıqla bağlı və yaxud da qadınların müayinəsi, diaqnostikası, doğuşu ilə bağlı problemlər varsa, orada korrektlər olmalıdır. Ən birincisi isə klinik protokollar tərtib olunmalıdır. Bu gün dünyanın hər yerində Ümumdünya Səhiyyə Təşkilatının klinik protokolları var. Hamilə qadınlar o klinik protokollara uyğun müayinə edilməlidir. UZİ-dən keçməli, hansı infeksiyalar yoxlanılmalı, hansı müayinələr olmalıdır deyə qeyd edilib. Bütün bunlara əməl olunsa, ölüm halları da aradan qalxar".

❑ **Günel MANAFLI**

# "Express kredit" bağlana bilər

## Mağazalar şəbəkəsində yüzlərlə müştəri aldadılıb, keyfiyyətsiz məhsul sırınıb, "Bank Standart" isə şikayətləri nəzərə alıb mağaza ilə əməkdaşlığı dayandırıb...

**Paytaxt sakinlərinin kreditlə məişət əşyaları və avadanlıqları almaq üçün üz tutduğu dükanlar keyfiyyətsiz məhsulları əhaliyə sırımaqla məşğuldur. Şəbəkə halında formalaşmış dükanlar vətəndaşı aldadaraq həm məhsulu dəyərindən dəfələrlə baha qiymətə satır, eyni zamanda aşağı keyfiyyətli məhsulu kredit adı altında cəlb edərək vətəndaşa kələk gəlirlər. Bu cür dükanlardan daha çox müraciət ediləni "Express kredit" mağazalar şəbəkəsi və "Maqnit"dən çoxsaylı şikayətlər var. Bildirilir ki, həmin dükanlar müştərilərini aldadır, keyfiyyətsiz mal və məhsulları satır, malların zəmanəti olsa da, sonradan geri qaytarmaq mümkün olmur. Nəticədə vətəndaşlar həm keyfiyyətsiz məhsul alır, həm də banka borclu qalırlar. Hazırda bununla bağlı paytaxt məhkəmələrində mülki işlər də var.**




**Paytaxt sakini Zülfiyyə Namazova** da onlardan biridir. O bildirir ki, 2008-ci ilin sentyabr ayında Nəsimi rayonunda yerləşən "Express kredit" dükanından mebel alıb və bir müddət sonra mebel sınıb: "Mebelin pulu 3 min manatdan çox idi. Aldıqdan bir ay sonra stulların ayağı sındı, bir qədər sonra da stol çatladı. Nəticədə 2009-cu ilin fevralından ödənişi dayandırdım və dükana zəng etdim, mebelin keyfiyyətsiz olduğunu bildirdim. Dörd ay, iyuna qədər direşdilər, sonra teleqram vurduqdan sonra gəlib mebeli apardılar. Mənə heç bir sənəd təqdim etmədilər. Ödədiyim pulu qaytarmadıqları üçün divan və kreslonu saxladım. Ancaq bir neçə ay sonra "Bank Standart"ın problemlər şöbəsindən zəng gəldi ki, saxladığım mallara görə borcum var və ödəməliyəm. Özüm rayonda olduğumdan, problemi araşdıra bilmədim və qohumum pulu ödədi. Üstündən bir neçə il keçəndən sonra- 2013-cü ilin yanvar ayında yenə bankdan zəng etdilər ki, borcum var. Bir neçə ilin faizi on min manata yaxın pul idi. Bununla bağlı banka, "Express kredit"in həmin dükanına, hətta baş ofisə getdim, məsələ aylarla davam etdi. Əvvəlcə heç mebeli qaytardığımı onlara sübut edə bilmədim, sonra da məni məhkəməyə verdilər. Nəsimi Məhkəməsi onların iddiasını təmin etdi və məni beş min manata yaxın cərimələdi. İndi apelyasiya şikayəti vermişəm, mühakimə gedir".




**Z.Namazova da deyir ki, həm məhkəmə prosesinin gedişində, həm də bankda və dükanlarda olarkən orada çoxsaylı şikayətlər eşidib:** "Hətta bankın və dükanın baş ofisinə gedəndə də çox sayda şikayətçi ilə görüşdüm. Nə qədər vətəndaşın başına belə oyun açıblar, telekanallar da bar-bar bağırır, reklam edir onları".

**Digər şikayətçi Nailə xanım da bildirir ki, "Maqnit" dükanından aldığı ütünü cəmi iki gün işlədə bilib:** "Apardım ki, dəyişdirəm, zəmanət olsa da, dəyişmədilər. Təmir üçün göndərdilər, getmədim, atdım ütünü".

Əldə etdiyimiz məlumata görə isə, "Express kredit" mağazalar şəbəkəsindən bu cür şikayətlər onlarladır. Mağazalar şəbəkəsinin birgə işlədiyi "Bank Standart"ın adının çəkilməsini istəməyən əməkdaşı da musavat.com-a bildirib ki, onlar hər gün bu şikayətçilərlə qarşılaşırlar: "Bu cür, yəni "Express kredit"in aldatdığı yüzlərlə vətəndaşla rastlaşırıq, hər gün onlarla insan bununla bağlı bizə müraciət edir".

Həmçinin əldə etdiyimiz məlumata görə, bank bu cür şikayətlərin çoxluğunu nəzərə alıb artıq "Express kredit" mağazalar şəbəkəsi ilə əməkdaşlığı dayandırıb. Nəticədə kredit sayəsində ixtisaslaşan mağazalar şəbəkəsi artıq fəaliyyətini dayandırmaq təhlükəsi ilə qarşı-qarşıyadır. Bu məlumata "Express kredit" və "Maqnit" dükanlarından rəy bildirmək istəmədilər. Həmçinin paytaxtın Nizami rayonu ərazisində baş çəkdiyimiz dükandan da məsələ ilə bağlı rəy öyrənə bilmədik. "Bank Standart"dan isə gün ərzində suallarımızı cavablandırmaq üçün səlahiyyətli şəxsi tapa bilmədiklərini söylədilər. Onların da mövqeyini işıqlandırmağa hazırıq. Məsələni diqqətdə saxlayacağıq.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**



# Vergilər Departamentinin ləğvi ilə bağlı rəsmi açıqlama

## "Ləğv edilmiş qurumların işçi heyəti tam şəkildə yeni yaradılan departamentdə işlə təmin olunub"

**"Ölkə iqtisadiyyatının dinamik inkişafı vergi inzibatçılığının da bu inkişafa adekvat olaraq təkmilləşdirilməsini zəruri etdiyindən, idarəetmə sisteminin səmərəliliyini artırmaq məqsədilə 2014-cü ilin sonunda Vergilər Nazirliyində müvafiq struktur dəyişiklikləri aparılmışdır".**

Bu barədə Vergilər Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda o da qeyd edilib ki, vergi orqanları tərəfindən nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğun təkmilləşdirilməsi, nazirliyin bir sıra strukturlarının fəaliyyətində təkrarçılıq hallarının aradan qaldırılması və onların fəaliyyətinin daha səmərəli təşkil olunması məqsədilə nazir Fazil Məmmədovun 26.12.2014-cü tarixli əmri ilə Vergilər Nazirliyi yanında Vergi Auditi Departamenti və Bakı Şəhər Vergilər Departamenti ləğv edilib. Həmin departamentlərin ştat vahidlərinin hesabına Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti yaradılıb, onun əsasnaməsi, tərkib quruluşu, ştat vahidlərinin sayı və bölgüsü təsdiq edilib. Ləğv edilmiş departamentlərin işçi heyəti tam şəkildə yeni yaradılan departamentdə işlə təmin olunub, bu zaman ixtisarlara yol verilməyib, əksinə, departament mövcud strukturların ştatları hesabına əlavə işçi heyəti ilə komplektləşdirilib. Əvvəllər Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin rəisi işləmiş, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Habil Məmmədov Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin rəisi vəzifəsinə keçirilib. Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2015-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturu"nda aparılan müvafiq dəyişikliklər təsdiq edilib. Məlumat üçün bildiririk ki, 46 ölkənin daxil olduğu Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (İOTA) məlumatına əsasən, vergi inzibatçılığı yüksək səviyyədə elektronlaşdırılmış Azərbaycan Respublikası Vergilər Nazirliyi topladığı vergilərin məbləğinə görə ən az sayda işçisi olan vergi orqanlarından biri olduğundan, yaxın gələcəkdə ölkənin vergi orqanlarında ştatların ixtisarı gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 26 (6054) 5 fevral 2015

# Hərbi həkim komissiyasının sədri rüşvət alarkən həbs edildi



**Baş Prokurorluq Sabirabad rayon Mərkəzi Xəstəxanasının baş həkiminin müavininin həbs edilməsi ilə bağlı məlumat yayıb. Qurumun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Sabirabad rayon sakininin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabirabad rayon şöbəsinin Hərbi-həkim komissiyasının sədrinin ondan rüşvət tələb etməsinə dair müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Müraciət üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində xidmətin Sabirabad rayon şöbəsinin hərbi-həkim komissiyasının sədri, Sabirabad rayon Mərkəzi Xəstəxanasının baş həkiminin müavini Rail Musayev xidməti vəzifəsinin icrası ilə əlaqədar rayon sakininin övladının hərbi xidmətə yararsız hesab olunmasına dair müvafiq tibbi sənədlərin rəsmiləşdirilməsi müqabilində özü üçün tələb etdiyi 500 manat məbləğində pulun 200 manatını 3 fevral 2015-ci il tarixdə xidməti otağında rüşvət kimi alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanan və R.Musayevə həmin maddədə nəzərdə tutulan ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Türməyə çörəyin içərisində telefon ötürmək istədi...



**Cəzaçəkmə müəssisəsinə telefon keçirilməsinin qarşısı alınıb. Bu barədə musavat.com-a Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Xəbərdə deyilir:**

"Ədliyyə Nazirliyinin Penitensiar Xidmət əməkdaşları tərəfindən həyata keçirilmiş axtarış-baxış tədbirləri nəticəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 177.3.2, 326.1, 326.2 və 66.3 maddələrinə əsasən 12 il müddətinə azadlıqdan məhrum edilmiş və hazırda 3 saylı İstintaq təcridxanasında saxlanılan məhkum Mübariz Çingiz oğlu Bağırovun yanına qısamüddətli görüşə gəlmiş dayısı, Ağdam rayon sakini Bakir Bəylər oğlu Hüseynovun üzərinə və gətirdiyi sovqata baxış keçirilən zaman 2 ədəd "Eti Mek" qurudulmuş çörəyin içərisində xüsusi üsulla sellofana bükülərək gizlədilmiş 2 ədəd qara rəngli "Nokia" markalı mobil telefon aparatı aşkar olunaraq götürülüb".

Fakt üzrə araşdırma aparılır.

❑ M.MAHRIZLI

## Azərbaycanlı musiqiçinin İranda konsert verməsi qadağan olundu

**Təbrizli müğənni Məsud Əmir Sepehrin İranda konsert verməsinə qadağa qoyulub. Bu barədə "Yeni Müsavat"ın əməkdaşına açıqlama verən müğənni bildirib ki, "Türkvizyon 2014" mahnı müsabiqəsində iştirak etdiyi üçün ona qarşı bu addım atılıb: "Müsabiqədə 25 ölkə arasında biz 8-ci yeri qazandıq. Vətənə geri döndükdən sonra bildirdilər ki, əmr verilib, bundan sonra səhnəyə çıxmaq, konsert vermək və rəsmi mərasimlərə qatılmaq mənə qadağan olunub.**

Qadağanın mahiyyətini tam anlaya bilmirəm. Hələ də başa düşə bilmirəm ki, hansı qeyri-qanuni hərəkətimə görə məni belə cəzalandırıblar".

Azərbaycanlı müğənni onu da qeyd etdi ki, qadağaya baxmayaraq yaradıcılığını davam etdirəcək:

"Bu günəcən mənə qarşı belə addım olmayıb. Lakin görünən budur ki, artıq İranda fəaliyyət göstərə bilməyəcəm. Olanlara baxmayaraq musiqi fəaliyyətimi dayandırmayacam, konsertlərimi Avropada, Bakıda və s. yerlərdə təşkil edəcəm".

Qeyd edək ki, ötən ilin noyabr ayında təbrizli müğənni Məsud Əmir Sepehrin rəhbərlik etdiyi "Barış" musiqi qrupu Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən "Türkvizion" müsabiqəsinə qatılıb. Müsabiqədə qrup "Heydər baba" adlı rock mahnısı ilə çıxış edib.

Məsud Əmir Sepeh onu da bildirdi ki, qadağa təmsil etdiyi "Barış" qrupuna qarşı deyil, yalnız onun özünə şamil edilib.

❑ Xalidə GƏRAY

## Maral Tahirqızı evini əxlaqsızlıq yuvasına çevirməkdə təqsirləndirilir



**Müğənni Maral Tahirqızı barəsində başlanmış cinayət işinin maddəsi məlum olub. Xətai Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, o, Cinayət Məcəlləsinin 244.1-ci (Fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə) maddəsi ilə təqsirli bilinir. Cinayət işinin istintaqı yekunlaşmaq üzrədir. M. Tahirqızı APA-ya açıqlamasında ona qarşı Cinayət Məcəlləsinin 244.1-ci maddəsi ilə ittiham irəli sürülməsini təsdiqləyib:**

"Hələ ötən ilin may ayında Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsi mənim Xətai rayonunda yerləşən mənzilimdə əməliyyat keçirdi. Polis əməkdaşları evimdə axtarış apardı, lakin mənzilimdə heç kimi tapmadılar. Axtarışlardan sonra isə məni polisə aparıb gecə saat 1-dək orada saxladılar. Həmin hadisədən sonra məni tez-tez Xətai polisinə çağıraraq ifadəmi alırdılar. Ötən ilin sonlarında müstəntiq mənə dedi ki, barəmdə Cinayət Məcəlləsinin 244.1-ci maddəsi ilə cinayət işi başlanıb. Təbii ki, mən bu ittihamları qəbul etmədim, indi də etmirəm".

M. Tahirqızı həmçinin bu məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin rəhbərliyinə şikayət ünvanladığını da qeyd edib. Qeyd edək ki, M. Tahirqızının Cinayət Məcəlləsinin 244.1-ci maddəsi üzrə təqsiri sübuta yetirilsə, ona iki yüz saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası verilə bilər.

## Azərbaycanda 10 Mənzil Kommunal Təsərrüfatı Birliyi vergidən yayınır

**Azərbaycanda 10 Mənzil Kommunal Təsərrüfatı Birliyinin vergidən yayındığı məlum olub. "APA-Economics"in məlumatına görə, fevral ayının 4-nə olan borclu vergi ödəyicilərinin siyahısı Vergilər Nazirliyinin saytında yerləşdirilib. Məlumatda qeyd edilib ki, Bakı şəhərinin Xətai, Yasamal, Nəsimi, Suraxanı, Sabunçu və Səbayel rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi, Abşeron rayon Mənzil-Kommunal Təsərrüfatı İstehsalat-İstismarı Təmiri Birliyi, Şirvan şəhər Mənzil Təsərrüfatı İdarəsi və Lənkəran şəhər Mənzil İstismar və Kommunal Müəssisələr İdarəsi vergi borcunu ödəmir.**

Borclu vergi ödəyicilərinin siyahısında Qaradağ rayon Kanalizasiya İdarəsi və "Baklift-1", "Bakılift-2" İxtisaslaşdırılmış İstehsalat İdarələri də yer alıb. Bununla yanaşı, borcun məbləği göstərilməyib.

## Luqanskda Azərbaycan diasporunun keçmiş rəhbəri qətlə yetirilib

**Ukraynanın Luqansk şəhərinin Şevçenko kvartalında Luqansk vilayəti üzrə Azərbaycanlılar Konqresinin keçmiş sədr müavininin meyiti tapılıb. Luqansk Vilayəti Azərbaycanlıları Konqresinin sədri Rasim Uğurluyev APA-ya deyib ki, əslən Azərbaycanın Qazax rayonundan olan, Ukrayna vətəndaşı, 1957-ci il təvəllüdlü Yasinəli Nəsibovun meyiti fevralın 3-ü səhər saatlarında rayon mərkəzindəki marketlərdən birinin qarşısında, öz avtomobilində aşkarlanıb.**

O, avtomatdan açılmış atəş nəticəsində ölüb. Meyitin üzərində çoxsaylı güllə yarası olub. Hazırda separatçı "Luqansk Xalq Respublikası"nın nəzarətində olan şəhərdə onun kiminləsə intriqasının, probleminin olmadığı bildirilir. Hazırda Y. Nəsibovun meyitinin Azərbaycana gətirilib doğulduğu rayonda dəfn olunması üçün tədbirlər görülür.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


## "Nar Mobile" dəyərli kitablara endirim fürsəti qazandırır

Turbo-paketləri aktivləşdirən hər bir "Nar" abunəçisi "Əli və Nino" kitab dükanlarından endirimlər qazanmağa davam edir

Nar mobile

**Elm və təhsilə, mədəniyyət və maariflənməyə xüsusi diqqət yetirən "Nar Mobile" abunəçilərinin intellektual səviyyəsinin artırılması və maariflənmənin inkişafına nail olmaq üçün daima xüsusi səy göstərir. Kitaba olan sevgini artırmaq, ona dəyər qazandırmaq üçün mobil operator tanınmış kitab mağazaları şəbəkəsi ilə əməkdaşlığını davam etdirir. Belə ki, "Nar" mobil operatorunun "Əli və Nino" kitab mağazaları şəbəkəsi ilə birlikdə istifadəçilər üçün təqdim etdiyi mükəmməl fürsət məhz bu əzmkarlığın təzahürüdür. Bu əməkdaşlığın nəticəsi kimi öz telefon və ya planşetində turbo-paketləri aktivləşdirən hər bir "Nar" abunəçisi "Əli və Nino" kitab mağazaları şəbəkəsindən endirimlər qazanır.**

**Xatırladaq ki, kampaniya çərçivəsində "Turbo S" paketini aktivləşdirən abunəçi 25%, "Turbo M" paketini aktiv edən istifadəçi 30%, "Turbo L" paketini aktivləşdirənlər isə 40% endirim əldə edirlər. Endirimdən yararlanmaq üçün aktivləşdirmə SMS-ni "Əli və Nino" kitab dükanlarındakı satış məsləhətçisinə təqdim etmək yetərlidir.**

bakcell

## «Bakcell» abunəçiləri 2 gün pulsuz danışacaqlar

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti CIN abunəçilərinə pulsuz danışmaq imkanı qazandırır.**

**Pulsuz 2 gün kampaniyası çərçivəsində balansını bir dəfəyə minimum 5 AZN məbləğində və daha artıq artıran CIN abunəçiləri növbəti gündən etibarən iki gün ərzində (saat 00:00-dan 18:00-dək) şəbəkədaxili pulsuz danışa biləcəklər. 2 günlük pulsuz danışıq müddəti ayda bir dəfə təqdim olunur.**

**«Bakcell» abunəçiləri nömrələrinin balansını vahid ödəmə kartları ilə yanaşı onlayn ödəmə, ATM, E Top-up xidməti, ödəmə köşkləri, bank filialları kimi alternativ ödəmə üsulları vasitəsilə artıra bilərlər.**

**Kampaniya haqqında əlavə məlumat almaq üçün 5070 nömrəsinə boş SMS (pulsuz) yollayın və yaxud bu linkdən istifadə edin: http://www.bakcell.com/az/2-days-for-free**

Yeni MÜSAVAT
N 26 (6054) 5 fevral 2015

**Azərbaycanda boşanmış cütlüklər arasında təqib, qətl və cinayət halları artıb. Cütlüklər boşandıqdan sonra belə keçmiş ərləri qadınların həyatına müdaxilə etməkdən əl çəkmir. Boşanan cütlüklərin böyük əksəriyyəti düşmən münasibətdə olurlar.**

# "Ölkədə psixopatların sayı gündən-günə artır"

## **Ekspert:** "Azərbaycan cəmiyyətində psixopatiya partlamağa hazır bomba kimidir"



Mövcud durumun acınacaqlı olduğunu bildirən psixoloq Dəyanət Rzayev deyir ki, kişinin boşandıqdan sonra qadının həyatına müdaxilə etməsi psixopatiyadan başqa bir şey deyil: "Psixopat o şəxslərə deyirlər ki, nə özü yaşayır, nə də başqasını yaşamağa qoyur. Azərbaycan cəmiyyətində psixopatların sayı gündən-günə artmaqdadır. Mən belə halların şahidi olmuşam ki, cütlüklər boşanarkən ər arvadına şərt qoyur ki, boşandıqdan sonra ailə qura bilməzsən. Keçmiş ər tərəfindən törədilən qətllərin əksəriyyəti məhz boşanmadan sonrakı qısqanclıq səbəbindən baş verir. Halbuki həmin kişilər özləri ailə qurur, övlad sahibi olurlar, ancaq qadınlara bu haqqı tanımırlar. Azərbaycan kişilərində belə bir xüsusiyyət var ki, bu qadın mənimdirsə, boşandıqdan sonra belə heç kim onunla münasibət qura bilməz. Buna görə də keçmiş həyat yoldaşlarını ömür boyu təqib edirlər. Bu cür cinayətlərin sayının az olması üçün polis orqanları daha operativ işləməlidir. Çünki belə hadisələr öncə təhdidlərlə başlayır. Əgər qadın polisə müraciət edirsə, onu mühafizə ilə təmin etmək lazımdır. Cinayət baş vermədən qarşısı alınmalıdır".

**Ekspertin sözlərinə görə, bir çox Azərbaycan kişilərində eqoizm hissi yüksək olduğundan onlar qadını özlərinə məxsus əşya kimi görürlər:** "Bu mənim şəxsi fikrimdir. Kişilərdə belə bir eqoizm var ki, bu qadın mənə məxsusdur, boşandıqdan sonra belə bu dəyişməyəcək. Burada qadına bir şəxsiyyət kimi yox, əşya kimi yanaşmaqdan söhbət gedir. Bu patoloji problemdir. Ancaq insanlar gedib bundan müalicə olunmaq istəmir".

**Ekspertin sözlərinə görə, boşanmış cütlüklər arasındakı gərgin münasibətlər uşaqlara da çox pis təsir edir:** "Əksər hallarda tərəflər bir-birinə düşmən münasibətdə olur. Uşaqları bir-birindən gizlədirlər, tərəf tutmağa məcbur edirlər. Bu da uşaqların psixologiyasını zədələyir. Xarici ölkələrdə isə belə deyil. İnsanların xasiyyəti uyğun gəlmirsə boşanırlar, hər iki tərəf ailə qurur, sonradan ailələr dost olurlar. Uşaqlar da mehriban mühitdə böyüyür, atasına və ya anasına düşmən olmaq məcburiyyətində qalmır. Azərbaycanda isə boşananlar ömür boyu düşmən olurlar. Bu Şərq xalqlarına məxsus bir xüsusiyyətdir. Xristian xalqları belə məsələlərdə daha tolerantdır. Azərbaycan cəmiyyətində isə bu bir göstəricidir ki, ayrılan insanlar düşmən olmalıdır. Bu da psixopatiyadan irəli gəlir. Psixopatiya geniş yayılmış gizli bir xəstəlikdir və o insanlar cəmiyyətdə normal insan kimi qəbul olunur. Tarixdə çoxlu psixopatlar olub. Məsələn, inkvizisiya məhkəməsini quranlar, insanları yandıranlar... Bu hal bütün cəmiyyətlərdə mövcuddur. Ancaq Azərbaycan cəmiyyətində psixopatiya partlamağa hazırlaşan bomba kimidir. Bu bomba partlayandan sonra insanlar yolda da bir-birini öldürəcəklər. Artıq bu istiqamətdə gedirik".

**Ekspert hazırda Azərbaycanda insanların əksəriyyətində psixoloji xəstəliklər olduğunu iddia edir:** "Bir sistem qurulmalıdır ki, bu cür şiddətə meylli insanları müalicə etsin. Problemin bu cür geniş yayılmasının səbəbi insanların sosial problemlər qarşısında aciz qalmasıdır. Səhərdən axşama qədər çalışan ailə başçısı ayda 250-300 manat pul qazanırsa, bu insanda psixoloji problemlərin olması normaldır. O insan ailəsinin gündəlik xərclərini ödəyə bilmir, daim maddi sıxıntı içərisindədir. Sovet dövründə bütün dövlət idarələrində çalışanları, fəhlələri belə bir ay istirahətə göndərirdilər. İndi isə aztəminatlı insanlar il ərzində istirahətsiz çalışır ki, bu da əsəblərə təsir edir. Normal insan gün ərzində 8 saatdan artıq çalışmamalıdır. Ancaq bu gün 12 saatdan artıq işləyən insanlar var. Aztəminatlı insanlar üçün heç bir istirahət mərkəzi yoxdur. Bütün bu sosial problemlər sonda psixoloji problemlərə səbəb olur".

❑ **Nərgiz LİFTİYEVA**

# Ətin ucuzlaşması ərzaq mallarına təsir edəcəkmi?

## "Kənd təsərrüfatı məhsulları bütün dünyada ucuzlaşır"

**Ölkədə mal və qoyun ətində baş verən ucuzlaşma digər məhsullara da təsir göstərə bilər. Ekspertlər deyirlər ki, şərtlər bunu diqtə etsə də, mövcud şərait əksini göstərə bilər. Qeyd edək ki, bir neçə gündür ölkədə mal və qoyun ətinin qiymətində ucuzlaşma baş verib. İri və xırda buynuzlu heyvanların və ətin qiyməti ucuzlaşıb. Ekspertlər bunun bir neçə səbəbini göstərməklə bərabər, tezliklə bahalaşmanı da istisna etmirlər.**



**Ekspert Samir Əliyev** məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində hazırda ölkədə ucuzlaşma üçün zəmin var: "Nəinki ərzaq, hətta digər məhsulların da ucuzlaşması üçün iqtisadi zəmin var. Söhbət ondan gedir ki, biz kifayət qədər xarici ölkədən Azərbaycana məhsullar gətiririk. Qeyri-ərzaq, ərzaq, ət və ət məhsulları gətirilir. Keçən il ölkəyə ət idxalı 7-8 faiz artıb. Həmçinin süd, kərə yağı, meyvə-tərəvəz gətirilir, şəkər gətirilir. Yeyinti məhsulları, kifayət qədər idxal məhsulları xaricdən gətirilir ki, bunların da qiyməti 4-5 ayla müqayisədə bu gün ucuzlaşmalıdır".

**Ekspert qeyd edir ki, iki səbəbə görə ölkədə ucuzlaşma baş verməlidir:** "Dünyada neftin ucuzlaşmasına görə dünya üzrə kənd təsərrüfatı məhsulları ucuzlaşır. Xammal, əmtəə bazarlarında ucuzlaşma müşahidə edirik. Buraya həm taxıl aiddir, həm digər məhsullar, eyni zamanda un məmulatları, kənd təsərrüfatı məhsulları bütün dünyada ucuzlaşır. Bu, imkan verir ki, Azərbaycana da bu məhsullar ucuz şəkildə daxil olsun. Ucuzlaşmanı şərtləndirən ikinci səbəb xarici ölkələrin valyutasının ucuzlaşmasıdır. Rusiya, İran, Türkiyə kimi ölkələrdən, Orta Asiya ölkələrindən, Gürcüstandan gələn məhsullar ucuzlaşmalıdır. Bu ölkələrin hamısının valyutası manata münasibətdə ucuzlaşıb. Bu o deməkdir ki, gətirilən mallar, ərzaq məhsulları Azərbaycana ucuz başa gəlməlidir. Əvvəlki dövrlə müqayisədə, məsələn, bir illə müqayisədə ucuz olmalıdır. Amma biz bunu çox təəssüf ki, müşahidə etmirik. Rusiya valyutası iki dəfəyə qədər ucuzlaşıb, bu, o deməkdir ki, oradan gətirilən mallar xeyli dərəcədə ucuzlaşmalıdır. Amma biz bunu müşahidə etmirik. Bunun da səbəbləri var. Bir tərəfdən gömrüklə bağlı olan məsələdir ki, qeyri-rəsmi ödənişlər var. Hər məhsulu gömrük buraxmır. İkinci səbəb idxal edən monopolist şirkətlər var ki, digər şirkətləri bazara buraxmırlar. Qiymətləri diqtə etdiklərinə görə də dünyadakı ucuzlaşma bizə təsir göstərmir".

**Ekspert Qadir İbrahimli isə qeyd edir ki, hazırkı şərtlər həmin qiymət ucuzlaşmasını istisna edir:** "Mən hətta ətin ucuzlaşmasını da uzun müddət davam edəcək proses hesab etmirəm. Buna müvəqqəti bir hal kimi baxıram, çox güman ki, bir azdan yenidən ətin qiymətində bahalaşma ilə bağlı meyllər olacaq. Məsələ ondadır ki, ölkənin gömrük sistemində elə bir situasiya yaradılıb ki, ucuzlaşma tendensiyalarının qarşısı bəri başdan alınır. Əgər Rusiyada avtomobil ucuzlaşıbsa, azərbaycanlılar gedib ucuz avtomobil alıb ölkəyə gətirmək istəyirlərsə, onlardan gömrükdə qeyri-rəsmi ödənişlər tələb edirlər. Bu halda da ucuzlaşma təbii ki, aradan qalxır. Bu baxımdan, idxal monopoliyası nə qədər sərt olacaqsa, ucuzlaşma tendensiyaları çox nadir hallarda baş verəcək. O hallarda baş verəcək ki, artıq qiymətlərə inzibati yollar daxil olur. Məsələn, bir müddət əvvəl yumurtanın qiyməti bahalaşmanda dövlət başçısı özü müdaxilə etdi və bahalaşmanı dayandıra bildi".

❑ **Röya RƏFİYEVA**




# Müdafiə Nazirliyi əsgər atasının ittihamlarına cavab verdi

## Nazirliyin yaydığı rəsmi məlumatda özünə qəsd edən əsgərin psixi problemlərinin olduğu qeyd edilir

**"Ötən həftə Tovuzda yerləşən N saylı hərbi hissədə xidmət çəkən 19 yaşlı Tarverdiyev Çingiz Aydın oğlu komandiri tərəfindən başından tapança ilə güllələnib. Yaralı dərhal Gəncə şəhər hərbi hospitalına aparılıb. Əsgər baş nahiyəsindən güllə yarası aldığı üçün hazırda komadadır". Bu barədə "Azadlıq" qəzeti məlumat verib. Əsgərin atası Tarverdiyev Aydın Hüsü oğlunun "Azadlıq"a dediyinə görə, övladının vəziyyətinin ağır olmasına baxmayaraq hələ də heç bir tədbir görülməyib. Onun dediyinə görə, hadisə şəxsi zəmində baş verdiyi üçün gizlədilir. Elə bu səbəbdən əsgər baxımsız vəziyyətdə qalıb. Əsgərin valideyni Hərbi Prokurorluğa və Müdafiə Nazirliyinə şikayət etdiyini, lakin bunun nəticəsiz qaldığını deyir.**

Aydın Tarverdiyev oğlunun 2014-cü il yanvar ayının 6-da Cəlilabad rayonundan hərbi xidmətə getdiyini və Gəncə şəhərində hərbi xidmətə başladığını deyib. Onun sözlərinə görə, oğlu xidmətinin ilk günlərində soyuqlayaraq xəstələnib. Ancaq xəstə əsgərə heç bir tibbi yardım göstərilməyib və bundan təsirlənən Çingiz özünə qəsd edərək, qolunun damarlarını kəsib. Aydın Tarverdiyevin sözlərinə görə, hospitaldan sonra özünə qəsd edən Çingizin məhkəməsi olub və o, 5 ay azadlıqdan məhrum edilib. Cəzasını çəkdikdən sonra əsgər xidmətini Tovuz rayonunda N saylı hərbi hissədə davam etdirib. Dekabr ayında ona 10 günlük məzuniyyət verilib.

**A.Tarverdiyev bildirir ki, oğlu ilə sonuncu dəfə hadisədən bir gün əvvəl, yanvarın 26-da danışıb:** "Çingiz hər şeyin normal olduğunu bildirdi. Səhər isə mənə hərbi hissədən özünü polkovnik rütbəsində olan komandir kimi təqdim edən bir şəxs tərəfindən zəng gəldi. Həmin şəxs bildirdi ki, oğlun silahı özünə dirəyib, telefonda musiqi səsləndirir və siqaret çəkir. Mən əmr gözləyirdim ki, onu vurum, amma bu vaxt oğlun bizi atəşə tutdu. Biz də məcbur olub cavab atəşi açdıq və atılan güllələrdən biri oğluna dəydi".

**A.Tarverdiyevin sözlərinə görə, oğlunun vəziyyəti kritik olsa da buna müvafiq tibbi yardım göstərilmir:** "Oğlum artıq neçə gündür komadadır. Gəncə hospitalındakı tibbi müdaxilə yetərli deyil. Çingizi Bakıya götürməlidirlər. Amma bunu etmirlər. Oğlumun qanını batırmaq istəyirlər. Amma mən bu məsələnin tam araşdırılması və günahkarın öz cəzasını alması üçün əlimdən gələni edəcəm. Müdafiə Nazirliyinə və Prezident Administrasiyasına gedib öz etirazımı bildirəcəyəm".

**İttihamlarla bağlı ötən gün Müdafiə Nazirliyinin mətbuat xidmətinə müraciət etdik. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən yazılı cavabda qeyd olunur ki, əsgər atası Aydın Tarverdiyevin dedikləri həqiqətə uyğun deyil və hadisə haqqında yanlış fikir formalaşdırmaq məqsədi daşıyır:** "Belə ki, hadisə ilə bağlı Hərbi Prokurorluq tərəfindən cinayət işi açılıb və araşdırma aparılır. Aydın Tarverdiyev oğlunun məsuliyyətdən yaxa qurtarmasına çalışmaq məqsədilə böhtan xarakterli xəbərlər yayır və ictimaiyyətə qeyri dəqiq, qərəzli məlumatlar verir.

Halbuki söhbət zamanı əsgərin atası, oğlu Çingiz Tarverdiyevin uşaq vaxtlarından əsəbi olduğunu bildirib. Bundan əlavə, o qeyd etmişdir ki, oğlu Çingiz Tarverdiyev hərbi xidmətə gəlməmişdən əvvəl də davranışlarında aqressiv olub. Əsəbiləşəndə özünü idarəetməni tez-tez itirir, bu səbəbdən də atasının sağ əlinin barmağına balta ilə xəsarət yetirmiş, iki qardaşına bıçaqla hücum edərək onları da bıçaqlamaq istəmişdir".

**Rəsmi açıqlamada həmçinin hadisə zamanı əsgər Çingiz Tarverdiyevə zabit tərəfindən xəsarət yetirilməsi məsələsi də qeyri-dəqiqdir:** "Hospitalda həkimlərə təşəkkür edən əsgər atası heç kimi bu işdə təqsirləndirməmiş, oğlunun belə hadisəni törətməyə qadir olduğunu dəfələrlə qeyd etmişdir. Əsgər Tarverdiyev Çingiz Aydın oğlu, onunla hərbi hissənin psixoloqu tərəfindən aparılan söhbət zamanı özünün bildirdiyinə görə o, əvvəl də 2 dəfə özünə qəsd etməyə cəhd etmişdir. Bütün bu əməllərinə görə 2014-cü ilin may ayında əsgər Ç.A.Tarverdiyev öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırmağa görə təqsirli bilinərək məhkəmənin hökmünə əsasən 5 (beş) ay müddətinə intizam xarakterli hərbi hissədə saxlanma cəzasına məhkum edilmişdir".

Müdafiə Nazirliyi mətbuat xidməti bildirir ki, KİV-də bu cür yalan, böhtan dolu xəbərlər yaymaqla əsgərin atası Aydın Tarverdiyev oğlunun cinayət məsuliyyətinə cəlb olunmasından yaxa qurtarmasına şərait yaratmağa çalışır.

❑ **KƏNAN**

YENİ MÜSAVAT

Son səhifə

N 26 (6054) 5 fevral 2015

# Dilənçilik qadağan edilir

Bu ölkədə dilənənlərə pul verənlər də cəzalandırılacaq. Avropanın ən inkişaf etmiş ölkələrindən birində dilənçilik qadağan edilə bilər. Ölkə rəhbərliyi sərt qanunlarla xüsusilə Şərqi Avropadan gələn və dilənçiliklə məşğul olanlara qarşı mübarizə işini tənzimləməyə çalışır. Hazırda hökumət bu sahədə qanun layihəsi üzərində işləyir. Layihədə dilənçiliyi qadağan etməklə yanaşı, onlara pul verənlərin də cəzalandırılması nəzərdə tutulub. Bundan əlavə layihə də dilənçiləri ölkəyə gətirən şəxs, təşkilat sahiblərinin də bir iz azadlıqdan məhrum edilməsi gözlənilir. Norveç mətbuatı qanun layihəsinin qısa zaman ərzində qüvvəyə minəcəyini gözləyir.





## Qara maşınlara qadağa

Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov ölkədə tünd rəngli maşınlardan istifadə etməyi və ixracatını pis şans gətirdiyini deyərək qadağan edib. Yanvar ayında Dubaydan gətirilmiş iki qara rəngli maşın gömrükdən buraxılmayıb və maşın sahiblərinə "ağ maşın alın, ağ şans gətirir" deyə tövsiyə verilib. Ölkə prezidentinin yeni ildən etibarən belə bir qadağa qoyması ölkədə bəzi narazılıqların yaranmasına səbəb olub. Maşın istehsalçıları isə narazılıqlarını belə dilə gətiriblər: "Bu ölkədə hər il bir şey qadağan edilir. 3,5 motor gücü olanlar, qara şüşəlilər, 1 yaşından çox olanlar, lüks maşınlar, indi də qara maşınlar qadağan edilib".

Ölkənin paytaxtı olan Aşqabad şəhərindəki ustalar artıq qara rəngli maşınları düzəltmirlər. Rusiyanın "RİA Novosti" xəbər agentliyi ölkə prezidentinin ağ rəngli "Limuzun" markalı maşın istifadə etməsindən sonra bütün vəzifəli şəxslərin ağ maşın istifadə etməyə başladığını yazmışdı. Yeni qadağanın da bununla bağlı olduğu deyilir.

Xatırladaq ki, Türkmənistanda bir maşını rəngləmənin qiyməti 2 min dollardır. Ağ rəngin şans gətirdiyinə inanan türkmənlər Aşqabad şəhərindəki bütün binaların ağ mərmərlə bəzədiləcəyini düşünürlər.

# İt yeməyi yeyənlər



Lucy Postinsin vəzifəsi it yeməklərinin dadına baxmaqdır. İtlərin mədəsinə gedəcək olan yeməklərin, sadəcə, içindəki məmulatların deyil, tam hazır şəkildə ortaya çıxan yeməklərin də dadına baxır. Qısacası hər kəsin mədəsini qaldıran it yeməklərini yemək Lucy üçün adi bir şeydir. Üstəlik, bu işi çox sevərək edir. 38 yaşlı qadın it yeməklərinin dadını, qoxusunu, rəngini və içindəki məmulatları xüsusi şəkildə yoxlayır. Eyni zamanda heyvan yeməklərinin insanların yediyi qidalardan hazırlanmasına önəm verir. Beləliklə, insanların yediyi qidaları qarışdıraraq it yeməyi hazırlayan ilk firmanın sahibinə çevrilib. Şanslı və varlı itlər onun hazırladığı yeməkləri yeyirlər.

## Xəstələrə narkotik icazəsi



Almaniyada xəstələrin narkotikdən istifadə etməsinə icazə veriləcək. Narkotiklə mübarizə idarəsinin mediaya verdiyi məlumatda bildirilir ki, ölkədə narkotiklə mübarizə məsələsində bəzi güzəştlər olacaq. "Die Velt" qəzetinin yaydığı məlumata görə, narkotikdən istifadə edən bəzi ağır xəstələrə maddi yardımlar ediləcək. Çünki bəzi həkimlər mərəzi sinir sistemi xəstəliyi olan MS-dən əziyyət çəkənlərə narkotik yaxşı təsir edir. Eyni zamanda xərçəngdən və AİDS-dən əziyyət çəkənlərin həm iştahasını açır, həm də əhvalını yaxşılaşdırır. Bugünlərdə müzakirə edilən narkotik icazəsinin bir çoxlarına yaxşı təsir edəcəyi düşünülür.



## İnternetə görə əlini kəsdi

Çinin Nantong şəhərində yaşayan 19 yaşlı bir gənc internet asılılığından xilas olmaq üçün sol əlini qoparıb. Daha sonra isə əlindəki qanaxmanı durdura bilmədiyi üçün xəstəxanaya gedib. Taksi ilə xəstəxanaya gedən oğlanın əli yenidən yerinə tikilib. Adı açıqlanmayan "Little Vang" ləqəbli oğlanın anası oğlunun başına gələnlər haqda bunları deyib: "Otağına girdiyim zaman onu tapa bilmədim. Mətbəxdən götürdüyü bıçaqla əlini kəsdiyi və xəstəxanaya getdiyi haqda məlumatın yazılı olduğu kiçik məktub tapdım".

Rəsmi məlumatlara görə, Çində 24 milyon internet asılılığı olan gənc var. Bu gəncləri internetdən uzaqlaşdırmaq üçün xüsusi reabilitasiya mərkəzi yaradılıb.




QOÇ - Bu təqvimdə lazımsız yerlərə xərc çəkməyi dayandırın. Hər bir məsələdə reallığa və məntiqə əsaslanın. Saat 17-dən sonra maraqlı sürprizlərin şahidi olacaqsınız. Sirlərinizi heç kimə deməyin.

BUĞA - Əsas vaxtınızı istirahətə yönəltsəniz, daha yaxşı olar. Çünki bu təqvimdə aktivlik enerjiniz aşağı olduğundan hər hansı çətinliyin anındaca həll olunması ağlabatan görünmür. Qohum-əqrəbaya baş çəkin.

ƏKİZLƏR - Yeni işlərə başlamaqda çətinlik çəksəniz, məsləhətləşməkdən çəkinməyin. Onu da bilin ki, bu gün saat 11-14 arası istənilən riskiniz müvəffəqiyyətlə nəticələnəcək. Şəxsi büdcənizdə artım da gözlənilir.

XƏRÇƏNG - Əgər uzaq səfərə çıxmaq fikriniz varsa, bu tarixdən yaxşı gün tapa bilməyəcəksiniz. Nəsil karmasını inkişaf etdirmək, keçmişinizdə rol oynayan insanlarla təmas gərginliyinizi xeyli səngidə bilər.

ŞİR - Cari işlərinizlə məşğul olmağınız yetər ki, günün ümumi mənzərəsindən razı qalasınız. Deməli, hər hansı yeni işlərə başlamaq və ya riskli sövdələşmələr aparmaq üçün münasib vaxt deyil.

QIZ - Qayda-qanuna riayət edin. Gizli alış-veriş, həmkar və şəriklərə yalan satmaq ağır nəticələrə səbəb ola bilər. Bu gün ağlınız kəsməyən işlərə pul qoymaq, xüsusən də kiməsə borc vermək də olmaz.

TƏRƏZİ - Bu gözəl gündə ulduzlar perspektivli təkliflər alacağınızı bildirir. Amma belə bir gündə doğmalarınızla münasibətlərinizin soyuqlaşmasına da imkan verməyin. Pul da gözlənilir.

ƏQRƏB - Üzərinizə düşən başlıca vəzifə mövqelərinizi qorumaqdan ibarət olmalıdır. Perspektivlərinizə daha tez yetişməyiniz üçün bunun böyük əhəmiyyəti ola bilər. Qidanıza fikir verin.

OXATAN - Qarşınızda normal bir gün durur. İştirakçısı olduğunuz proseslər daha çox çıxardığınız qərarlardan asılı olacaq. Hansısa məsələdə tərəddüdünüz olarsa, etibarlı və təcrübəli insanlarla məsləhətləşin.

OĞLAQ - Hər təsadüfi adama etibar etməyin. Əks təqdirdə, planlarınızın inkişafını ləngidəcəklər. Daşınmaz əmlak alqı-satqısında gözüaçıq olun. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

SUTÖKƏN - Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın. Çünki yaşadığınız məkanda perspektivləriniz daha böyükdür. Bütün hallarda doğru danışın, səhv və günahlarınızı etiraf etməyi bacarın.

BALIQLAR - İştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli səfərlər, maliyyə uğurları da yolunuzu gözləyir. Yuxu və qida rejiminizi də diqqətdə saxlayın. Bədbin düşünməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Netanyahu uşaq baxıcısı olacaq



İsrailin baş naziri Binyamin Netanyahu qarşıdan gələn seçkilərə görə yeni kampaniyaya start verib. Uşaq baxıcısı roluna girərək seçicilərdən səs gözləyən Netanyahu seçki kampaniyasında istifadə etmək üçün xüsusi videoçarx hazırlatdırıb. Baş nazirin bu addımı hər kəsi heyrətləndirib. İsraildə 17 mart 2014-cü ildə keçirilən parlament seçkilərində də Netanyahu bir bağçada baxıcı olmuşdu.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300